QƏLƏBƏYƏ APARAN YOL

*Heydər Əliyev – 100*



*Heydər Əliyev – 100*

# QƏLƏBƏYƏ APARAN YOL

## HÜSEYN ƏLİXANOV

**HÜSEYN ƏLİXANOV**

# QƏLƏBƏYƏ APARAN YOL

Bakı - 2023

Redaktor: Fidan Əlixanova

Hüseyn Əlixanov.
QƏLƏBƏYƏ APARAN YOL
Bakı: «Zərdabi Nəşr» MMC, 2023, 240 səh.

Kitab Azərbaycanın müasir dövlətçiliyinin banisi, dünya şöhrətli böyük siyasətçi, mahir diplomat, xalqımızın qürur mənbəyi, əbədiyaşar əfsanəvi insan, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuşdur.

Kitabda yaxın tariximizdə düşmən qüvvələrin və onların nankor əlaltılarının xalqımıza qarşı törətdikləri müsibətlərdən və onlardan qurtulma yollarından bəhs edilmişdir.

Eyni zamanda kitabda müxtəlif dövrlərdə cərəyan edən hadisələr və istintaqı aparılan ayrı-ayrı cinayət işləri üzrə istintaq-əməliyyat fəaliyyətinə dair faktiki epizodlar da öz əksini tapmışdır.

**ISBN 978-9952-554-71–7**

© Hüseyn Əlixanov, 2023



*Azərbaycan xalqının ümummilli Lideri*
Heydər Əliyev



*Azərbaycan Respublikasının Prezidenti*
İlham Əliyev



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*
Mehriban Əliyeva



Müstəqil Azərbaycanın bu günü və gələcəyi...



Qarabağ Azərbaycandır!



Zəfər Günü Şuşada



Vətən uğrunda əməllərimiz müqəddəsdir



Türkiyə – Azərbaycan qardaşlığı əbədidir!
Tarixi Şuşa bəyannaməsi



8 Noyabr Zəfər Paradı

# E P İ L O Q

Milli dəyərlərimizi, xalqımızın gözəl adət və ənənələrini qoruyub gələcək nəsillərə ötürmək hansı məkanda yaşamasından və cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq hər bir azərbaycanlının mənəvi borcudur. Hər kəsdə Ümummilli mənafe, milli həmrəylik, sarsılmaz birlik, təəsübkeşlik və yüksək məsuliyyət hissinin mövcudluğu ölkəmizin iqtisadi, siyasi, hüquqi, mədəni həyatının hərtərəfli inkşafına təsir edən amillər olmaqla yanaşı, eyni zamanda suverenliyimizin, ərazi bütövlüyümüzün və siyasi müstəqilliyimizin əbədiliyini şərtləndirən ən ümdə dəyərlərdəndir.

XVIII – XIX əsrlərdə Çar Rusiyası Azərbaycana silahlı ordu yeritməklə xərac topladığı Azərbaycan xanlıqlarını ayrı-ayrılıqda əsarətdə saxlamaq məqsədilə Azərbaycanın birləşməsi ugrunda mübarizə aparan qüvvələrə qarşı kəskin mövqe nümayiş etdirirdi. Çar üsulu idarəsindən göndərilən silahlı ordu hissələri ilə vuruşmaq gücündə olmayan, eləcə də XX əsrin 20-30-cu illərində Sovetlər hakimiyyətinə tabe olmaqdan imtina edən ayrı-ayrı qaçaq dəstələri, habelə öz əqidəsi və iradəsi naminə pərakəndə mübarizə aparan ayrı-ayrı qüvvələr, əvvəllər çar mütləqiyyətinin, sonralar bolşeviklərin amansız təqiblərindən ailəsini qorumaq, bəzən də özləri təhlükəsizliklərini təmin etmək və mübarizələrini qaçaqçılıq yolu ilə davam etdirmək məqsədilə gözdən uzaq dağlıq məkanlara çəkilərdilər.

Vahid ölkə çərçivəsində birləşmək uğrunda o zamanın vətənpərvər və milli qürura malik əcdadlarımız tərəfindən aparılan mübarizələr Azərbaycanın bütövlüyünü qiymətləndirmək iqtidarında olmayan bir sıra xanların, bəylərin, hökmranlıq etdikləri əyalətləri çərçivəsində yalnız öz mütləq hakimiyyətlərini qoruyub saxlamağa xidmət edən niyyətləri birləşmə tərəfdarı olan qüvvələrin uğursuzluğa düçar olması səbəblərindən məhz biri idi.

Azərbaycan xalqı əsrlər və illər boyu ayrı – ayrı işğalçı ölkələrin əsarəti altında olmasına baxmayaraq, həmin dövrlərdə də müxtəlif elm, incəsənət, siyasət, hərb sahəsində istedadlı, ağıllı siyasi xadimlər, cəsur sərkərdələr yetişdirmişdir. Hələ eramızın əvvəllərində müdrik şair və yazıçılarımız, öz xalqının birliyi və azadlığı uğrunda mübarizələrə çağırışlar etmiş, haqsızlığa, ədalətsizliyə, cəhalətə qarşı nifrətini nümayiş etdirməkdən çəkinməmişlər. Lakin, hər zaman xalqımızın azadlıq mübarizəsi yadelli irticaçı qüvvələrin, amansız müqaviməti ilə qarşılaşmışdır. Azərbaycan xalqı əvvəllər rus çarizminin, sonralar bolşevizmin ermənipərəst şovinist və məkrli siyasətinin hədəfi olaraq mərhələ-mərhələ əraziləri zəbt olunmuş, təbii sərvətləri talan edilmiş, işgəncə və qırğınlarla müşaiyət olunan təcavüzlərə məruz qalmışdır.

Nəhayət, 1918- ci ilin mayında Azərbaycanın xaricdən və daxildən siyasi, iqtisadi çətinliklərə, fiziki qırğınlara məruz qaldığı mürəkkəb bir zamanda o dövrün milli azadlıq hərəkatı liderlərinin fədakarlığı və səyi nəticəsində Müstəqil Azərbaycan Cümhuriyyəti yaradıldı. Yarandığı ilk günlərdən başlayaraq Cümhuriyyət dövlət quruculuğu və

idarəçiliyi, o cümlədən təhsil, səhiyyə, ədliyyə, prokurorluq, ordu və digər mühüm sahələr üzrə dövlət qurumlarının təsis olunması və fəaliyyətə başlaması istiqamətində mümkün ola bilən zəruri və təxirəsalınmaz qərarlar qəbul etdi. Təəssüf ki, yenicə təşəkkül tapmaqda olan Müstəqil Azərbaycan Cümhuriyyəti düşmən və hiyləgər qüvvələrin xəyanətkarcasına hücumu nəticəsində 23 ay sonra uğursuzluğa düçar oldu...

# QİSAS

Bakının "Kubinka" adlanan məşhur məhəlləsindəki beş mərtəbəli binanın 4-cü mərtəbəsində 3 uşağın cansız cəsədləri aşkar olunmuşdu. Xüsusi istintaq qrupu hadisə yerinə çatanda həmin binanın qabağına xeyli adam yığılmışdı. Ekspert-kriminalist tərəfindən giriş qapısında, cəftədə, dəhlizdə və otaqda, hamamın qapısında, divarlarındakı əl-barmaq izləri, sıçrama, sürtünmə, eləcə də cəsədlərin ətrafında əmələ gəlmiş qan laxtalarından nümunələr, barmaq və dırnaqların arasında ilişib qalan tüklər götürülür. Tibb ekspertinin apardığı ilkin müayinəyə görə, dəhlizdə və otaqdakı iki qızın başında küt alətlə yetirilmiş xəsarətlər, bədənlərində əlbəyaxa çarpışmaya xas sıyrıntılar müəyyən edilir.

Zərərçəkmiş tərəf şübhələndikləri konkret şəxslərin olmadığını, həm də mənzildən hər hansı əmlakın, o cümlədən pul, qızıl-zinət əşyalarının yoxa çıxmadığını bəyan edirlər. Qohum-qardaş, qonşular bu ailənin sakit, mədəni, başqalarına münasibətdə xeyirxah, övladlarının isə nümunəvi əxlaq və tərbiyə sahibi olduqlarını söyləyirlər. Cinayətin törədilmə mexanizmi və vaxtı, qəsdin məhz uşaqların həyatına yönəlməsi kimi hallar diqqəti xüsusi olaraq cəlb edirdi. İlkin istintaq və əməliyyat məlumatlarından məlum oldu ki, mərhum uşaqların atası Arifin dörd qardaşı var. Qardaşlardan hər biri ali təhsillidir, dövlət

Çətin və ağır anlarında həmişə xalqinin yanında olmuş, dərin ağlı, siyasəti və müdrikliyi ilə xalqının etimadını qazanmış Ulu Öndər canından çox sevdiyi vətənini və xalqını parçalanmaq təhlükəsindən xilas etmək niyyəti ilə ona müraciət etmiş xalqının son ümidini qırmayaraq iyunun 9-da Bakıya gəldi. Qısa müddət ərzində ölkənin bütün sahələrində mövcud olan böhran vəziyyətlə tanış oldu. Növbəti dəfə həyatını təhlükə ilə üz-üzə qoyaraq Gəncəyə getdi, məhz uzaqgörən siyasəti və dərin zəkası sayesində aqressiv mövqedə olan ekstrimist qüvvələrlə üz-üzə gəlmək, onlarla danışıqlar aparmaq məcburiyyətində qaldı.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilir. Gecəni gündüzə qataraq ölkəni düçar olduğu bəlalardan qurtulmaq yollarını düşünüb, fikirlərini bölüşmək üçün ölkə Prezidenti Əbülfəz Elçibəylə müzakirə etmək istədikdə, sonuncunun iyunun 17-də heç kəsə rəsmi məlumat vermədən Bakı şəhərini tərk edib, mühafizəçilərindən bir neçəsi və həmyerlisi olan silahdaşları ilə birgə anadan olduğu Naxçıvanın Ordubad rayonunun Kələki kəndinə getməsi barədə məlumat alır.

Prezident Əbülfəz Əliyevin ölkəyə rəhbərlik etdiyi bir il ərzində, ölkənin həyatında nəinki müsbət dəyişiklik olmadı, əksinə, daha kəskin böhrana uğrayan sosial, iqtisadi, siyasi və kriminogen vəziyyət, müvafiq olaraq dövlət idarəçilik və hüquq mühafizə orqanlarının nəzarətindən çıxmağa başlamışdı. Acınacaqlısı o idi ki, "Yuxarılarda" özbaşınalığın, anarxiyanın və səriştəsizliyin baş alıb getməsi,

o cümlədən, dövlət əhəmiyyətli məsələlər üzrə ölkə başçısının real vəziyyətə hesablanmış konkret qərarlar qəbul etmək iqtidarında olmaması, həmin dövr üçün zəruri olan qətiyyətli və prinsipial mövqeyini nümayiş etdirə bilən idarəçilik təcrübəsinə malik olmaması hakimiyyətsizliyə gətirib çıxarmışdı. Hakimiyyətə gəldikləri ilk günlərdən dövlət idarəçiliyinin mühüm sahələrinə rəhbər vəzifələrə, milli hərəkatın nümayəndələri arasında təhsili və savadı ilə seçilən bir neçə gənc var idisə də, əfsuslar olsun ki, əksər hallarda, söz sahibləri radikal mövqeyi və populist çıxışları ilə mitinqlərdə ucuz reytinqə nail olan, lakin hər iki halda idarəçilik təcrübəsi olmayan şəxslər təyin olunmuşdular. Qanunları bilmədən, yaxud bilə-bilə qəsdən pozduqları hallarda, biri digərini, tutduqları mövqedən sui-istifadə və qanunsuz təzyiqlərlə müdafiə etməklə, əslində meydan hərəkatında qazandıqları formal etimadı, həmçinin, əldə etdikləri hakimiyyəti xalqın gözündən salır, dövləti qanunlarla deyil, subyektiv münasibətlər və primitiv əqidə birliyi sayesində qoruyacaqlarına ümidlə yanaşırdılar. Hər hansı sahədə reallaşdırılması mümkün ola bilən irəliləyiş istiqamətində, proqram və tədbirlərdən söhbət gedə bilməzdi. Ölkənin, xalqın gələcək taleyini, Prezident Əbülfəz Əliyev, o zaman Azərbaycanın neft yataqlarına gözünü dikən bir qrup avanturistlərə etibar etməyi planlaşdırmışdı. Türkiyə Prezidenti Dəmirəlin Azərbaycana olan qardaşlıq və dostluq mövqeyindən fərqli olaraq, hökumətə o dövrdə rəhbərlik edən hakimiyyətə Azərbaycanın taleyi o qədər də önəmli deyildi. O zaman dövlətimizin müstəqilliyinin təhlükə altında olduğu, tor-

paqlarımızın işğalı davam etdiyi bir zamanda, Azərbaycana münasibətdə digər qonşu ölkələrin də öz maraqları var idi. Xarici kəşfiyyat orqanları əməkdaşlarının və onların əlaltılarının hərtərəfli fəaliyyəti üçün hər cür münbit şərait mövcud idi. Dövlət müstəqilliyimiz əldə olunduqdan sonra da Azərbaycanın Dövlət Təhlükəsizlik orqanları və mövcud informasiya şəbəkəsi faktiki olaraq hələ də fəaliyyətdə olan SSRİ DTK- nın təsirindən azad olmamışdı. Dövlətlər arası qarşılıqlı münasibətlərin həmin dövrdə də kifayət qədər isti olmayan qonşu İranla gediş-gəlişin açılması uzun illər görüşməkdən məhrum olmuş, həsrət dolu intizarla gözlədikləri qohum-əqrəbaların, hər iki ölkə ərazisində görüşlərinə səbəb oldusa, digər tərəfdən xarici kəşfiyyat orqanları əməkdaşlarının, həm də daxili nankor qüvvələrin də fəallaşmasına şərait yaratdı.

Ölkəni belə bir qarışıq vəziyyətə gətirib çıxaran əsas amillərdən, şübhəsiz ki, birincisi rəhbər və aparıcı vəzifələrdə kadr siyasətinin düzgün həyata keçirilməməsi, o cümlədən, təcrübəli kadrların defisit olması, Prezident Ə.Elçibəyin aparatını, bir neçə ziyalı istisna olmaqla, əsasən milli hərəkatdan tanıdığı, hakimiyyəti birgə zəbt etdikləri, onun müsbət və mənfi cəhətlərinə bələd olan, dünyagörüşü məhdud, idarəçilik etikası və subordinasiya qaydalarından bixəbər, ambisiyaları əqli-zəkalarından xeyli üstün, özündən razı, əslində dövlət və ya onun hər hansı idarəçilik sahəsində təcrübəsi olmayan şəxslər təşkil edirdi. Ə.Elçibəyin hərəkat iştirakçıları arasında prezidentliyə namizəd olaraq yekdilliklə irəli sürülməsi, onun mülayim təbiəti, hər kəslə istər fərdi görüşlərində, istər-

sə də kütləvi tədbirlərdə sadəlöhvlük nümayiş etdirməsi, mitinqlərdə əksər əhalinin istək və arzularına yaxın ifadələrlə, ehtiras doğuran hisslərlə etdiyi çıxışları, ətrafında olan hər bir kəsdə ondan şəxsi məqsədlərlə yararlanacağı, arzu etdiyi karyeraya nail ola biləcəyi kimi bəsit, primitiv ümidlər yaratması idi. Hüquq-mühafizə orqanlarının qanuni fəaliyyətinə zərbə vuran mövcud idarəçilik sistemi ayrı-ayrı insanların hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnirdi.

İqtisadi vəziyyətin son həddə gərginləşməsi, ölkənin daxilində mövcud hakimiyyətdən narazılıq zəminində Prezidentin istefasının reallaşmasına yönələn 2-4 iyun Gəncə qiyamı və qiyamçılar tərəfindən girov götürülmüş yüzlərlə insanların taleyi, hakimiyyətsizlik şəraitindən istifadə edən separatçı ünsürlərin cənub və şimal bölgələrində ölkənin parçalanmasına yönələn cəhdləri, ən başlıcası, erməni qəsbkarlarının ölkəmizin bu problemlərlə üz-üzə qarşılaşdığı şəraitdə, milli məslək və xislətinə uyğun xəyanətkar mövqeyini nümayiş etdirməkdə davam etməsi, eləcə də, idarəçilik aparatının başında duran vəzifəli şəxslərin öz aralarında baş verən çəkişmələr və küsüşmələr, bu məsələdə Türkiyə hökümətinin, ən yaxşı halda gözləmə mövqeyində olması prezident Ə. Elçibəyin ümidini hər yerdən üzmüşdü.

Vətəndaş müharibəsinin qaçılmaz olduğu, daha doğrusu, artıq başlandığı bir şəraitdə Heydər Əliyevin xalqın tələbi ilə Bakıya dəvət olunması, azərbaycan xalqını, eləcə də Ə. Elçibəyin özünü bu çıxılmaz vəziyyətdən çıxara bilən yeganə qüvvə ola biləcəyi istiqamətdə ən optimal və ümidverici variant idi.

Problemlərin həlli gecikdirilmədən, təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyindən, Ulu Öndər bu sahədə və ümumiyyətlə idarəçilikdə təcrübəsi olan özünün tanıdığı və siyasi bilik və bacarığına etibar edə biləcəyi təcrübəli kadrlara böyük ehtiyac var idi. Son on ildən çox müddət ərzində obyektiv səbəblərdən respublikanın idarəçilik sistemində mövcud kadr ehtiyatları barədə kifayət qədər məlumatlı deyildi. Prezident Ə.Elçibəy komandasının üzvü olmuş səriştəsiz iqtidar nümayəndələrinin, status və imtiyazlarla vidalaşmalı olduqları hallarda, dərhal müxalif mövqe nümayiş etdirmələri, onların əksəriyyətinin dövlət qulluğuna yalnız şəxsi mənafe və maraq nöqtəyi-nəzərindən yanaşdıqlarına dəlalət edirdi.

Heydər Əliyev həmişə olduğu kimi o dövrdə də kadrların seçilməsi və yerləşdirilməsi məsələsinə ciddi yanaşırdı. O, hələ Azərbaycana rəhbərlik etdiyi 1969-1982- ci illər ərzində yanında çalışmış, özünün idarəçilik təcrübəsindən yararlanan, bilik və bacarığna bələd olduğu, hətta, sonradan, nankorluq edib arxasınca danışan, böhtanlar yazan şəxslərdən olsalar da belə, bəzilərini məhz Prezident aparatında və bir sıra mühüm sahələrdə məsul vəzifələrə təyin etdi, ömrünün sonuna qədər onların mənsub olduqları şəxsi keyfiyyətlərini nəzərə almadan, idarəçilik sistemində onlardan istifadə etdi.

Yuxarıda sadalanan ölkədaxili problemləri həll etmək, o cümlədən, kriminogen vəziyyəti sabitləşdirmək, iqtisadiyyatı irəli aparmaq, ordu yaratmaq, beynəlxalq sahədə addımlar atmaq, bu istiqamətlərdə inkşaf etmiş demokratik dövlətlərlə əlaqələr qurmaq və onların inkşaf

yollarını öyrənmək, yararlanmaq və s. mühüm və qlobal məsələlərin həlli üçün torpaqlarımıza faktiki olaraq adekvat müqavimət olmadan təcavüz edən düşmən tərəflə atəşkəsə nail olmaq ən ümdə və vacib şərtlərdən idi. Ordusuz və silahsız, siyasi birliyi və beynəlxalq səviyyədə tərəfdaşı olmayan ölkə üçün atəşkəsə nail olmaq, həmin dövrdə Dahi rəhbərin müdrik və uzaqgörən siyasətinin nəticəsi oldu.

Azərbaycanın parçalanmasına, onun müstəqilliyinə qarşı törədilən təxribatlar, dövlət çevrilişlərinə cəhdlər, terror aktları, özünün həyatına qarşı sui – qəsdlər ölkə Prezidenti Heydər Əliyevi xalqının xoşbəxt gələcəyi naminə tutduğu müqəddəs yoldan döndərə bilmədi. Ulu Öndərin dərin, uzaqgörən siyasəti, cəsarətli, həm də çevik addımları sayesində mənfur qüvvələrin ölkəmizin təbii sərvətlərinə sahib çıxmaq arzuları ürəklərində qaldı. Məhz Ümummilli Liderin sarsılmaz cəsarəti və yenilməz bacarığı sayesində xarici investorların olkəmizə cəlb olunması, dünyanın möhtəşəm neft şirkətləri ilə imzalanan kontraktlar, təkcə iqtisadi cəhətdən deyil, həm siyasi, həm də beynəlxalq əlaqələrin qurulması sahəsində müstəsna əhəmiyyətə malik oldu.

Ölkənin həyatında sabitliyin hələ də tam şəkildə mövcud olmadığı bir şəraitdə Neft konsorsiumunun təşkili, Ordu yaradıcılığı istiqamətində çoxşaxəli tədbirlərin həyata keçirilməsi, Müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və yüzlərlə qanunların qəbulu, yeni idarəçilik orqanları və təşkilatlarının yaradılması kimi dövlət əhəmiyyətli vacib məsələlərin həlli kifayət qədər

uzun müddət tələb etsə də, Heydər Əliyevin gərgin əməyi, tükənməz bilik və bacarığı dönməz iradəsi və qətiyyəti sayesində, inanilmaz qısa müddət ərzində həyatımızın bütün sahələrini əhatə edən mislIsiz işlər görüldü.

Azərbaycanın müstəqil dövlətçiliyinin möhkəmlənməsi əleyhinə birləşmiş mütəşəkkil cinayətkar qüvvələrin hakimiyyət çevrilişi cəhdi Heydər Əliyevin müdrik siyasəti və xalqı ilə sıx həmrəyliyi qarşısında məğlubiyyətə uğradı. Cinayətin təşkilatçılarından, təhrikçilərindən və icraçılarından ən radikal mövqedə olanlari cinayət məsuliyyətinə cəlb edilərək mühakimə olundular.

***

1988-ci ilin fevralından başlayaraq Daşnaq partiyası və ona havadarlıq edən xaricdəki erməni lobbisinin yaxından dəstəyi ilə Azərbaycanın Qarabağ bölgəsində və Sumqayıt şəhərində əvvəlcədən planlasdırılmış və hazırlanmış təxribatlara, onların təşkilatçılarına, təhrikçilərinə, xüsusilə o zamankı SSRİ dövlətinin başçısı Mixail Qorbaçova qarşı etiraz mitinqləri baş alıb getməkdəydi...

O zaman Heydər Əliyevin SSRİ rəhbərliyindən qəsdən, düşünülmüş və planlı şəkildə sıxışdırılaraq kənarlaşdırılması, Azərbaycana rəhbər qismində göndərilmiş, milli qeyrət və mənsubiyyətdən uzaq, dövlət idarəçiliyi sahəsində tam səriştəsiz, faktiki olaraq xarici ölkə qarşısında öhdəlik daşıyan Ə.Vəzirov vəziyyəti nəinki neytrallaşdıra bilmədi, əksinə, özünün siyasi kasadlığı ucbatından, eləcə SSRİ rəhbərliyinin diqtəsi ilə respublikanın həyatında

kəskin böhran vəziyyəti yaratdı. Daha acınacaqlısı o idi ki, mitinqlərin şüurlu, məqsədyönlü istiqamət almasına maneçilik törədən və mərkəzin tabeliyində olan xüsusi təhlükəsizlik orqan nümayəndələri, eləcə onların əlaltıları belə, bu mitinqlərin əsl mahiyyətini bəzi hallarda dəyişməyə, sabitliyi pozmaq kimi zərərli məcraya yönəltməyə nail olurdular. Bir tərəfdən torpaqlarımızın işğalı və öz qədim dədə-baba yurdlarından qovulmuş həmvətənlərimizin, digər tərəfdən Azərbaycan Respublikası ərazisində öz isti ocaqlarından, ev-eşiyindən didərgin düşmüş qaçqın və köçkünlərin Bakıya pənah gətirmələri, təkcə paytaxtı deyil, demək olar ki, bütün respublikanı xaos vəziyyətinə gətirib çıxarmışdı.

Müttəfiqlik adı altında SSRİ-nin tərkibində olan digər respublikalarda da narazılıq getdikcə artırdı. SSRİ adlanan dövlət artıq çökmək üzrəydi. İmperiyanın süqutuna əlac tapa bilməyən, əslində isə bu prosesi daha da sürətləndirən Qorbacov, o boyda ölkənin çökməsini sonradan dünyanın gözündə, özünün böyük hünəri kimi büruzə verməyə çalışdı və əksərinin gözündə bu imici qazanmış oldu. Halbuki, imperiyanın obyektiv sonluğu və aqibəti labüd idi. Əgər Qorbaçov guya özünün demokratik rəhbər olduğunu sübuta yetirmək istəyirdisə, görən, həmin ərəfədə nə məqsədlə Orta Asiyada, Baltikyanı respublikalarda, Qafqazda, o cümlədən Tiflisdə və Bakıda iri miqyaslı hərbi əməliyyatlar keçirməklə qırğınlar törədirdi?- Şübhə yox idi ki, İttifaqa daxil olan ölkələrdə, elə ittifaqın özünün izniylə geniş vüsət almış xalq hərəkatlarını qan içində boğmaq və xalqın gözünü qorxutmaq məqsədilə törədilən bu aksiyalar əslində SSRİ-nin dağılmasının qarşısını almağa

yönəlmişdi. Hər halda, Qorbaçov SSRİ-nin süqutunda maraqlı olan bir sıra aparıcı dövlətlərin nəzərində "demokrat" kimi tanınıb yüksək beynəlxalq mükafatlara layiq görülsə də, qırğınlar törətdiyi ölkələrin və xalqların yaddaşında onun adı qanlı cinayətkar kimi tarixə yazıldı...

***

...Bakı. 1990-cı ilin yanvarı...Torpaqlarımıza Qorbaçov iqtidarının himayəsi ilə erməni təcavüzü davam etməkdə, didərgin və qaçqınların sayı gündən-günə artmaqdadır. Azərbaycandan da artıq erməni millətindən olan şəxslər, bəzi hallarda isə ailələr Bakını tərk etmək məcburiiyətindədir. Azərbaycanlılar ermənilərdən fərqli olaraq, qonşuluğunda yaşayan, yaxud tanıdığı erməni kəslərin təhlükəsizliyini təmin etmək məqsədi ilə onları dəmiryolu, təyyarə, gəmi vasitəsilə üz tutduqları məkanlara sağ-salamat yola salırlar. Mərkəzin xüsusi orqanları tərəfindən, ya onların təhriki, həm də diqtəsi ilə törədilən ayrı-ayrı təxribat xarakterli hərəkətlər istisna olmaqla, Azərbaycanda yaşayan digər millətdən olan heç bir kəsin zorakılıqla, ya məcburi surətdə respublikadan çıxarılmasına cəhd göstərilməyib, yaxud da onların özünə, əmlakına bircə qəsd belə törədilməyib. Məlum idi ki, torpaqlarımıza təcavüz, həmvətənlərimizə qarşı törədilən qırğınlar, onların doğma ev-eşiklərindən qovulub çıxarılması, milli zəmində münaqişənin daha da qızışdırılması əvvəlcədən hazırlanmış ssenari əsasında həyata keçirilməkdəydi... Mixail Qorbaçovun rəhbər göstərişləri və havadarlığı, Mərkəzin Təhlükəsizlik orqan rəhbərlərinin bilavasitə təşkilatçılığı

ilə milli münasibətlərin kəskinləşdirilməsi, ayrı-ayrı yerlərdə süni yollarla münaqişələr yaradılması, əməkdaşlığa cəlb olunmuş və mitinqlərdə qızışdırıcı, aqressiv nitqlər söyləyən ayrı-ayrı şəxslər respublikada vəziyyəti idarəolunmaz səviyyəyə gətirib çıxarmışdı. Kütləvi informasiya vasitələri demək olar ki, fəaliyyət göstərmirdi. Yalnız televiziya vasitəsi ilə qismən də olsa məlumat verilirdi. Bu minvalla yanvarın 13-16-sı arası gərginlik son həddə çatdı. Fövqəladə vəziyyət elan olunacağı barədə söhbət gedirdi. Yanvarın 16-da Azərbaycanın mərkəzi televizyasında Moskvadan gəlmiş Mərkəzi Komitənin katibi və təhlükəsizlik orqan rəhbərləri çıxış edərək, fövqəladə vəziyyətin olmayacagını qətiyyətlə bildirdilər və faktiki olaraq Azərbaycan rəhbərliyi ilə əlbir olaraq xalqı aldatdılar...

Yanvarın 19-dan-20-nə keçən gecə, Bakı Şəhər Prokurorluğu üzrə növbətçi müstəntiq olaraq bilavasitə nə kimi hadisələr baş verdiyinə şahid oldum. Həmin gün axşama qədər Prezident aparatının qarşısındakı mitinq davam edirdi. Mitinqi idarə edən və öz nitqləri ilə artıq xalqın inamını qazanmış bir neçəsi kürsüyə çıxıb, cavanları "Bakı Soveti" metrosunun qabağındakı avtobuslara minib "20 yanvar meydanı"na tərəf getməyə səsləyirdilər... Deyirdilər ki, canlı sədd yaratmaqla həmin istiqamətdən şəhərə girəcəkləri ehtimal olunan tankların qarşısını kəsmək lazımdır.

...Axşam saat 8-ə yaxın, naməlum təxribat qrupu tərəfindən, o zaman təkcə olan Az.TV-nin enerji bloku partladıldı. Təbii ki, yeganə informasiya mərkəzi olan televiziya öz fəaliyyətini dayandırdı. Gecə saat 11 radələrində

naməlum şəxs xüsusi rabitə vasitəsi ilə bir neçə dəfə, boğuq səslə elan elədi ki, – "Bakı alışıb yanır, hər kəs öz ailəsi ilə birgə küçələrə çıxsın!" Bu elə bir vaxta təsadüf etdi ki, 20 Yanvar meydanı, aeroport, həm dənizdən və şəhərin müxtəlif girişlərindən silahlı hərbiçi dəstələr tankların qabağına çıxan adamların hərfi mənada üstündən keçərək, avtomatla insanları qıra-qıra şəhərə soxuldular. Səhərə qədər davam edən bu vəhşilik o səviyyəyə çatdı ki, evlərin pəncərələrini atəşə tutub camaatın öz evində belə qəsdinə dururdular. Təcili tibbi yardım maşınları güllələbaran olunurdu...

...Yanvarın 20-si, səhər saat 9-da növbətçiliyim başa çatandan sonra Prezident Aparatının qarşısında davam edən mitinqə getdim. Orda təxminən on mindən artıq insan vardı. Öz odlu nəfəsi və kəsərli sözü ilə çıxış edən Bəxtiyar Vahabzadə Sovet İmperiyasını, onun rəhbərliyini lənətləyirdi, xalqı bu "olum və ölüm" günündə düşmənlərə qarşı sarsılmaz birliyə və mübarizəyə çağırırdı. Elə bu anda Nizami muzeyi və Hüsü Hacıyev küçəsi istiqamətində küçənin hər iki tərəfində, əllərində avtomat, atəşə hazır vəziyyətdə düzlənmiş, yaşları 30-45 arasında olan, zahirən bandit dəstələrini xatırladan, uzunsaç, saqqallı hərbi geyimli yüzlərlə "əsgər", işlək vəziyyətdə küçəboyu sıralanmış tank və BTR–lərin nəriltisi altında atəş açmağa başladı. Mitinq iştirakçılarının çox az qismi təşvişə düşsə də, əksəri yerindən belə tərpənmədi və içərilərində ermənilərin də olduğunu istisna etməyən "hərbiçiləri" nifrət dolu baxışlarla həm azərbaycan, həm də rus dilində söyür, "Rədd olun, faşistlər!" deyə hayqırırdılar. Bununla

da sanki ölümdən qorxmadıqlarını bir daha sübuta yetirirdilər...

...20 Yanvar hadisələri hər bir azərbaycanlıya təkçə həmin tarixlərdə törədilən cəzasız qalan cinayətlərlə deyil, o tarixə qədərki, həm də ondan sonrakı dövrü əhatə edən fiziki və mənəvi acıları yaşatdı. Lakin xalqımız öz iradəsindən dönmədi və nəticədə keçmiş sovet respublikaları arasında ilk olaraq nə vaxtdan arzuladığı öz müstəqilliyinə qovuşdu...

...Nəhayət, 1991-ci ildə, "SSRİ" adlanan nəhəng "qurama" axır ki, birdəfəlik çökdü. Müstəmləkə və zindan şəraitində yaşayan millətlər öz zəncirini qırdı. Lakin açığını desək, bizim doğma ölkəmiz yenicə azadlıq əldə etmiş, məsələn Baltikyanı respublikalar kimi hələ müstəqilliyə hazır deyildi. SSRİ ərazisində iqtisadi cəhətdən illərlə mövcud olmuş biri-birindən asılılıq (halbuki mütəxəssislərin o vaxtkı fikrinə görə sovet respublikaları arasında iqtisadi cəhətdən müstəqil şəkildə yalnız iki respublika – Belarus və Azərbaycan yaşaya bilərdi) əlaqələrin kəsilməsi, həmin dövrdə qüvvədə olan qanun və müqavilələrin işləməməsi həmin respublikaları, o cümlədən bizim ölkəni də aclığa, səfalətə sürüklədi. Azadlıq meydanında gedən kortəbii mitinqlər artıq ölkə rəhbərliyinin səriştəsizliyi ucbatından işğal olunmaqda davam edən torpaqlarımızın müdafiəsinə həsr olunmuşdu. Xalqın, millətin vətənpərvərlik ruhu yüksək olsa da, onun başında duran, onu düzgün istiqamətə yönəldən rəhbəri, eləcə komandası təəssüf ki, yox idi...

...1992-ci ilin fevralında demokratiyadan dəm vuran dünyanın gözü qabağında Xocalı soyqırımı törədildi. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən

o zaman müstəqil Azərbaycanın ilk Prezidenti kimi tanınmaqda olan Ayaz Mütəllibov vəzifəsindən kənarlaşdırıldı. Bu vəzifə müvəqqəti olaraq Ali Sovetin sədri Yaqub Məmmədova həvalə olundu. Təxminən bir ay sonra Azərbaycanın füsunkar guşələrindən biri – Şuşa şəhəri, daha sonra da Laçın – erməni faşistiləri tərəfindən işğal olundu...

Hakimiyyətsizliyin, səriştəsizliyin və biganəliyin bir sıra hallarda isə satqınlığın, tam mənada özbaşınalığın nəticəsi olaraq, mayın 14-dən 15-ə keçən gecə Milli Məclisin liberal mövqeyi sayəsində Ayaz Mütəllibov yenidən hakimiyyətə qayıtdı. Çox keçmədi, meydandakı mitinqlərin təşkilatçısı olan Azərbaycan Xalq Cəbhəsi qeyri leqitim yolla hakimiyyəti ələ almaq məcburiyyətində qaldı. Ölkənin siyasi səhnəsində müvafiq qüvvə olaraq, özbaşınalığa və hakimiyyətsizliyə qarşı etiraz mitinqlərinə rəhbərlik edən Xalq Cəbhəsinin təxminən 200 nəfərə yaxın bir dəstəsi Səbail Rayon İcra Hakimiyyətinin binası yaxınlığından başlayaraq Prezident Aparatına, bir dəstə isə Milli Məclis və Azərbaycan Televiziya mərkəzinə doğru yürüş etdi. Yürüşçülər arasında silahlı şəxslər də gözə dəyirdi. Təxminən axşam saat 7-8 radələrində A.Mütəllibovun hakimiyyətinə bir dəfəlik son qoyuldu. Öz hakimiyyətini qorumaq məqsədi ilə onun cəbhədən geri çagırıb Prezident Aparatı ətrafına topladığı əsgərlər, eləcə onların komandanlığı, o zaman xalqın ümid bəslədiyi Xalq Cəbhəsinə qarşı çıxmadı, odur ki, hər hansı bir qarşıdurma da baş vermədi. Kəskin iqtisadi-siyasi, hərbi böhran vəziyyətində olan ölkənin, idarəçilik təcrübəsi olmayan kadrların mövcud olduğu bir

şəraitdə, ölkə təzəcə əldə etdiyi müstəqilliyini itirmək ərəfəsindəydi. Hələ Mütəllibovun rəhbər olduğu dövrdə onun öz hakimiyyətini qorumaq məqsədi ilə yaratdığı "Qardaşlıq" Cəmiyyəti adlanan "qoçular" dəstəsi, torpaqların müdafiəsi adı altında, DİN-in nəzdində yaradılmış XTPD (Xüsusi Təyinatlı Polis Dəstəsi), Xalq Cəbhəsindən ayrılmış "Musavat", "Amip" və digər ictimai qurumlar arasında baş qaldıran konflikt və intriqalar, onsuz da qeyri sabit olan kriminogen vəziyyəti daha da gərginləşdirirdi. Bu ziddiyyətlər cəbhə zonasına özbaşına yollanan və yaxud Müdafiə Nazirliyi ilə tənzimlənmədən, təlimatsız, təlimsiz göndərilən könüllü dəstələr, şübhəsiz ki, heç bir uğur qazana bilməzdi. Əksinə erməni tərəfi, rus hərbiçilərinin dəstəyi və bilavasitə iştirakı ilə hücumları, heç bir hərbi nizam-intizama hesablanmayan kortəbii müdafiəni asanlıqla dəf edirdi...

...O vaxt Bakı Şəhər Prokurorunun müavini olaraq əsas vəzifəm – paytaxtın əməliyyat-istintaq orqanlarında qanunların icrasına nəzarət etmək idi. Lakin cinayətə bulaşan şəxslərin bəziləri Azərbaycan Xalq Cəbhəsinin üzvləri, yaxud da onlardan ayrılmış qolların nümayəndələriydi. Cinayətkarlıqla mübarizə aparmaq, bir sıra hallarda cinayət törətmiş şəxsləri məsuliyyətə cəlb etmək, barələrində qəti imkan tədbiri seçmək zəruri olduğu halda bu məsələ çox vaxt problemə çevrilirdi. Arqument də o olurdu ki, "Biz bir-birimizin çiyinləri üstündə hakimiyyətə gəlmişik". Və yaxud – "filan şəxs mənim qohumumdur, o həbs olunsa, qohum-əqraba yanında, camaat içində nüfuzdan düşərəm". Belə bəhanələri əldə dəstəvuz edənlər

sıravi cəbhəçilər deyil, onların arasından çıxan, hər biri guya qanun keşiyində vəzifə sahibi olmuş hüquq-mühafizə orqanlarının rəhbərləri, o cümlədən nazir, icra başçısı, polis rəisi və daha yüksək vəzifə sahibləri idi. Həmişə haqsızlığa, qanunsuzluğa qarşı qanuni münasibətimi bildirdiyimə görə, pərdə arxasında adımı "Partokrat" çağırırdılar. O dövrdə hüquq-mühafizə orqanlarının, xüsusilə Prokurorluğun, MTN-nin və eləcə də Polis orqanlarının professional fəaliyyətinə mənfi təsir göstərən belə ayrı-seçkilik, şübhəsiz ki, həmin orqanlarda vicdanlı şəxslərin sayını azaltmaq üzrəydi. Belə bir vaxtda Baş Prokuror İ.Şirinov ölkə rəhbərliyinin məni Gəncə şəhər prokuroru vəzifəsinə təyin etmək istəyini çatdırdı. Azyaşlı övladlarımın Bakıda oxumasını, həyat yoldaşımın burda işlədiyini əsas gətirərək, Gəncəyə getmək imkanımın olmadığını dedim. Bir neçə gün sonra Prezident Aparatından məni Prezidentin iqamətgahına dəvət etdilər. Fikrim o idi ki, Gəncəyə təyinatımdan söhbət gedəcəksə, mütləq imtina edəcəyəm. Qəbul otağına daxil olmağımla köməkçi Prezidentin məni gözlədiyini dedi. Kabinetin lap girəcəyində məni çox sadə və köhnəlmiş idman paltarında olan Prezidentin özü qarşıladı, əl verib görüşdükdən sonra oturmağa yer göstərdi. Masa arxasında mənimlə üzbəüz əyləşən Prezidentin bir tərəfində Baş prokuror İxtiyar Şirinov, digər tərəfindəsə Dövlət katibi Pənah Hüseynov oturmuşdu. Yaşlı bir qadın padnosda çay gətirdi. Prezident oturduğu yerdən qalxaraq, armudu stəkanlardan birini qabağıma qoydu. Məqsədyönlü olsa belə nümayiş olunan bu ehtiram qarşısında, digər tərəfdən də ölkənin belə qarışıq dövründə ehtimal

etdiyim bu təklifdən necə imtina edəcəyimi düşünürdüm. Mənim bircə anlığa fikrə getdiyimi görən Prezident, aralığa çökən sükutu pozdu, işlərimin necə getdiyi, şəhərdə baş verən cinayətlərin dinamikası- azalıb-çoxalması barədə, daha sonra isə təcrübəli prokurorluq, istintaq işçilərinə ehtiyac olduğuna dair, bir sözlə, əsas mövzuya keçid xarakteri daşıyan məsələlərə toxundu. Mən də cavabında bir sıra çətinliklərin olduğunu nəzərə çatdırdım. O hansı çətinliklərin olduğu barədə deyil, həmin çətinliklərin yenicə bərpa olunmuş müstəqillik dövrünə xas olduğunun təbiiliyini qeyd etdi. Əlavə etdi ki, bölgələrdə müstəqilliyimizin qorunması, dövlətçiliyimizin bərqərar olması – ən vacib vəzifələrdən biridir, – Gəncə kimi Azərbaycanın ikinci iri və strateji əhəmiyyət kəsb edən şəhərində böyük problemlər mövcuddur. Və qərara alınıb ki, Gəncə şəhərinin prokuroru vəzifəsinə..məni təyin etsinlər... Mən əvvəlcə susdum, çünki belə bir tərzdə və şəraitdə bu təklifdən imtina etmək o qədər də asan deyildi. Problemli şəhərə getməkdən imtina –həm də acizlik və ya qorxaqlıq əlaməti sayıla biləcəyindən də ehtiyat edərək, "Mən bu vətənin əsgəriyəm" dedim, – Hazırlaşmaq, əvvəlki iş yerində hər şeyi sahmana salmaqdan ötrü 3 gündən sonra Gəncəyə gedəcəyimə söz verdim. Görüşüb ayrılanda 10-12 gündən sonra özünün də Gəncəyə gələcəyini və geniş müzakirələr aparacagını bildirib, mənə uğurlar arzuladı...

***

12.02.1993-cü il tarixdə Gəncə dövlət və hakimiyyət orqan nümayəndələri ilə keçirilən müşavirədə Prezident

çıxış etdi və arada mənə də söz verdi. Bu elə bir dövr idi ki, Gəncə şəhərinin əksər camaatı axşam saat 6-7-dən sonra küçəyə belə çıxmağa ehtiyat edirdi. Günün günorta çağı, gecə səhərə qədər odlu silahlardan, xüsusilə avtomat və tapançalardan açılan atəşlər ara vermirdi. Gəncə yaxınlığında rus generalı Şerbakın komandanlığı altında yerləşən hərbi hissənin zabitləri müxtəlif markalı silah növlərini açıq-aşkar satışa çıxarırdılar. Gəncənin girəcəyində yerləşən 709 saylı hərbi hissənin rəhbərliyi və hissəyə yığışan hərbiçi və qeyri-hərbiçi, eləcə də kəşfiyyat orqanlarının dəstəyi ilə müxtəlif əqidələrə xidmət göstərən qüvvələr, rus hərbiçilərindən alınan, yaxud əvəzsiz xidmət göstərdiyinə görə onlara məqsədyönlü siyasətlə ötürülmüş avtomat, pulemyot, tank, BTR-lər və digər müxtəlif çaplı silahlara yiyələnərək, dövlət tabeçiliyindən çıxmaqla açıq-aydın itaətsizlik göstərirdilər. Artıq "709"-la danışıqlara girmiş dövlət və hakimiyyət orqanlarında vəzifə daşıyan ayrı-ayrı şəxslər eləcə də siyasi qurumlar da dövlətin zəifliyindən, hakimiyyətin öz daxilində yaranmış ziddiyətlərdən istifadə edərək,onlara qoşulmuşdular. Nəhayət general Şerbakın tabeliyində olan zabitlər və əsgər heyəti silahlarının çoxunu satmaqla, bilərəkdən Azərbaycanın parçalanmasında maraqlı olan nankor qüvvələrin "dəyirmanına su tökməklə" Azərbaycanı tərk etdilər. Baş prokurora, Prezident Aparatının müvafiq qurum rəhbərlərinə, eləcə də digər aidiyyəti orqanlara, respublikanın müstəqilliyinə və bütövlüyünə yaranan ciddi təhlükə barədə məlumat versəm də, Gəncəyə gələn dövlət nümayəndələri 709 saylı hərbi hissənin rəhbərliyi ilə görüşüb mahiyyət etibarilə

əhəmiyyət kəsb etməyən söhbət aparsalar da, vəziyyət daha da qəlizləşirdi...

709 saylı hərbi hissə ilə növbəti danışıqlar aparmaq məqsədilə Bakıdan gələn sonuncu nümayəndə heyətinə xalq yazıçısı İsmayıl Şıxlı və Gəncə əhalisinin ağsaqqal kimi yanaşdığı Tofiq Bağırov, Daxili İşlər Naziri İsgəndər Həmidov daxil idi...

Dövlətin yüksək vəzifəli şəxsləri 709 saylı hərbi hissənin rəhbərliyi ilə artıq nümayəndələr vasitəsilə əlaqə saxlamalı idi. Düz gecə yarısı Surət Hüseynovla görüşmək imkanı əldə edən dövlət nümayəndələri elə həmin vaxt hərbi hissənin həyətinə daxil oldular. Bu zaman bizi Gəncə şəhər Mühafizə idarəsinin və Gəncə şəhər dövlət avtomobil müfəttişliyinin rəisləri əməkdaşları ilə birgə müşaiyət edirdi. Küçə qapısından başlayaraq həyət boyu, əli avtomatlı hərbiçilər düzulmüşdü, tank və BTR-lər işlək vəziyyətdəydi. İçəri girən kimi Surətin yanında oturmuş Rəhim Qazıyev İsgəndər Həmidova söz ataraq, – “Bu yetimdən nə istəyirsiz?” deyərək Surəti göstərdi. İsgəndər də özünə xas tərzdə “yaxşı eləyirəm, sən kimsən,burda nə işin var?” deyə onun cavabını qaytardı. Məlum oldu ki, Rəhim Qazıyevin əsas məqsədi – aranı qarışdırmaq, danışığın sabit aparılmasına maneçilik törətməkdir. Vəziyyətin gərginliyini və ciddi təhlükə havasını bəri başdan duyan rəhmətlik İsmayıl Şıxlı özünəməxsus alicənablıq və səbrlə mübahisəni davam etdirməyə meylli olan hər iki tərəfi yerinə oturtmaq üçün sakitcə – “Biz bura dava eləməyə yox, barışığa gəlmişik. İmkan verin, biz öz tövsiyələrimizi çatdıra bilək” dedi. İsmayıl müəllimin həqiqətən də ibrətamiz

ifadələrini dinləyən Surət Hüseynov torpaqlarımızın zəbt olunmasını hakimiyyətin səriştəsizliyi ilə əlaqələndirdi, dövlət idarəçiliyinin lazım olan səviyyədə olmadığını üzə vurdu. Daha sonra Tofiq müəllim də – belə vaxtda qüvvələri birləşdirməyin vacibliyi, biri-birimizlə deyil, ümumi mövqedən düşmənimizə qarşı vuruşmağın əsl zamanı yetişdiyini söylədi...

Hərbi hissəni tərk edərkən ümumi razılıq, barışıq əlaməti olaraq, dədə-baba qaydasınca qurbanlar da kəsildi. Lakin şübhə yeri yox idi ki, Surət Hüseynovun əhatəsində olan ambisiaları əqli imkanlarından qat-qat üstün olan ayrı-ayrı qüvvələr, eləcə də kəşfiyyat orqanları qarşısında öhdəlikləri olan bəziləri bu barışığa imkan verəsi deyildi.

...Mayın ortalarından başlayaraq, dövlət tərəfindən guya təhlükəsizlik tədbirləri naminə, hədə-qorxu əlaməti olaraq Gəncə şəhər İcra hakimiyyətinin qabağına silahlı-zirehli hərbiçilərin düzülməsi təşkil olunmuşdu. Hərçənd ki, buna nəinki ehtiyac yoxuydu, əksinə belə şey daha mükəmməl silahlarla yaraqlanmış qarşı tərəfi labüd qarşıdurmaya sövq etməklə,necə deyərlər “qaşınmayan yerdən qan çıxarmaq” idi... Bu barədə öz tərəfimdən yuxarı orqanlara, o cümlədən Baş prokurora bildirsəm də heç bir nəticəsi olmadı...

Məsələnin çətinliyi bir də ondan ibarət idi ki, mənim şəhər prokuroru olaraq hərbi hissələrin, yaxud əlahiddə olaraq hərbiçi olan şəxsin qanuna zidd hərəkətlərinə hüquqi qiymət vermək, onun barəsində hər hansı qəti imkan tədbiri seçmək səlahiyyətim yox idi. Bu sahədə qanunların icrasına nəzarət,aidiyyəti üzrə, Gəncə şəhərində, həmin

o 709 saylı hərbi hissənin ərazisində yerləşən, birbaşa Baş prokurorun və Respublika Hərbi prokurorunun tabeliyində olan Gəncə şəhər Hərbi prokuroru, eləcə onun istintaq qurumu tərəfindən həyata keçirilməli idi. Şəhər prokuroru olaraq mənim hərbiçilər barəsində hər hansı bir hüquqi-prosessual ölçü götürməyimə qanun yol vermirdi. Əks təqdirdə, mən qanunla nəzərdə tutulan səlahiyyətlərimi aşmış, onlardan kənara çıxmış olardım. Buna baxmayaraq, şəhərdə sabitliyi pozan, o cümlədən qanunsuz və iznsiz olaraq silah gəzdirən, 709 saylı hərbi hissəyə mənsub 100-dən çox şəxsin barəsində cinayət işi başlanaraq qısa müddət ərzində istintaq aidiyyəti üzrə Gəncə şəhər hərbi prokurorluğuna təqdim olunmuşdu. Lakin Hərbi prokurorluq tərəfindən qanunla nəzərdə tutulan tədbirlər görmək əvəzinə, əsassız və qanunsuz olaraq həmin şəxslər həbsdən azad edilir, cinayət işlərinin icraatına xitam verilirdi. Bu barədə Respublika Hərbi Prokurorluğunun xəbəri vardısa da, zəruri olan nəzarət həyata keçirilmirdi. Əksinə, barələrində həbs qəti imkan tədbiri seçilmiş, axtarışda olan şəxslər çox vaxt 709 saylı hərbi hissədə özlərinə sığınacaq tapırdılar.

...İyunun 1-də xidməti otağımda olarkən məlumat daxil oldu ki, Baş prokuror, Milli Təhlükəsizlik naziri və bir sıra məsul vəzifə daşıyan şəxslər Gəncədədir və onlar MTN-nin binasında yerləşiblər. Dərhal MTN-nin Gəncə şəhəri üzrə şöbə rəisinə zəng vurdum. Məlumatın doğruluğu təsdiq olundu. Baş prokurorun Gəncəyə gəlişi barədə əvvəlcədən məlumat verməməsi və şəhər prokurorluğuna deyil, birbaşa MTN şöbəsinə getməsi

məni təəccübləndirdi.Onun digər hüquq-mühafizə orqan rəhbərləri ilə birlikdə olmasını öyrəndikdən sonra, birbaşa prokurorluğa gəlməməsini – buna əsas səbəb olaraq düşündüm. MTN-ə getdim və İ.Şirinovla söhbət əsnasında o bildirdi ki, hərbi sahədə cinayətkarlıqla bağlı kompleks yoxlama keçiriləcək və şəhər prokuroru kimi mənim bu işə, qarışacağım olmamalıdır...

Şübhəsiz ki, şəhər prokuroru olaraq şəhərdə baş tutası naməlum tədbirə "qarışacağımın" olmaması ilə daxilən razı olmasam da, zahirən razılaşmalı oldum. İş yerinə qayıdandan sonra Baş prokurorun birbaşa şəhər prokurorluğuna gəlməməsi kabinetlərdə müzakirə mövzusuna çevrilmişdi. Axşam saat 9-a qədər kollektivlə birgə iş yerimizdə olduq. Evə gedəndə mən yenə yolüstü MTN binasına – İ.Şirinova dəydim və ondan şəhər prokurorluğuna dair hər hansı bir tapşırığın olub-olmayacağını soruşdum. O da bir daha narahat olmamağı tapşırdı. Mən biraz da incimiş halda evə yollandım...

...Səhər tezdən xidməti maşınımla iş yerinə tələsdim və elə maşından düşən kimi prokuror köməkçilərindən biri dərhal mənə məlumat verdi ki, Baş prokuror İ.Şirinov və onunla birgə Bakıdan gələn vəzifəli şəxslər hərbiçilər tərəfindən həbs olunub və onları 709 saylı hərbi hissəyə aparıblar. Məlumatı dəqiqləşdirmək məqsədi ilə xidməti otagıma qalxdım və dərhal polis rəisi ilə birbaşa olan telefonun dəstəyini qaldırdım. Qarşı tərəfdən dəstəyi qaldıran şəxsin səsi mənə tanış gəlmədi, kiminlə danışdığımı soruşdum. Bildirildi ki, danışan – polis rəisi vəzifəsini icra edən İlqar Səfixanovdur. Mən ondan polis rəisi Hacıağa

müəllimin harda olduğunu soruşduqda, o dinmədi və boğuq səslə dedi ki, hazırda o burda deyil. Mən vəziyyətin çox qarışıq və gərgin olduğunu dərk edərək təcili olaraq şəxsi heyəti iclas zalına toplamaq barədə göstəriş verdim. Şəhər İcra başçısına, Kəpəz və Nizami rayon icra başçılarına telefon etsəm də, heç kimi yerində tapmadım. Otaqdan çıxıb polis idarəsinə getməyim barədə katibəyə dedim. Və gecikdirmədən prokurorluğun bir neçə işçisi ilə birlikdə şəhər Baş Polis İdarəsinə gəldik. Polis rəisinin kabinetinə çıxan pilləkənin hər iki tərəfində hərbi geyimli, əllərində avtomat silahlar tutan şəxslər düzülmüşdü. Özünü İlqar Səfixanov kimi təqdim edən şəxs bizi qapıda qarşıladı. Söhbət zamanı məlum oldu ki, polis rəisi, MTN şöbə rəisi daxil olmaqla Bakıdan gələn vəzifəli şəxslər, o cümlədən MTN-in xüsusi təyinatlı dəstəsi 709 saylı hərbi hissənin əsgər və zabitləri tərəfindən həqiqətən də mühasirəyə alınaraq həbs olunublar və hərbi hissəyə aparılıblar. Polisin şəxsi heyətini isə hazırda "709"un hərbiçiləri əvəzləyir və həbs olunanlar birbaşa Surət Hüseynovun tabeliyindədir. Səfixanovun özü də sonuncunun göstərişi ilə polis rəisi vəzifəsini icra edir...

İlqar Səfixanov təbiət etibarilə mədəni, abırlı və anlaqlı bir şəxs təsəvvürü yaratdığından ona izah etməyə çalışdım ki, o öz hərəkəti ilə ağır bir cinayətin iştirakçısına çevrilir. Ona bildirdim ki, bu hərəkətlərindən vaxtında geri çəkilməsi, onun məsuliyyətdən yaxa qurtarmasına əsas ola bilər. Əks təqdirdəsə ola bilsin biz onunla türmədə görüşməli olaq. Səfixanov başını qaldırıb nəsə demək istədisə, "Bunu tale göstərər" deməklə kifayətləndi və biz

onunla ayrıldıq. Polis İdarəsindən çıxıb iş yerində otağıma girən kimi bir daha Gəncə şəhər və rayonların rəhbər heyəti ilə əlaqə saxlamaq istədim, ancaq cəhdim baş tutmadı, heç biri cavab vermədi...

...Mən Gəncə şəhərinə yeni təyin olunan ərəfədə MTN-in Rabitə idarəsinə rəhbərlik edən şəxs Çaykənd əməliyyatı zamanı qardaşının qətlində şübhə edilən şəxsin məsuliyyətə cəlb olunması ilə bağlı qəbulda olarkən, o zamankı mürəkkəb vəziyyətdə telefonlarımı daha etibarlı aparatlarla əvəzləmişdi, həm də "ВЧ" kabel xəttiylə məxfiliyin qorunmasını tam təmin edən bir telefon rabitəsi quraşdırmışdı. Həmin telefonla Prezident Aparatının rəhbər vəzifəli şəxsləri ilə əlaqə saxlamaq cəhdim də boşa çıxdı. Onlardan yalnız biri cavab verdi. Baş vermiş hadisələr barədə məlumat vermək istəsəm də, həmin şəxs cavabında bildirdi ki, Aparatda bundan hər kəs məlumatlıdır və xahiş etdi ki, elə hesab eləyim ki, onunla bu barədə heç bir danışığımız olmayıb...

Mən kollektivi yığıb fakt üzrə cinayət işi başlamaq barədə göstəriş verdim. Eyni zamanda araşdırma aparmaqla, həbs olunan şəxslərin azad edilməsinə yönələn tədbirlər görmək məqsədi ilə, mənə qoşulan bir neçə əməkdaşımla birgə, xidməti maşında 709 saylı hərbi hissəyə yollandıq. "709"-un həndəvərindən başlayaraq,yenə həyət boyunca əsgər və zabitlər düzülmüşdü. Tanklar işlək vəziyyətdəydi, sanki "hücum" komandasına bənd idilər. Maşınla hərbi hissənin həyətinə daxil olduq, hər iki tərəfdən silahlılar dayanmış, dar dəhlizin arası ilə hərəkət edəndə, silahlı əsgərlərin qabağında İ.Şirinovun aparıldığını gördüm. Qarşı-

larını kəsərək onu hara apardıqlarını soruşdum. Hərbiçilər avtomatla İ.Şirinovu itələyərək irəli getməyini tələb etdilər. İ.Şirinovun sir-sifətində döyülmək əlamətlərini gördüm. Biz Surət Hüseynovun kabinetinə yaxınlaşanda qapının ağzında dayanan, sonradan şəxsən tanıyacağım Əli Ömərov və Nüsrət Budaqov bizim kimliyimizi yəqin ki, bildiklərindən "Nə məramla" gəldiyimizi soruşdular, mənsə cavabında əsəbi halda dedim: "hələ bir soruşursunuz nə məramla?!" Bundan sonra onlar Surət Hüseynovun hazırda "presskonferensiya" (mətbuat konfransı) keçirdiyini, onun otağı ilə üzbəüz qapısı açıq, divarında "komandir Eldar Əliyev" yazılmış otağı göstərdilər və dedilər ki, orda gözləyin, jurnalistlər çıxan kimi girərsiz. Biz koridordan otağa keçdik və üstündən bircə dəqiqə keçməmiş, qapını əli avtomatlı hərbiçilər əhatəyə aldı. Bundan sonra girov saxlandığımız otağa daha bir neçə nəfər MTN əməkdaşını da gətirdilər. Həmin gün axşama yaxın mənimlə gələn prokurorluq əməkdaşlarını buraxdılar. Bəyan etdilər ki, atışma başa çatanadək mənim də daxil olduğum girov götürülən şəxslər buraxılmayacaq.

709 saylı hərbi hissənin Surət Hüseynov tərəfindən təyin olunmuş rəisi Eldar Əliyev həmin axşam saxlandığımız otağa gəlib mənimlə görüşdü. Bu həmin Əliyev Eldar idi ki, Gəncəyə təyin olunduğum ilk günlərdə, hazırda xatırlamadığım tanışlarımdan biri, onu qəbul etməyi məndən xahiş etmişdi. Qəbul elədim. Onda E.Əliyev bildirmişdi ki, Əfqanıstan müharibəsi veteranıdır, yüksək rütbəli zabitdir. Onun müvafiq işlə təmin olunmasına köməklik göstərim. Bu məqsədlə Müdafiə Nazirliyinə müraciət etməyi

təklif etsəm də, o bunacan artıq Nazirlikdə olduğunu və ixtisasına uyğun hərbi rütbəli işə qəbul etmədiklərini söylədi. Dövlətə itaətsizlik göstərən 709 saylı hərbi hissəyə qoşulma ehtimalının üstündən xətt çəkmək məqsədilə elə onda Gəncə şəhər icra başçısına zəng vurdum və Eldar Əliyevin şəhərin mülki müdafiəsində gərəkli olmağı barədə təklif verdim. Eldar mülki müdafiə qərargahına rəhbər təyin olundu. Sonradan "709"-a gəlib necə komandir olması barədə sualıma Eldar Əliyev cavab verdi ki, həqiqətən qısa bir müddət o mülki müdafiə sahəsində çox cüzi bir əmək haqqına işləyib. Lakin "709"-un komandanlığı ona həmin cüzi maaşdan 10 dəfədən çox əmək haqqı ilə hazırda tutduğu vəzifəni təklif edib və ailəsinin maddi sıxıntısı onu "709"-dan gələn təklifə razılıq verməyə vadar edib. Onu da əlavə etdi ki, o hərbi hissədəki əsgərlərin rəhbəridir və yalnız təlimlərdə iştirak edir. Onun idarəetmə və sərəncam vermə səlahiyyətinin yoxluğu, hər hansı qərarın qəbul edilməsində iştirakını istisna edir. Onun fəaliyyəti yalnız S.Hüseynov tərəfindən verilən əmrlərin icrası ilə bağlıdır...

İki gündən sonra xəbər çıxdı ki, S.Hüseynov və onun mühafizə dəstəsi 709 saylı hərbi hissənin ərazisindən çıxaraq keçmiş rus hərbi hissəsinin yerləşdiyi qərargaha köçüb. Hərbi hissədə qalanlar isə yalnız əsgərlər, bir sıra bölmə və tağım komandirləri olan zabitlər, eləcə də yüzlərlə girov saxlanan şəxslərdir.

Müstəqil dövlətçiliyi qoruyub saxlamaq, artıq başlanmış olan vətəndaş müharibəsinin qarşısını almaq, Azərbaycanı parçalanmadan xilas etmək, fürsəti fövtə verməyən düşmənin torpaqlarımızın xeyli hissəsini zəbt

etməkdə israrlı olması, hər bir vicdanlı azərbaycanlı kimi mənim də əsəblərimi tarıma çəkmişdi. Hərçənd ki Hərbi hissədə girov saxlanılan yüzlərlə şəxsin, o cümlədən mənim özümün də taleyi sual altındaydı. Barəsində mənim tərəfimdən həbs qəti imkan tədbiri seçilmiş "Zobik" ləqəbli və onun kimi onlarla cinayətkar ünsür heç bir günahı olmayan insanların həyatı üçün təhlükə mənbəyi idi...

Ölkənin üzləşdiyi bu bəladan qurtulmağın yolu həqiqətən çox çətin və mürəkkəb idi. Düşüncələr, ümidlər yalnız bir istiqamətə, yeganə bir şəxsə, tək bir insana bağlanırdı ki, yalnız o şəxs öz zəkası, müdrik siyasəti və yenilməz cəsarəti ilə ölkəni, xalqı rastına çıxan bu bəladan xilas etmək naminə, yenicə pöhrələnmiş dövlət müstəqilliyini qorumaq üçün xilas yolunu düşünüb-daşına bilərdi. O zamankı vəziyyətdə,yağı düşmən, istərsə daxili mənfur qüvvələr hakimiyyətin zəifliyi, səriştəsizliyinə nisbətdə çox fəal, çevik və güclü təsir qüvvəsinə malik idi...

***

...Nəhayət xalqın intizarla gözlədiyi, yeganə ümid yeri olan Heydər Əliyev 09.06.1993-cü il tarixdə (məncə həmin gün tariximizə qızıl hərflərlə yazılmalıdır). Xalqın tələbi və xahişi ilə Bakıya qayıtdı. Vəziyyətlə tanış olandan 4 gün sonra isə növbəti dəfə həyatını risk altına ataraq Gəncəyə gəldi. Elə həmin gün 709 saylı hərbi hissəyə yollandı, dağıntıları, qardaş qırğını nəticəsində törədilənlərə ürək ağrısı ilə baxdı. Məhz həmin vaxt girovluqda olan şəxslərin azad olunmasına şərait yarandı və biz hərbi hissəni tərk elədik. Hadisələr ərəfəsində yüzlərlə insan, o cümlədən

əsgər, polis işçiləri, yüksək vəzifəli şəxslər hakimiyyətsizliyin, özbaşınalığın nəticəsi olaraq qanunsuz neçə müddət həbsdə saxlandılar. Vətəninə, xalqına sadiq neçə-neçə ləyaqətli və prinsipial insanlar – prokurorluq, polis, icra və digər dövlət-hakimiyyət nümayəndələri həmən başsızlığın qurbanı oldu. Azərbaycan xalqını zülmət və zillətdən, cəhalət dünyasından işıqlığa çıxaran Heydər Əliyev zəkası ölkəmizi açıq-aydın uçurumdan, – vətəndaş müharibəsindən xilas etdi...

...Mən girovluqda saxlandığım günlərdə Gəncənin keçmiş dəmir-yol prokuroru işləmiş, birinci və sonuncu dəfə Surət Hüseynovun kabinetinin ağzında gördüyüm Əli Ömərov Gəncə şəhər prokurorunun, yəni mənim xidməti kabinetimi zəbt edərək özünü şəhər prokuroru elan etmişdi. Həmin vaxtlarda İcra başçısı vəzifəsini müvəqqəti olaraq icra edən Vaqif deyilən şəxs yaşadığım yerə – qaynatamgilin evinə zəng vuraraq İcra hakimiyyətinə gəlməyimi xahiş etdi. Şübhəsiz, mən həm də maraqlı idim ki, özbaşına zəbt olunmuş xidməti otağıma müvafiq komissiyanın iştirakı ilə daxil olum. Ona görə də səhərisi gün Gəncə şəhər İcra Hakimiyyətinə getdim və başçı vəzifəsini icra edən Vaqif müəllimlə tanış oldum. İnsafən o məni hörmətlə qarşıladı və söhbət zamanı bildirdi ki, özüm və fəaliyyətim barədə Gəncə əhalisindən yalnız müsbət fikirlər eşidib, bilik və bacarığım haqqında da lazımı qədər məlumatı var. Xahişi bu oldu ki, mən prokuror vəzifəmin icrasını davam etdirim və şəhərdə baş verən qanunsuzluğa, özbaşınalığa, hakimiyyətsizliyə qarşı birgə mübarizə aparaq. Səhv etmirəmsə, həmin gün cümə axşamıydı. Vaqif

müəllimə dedim ki, hazırda Gəncədə qalmağımın yeganə səbəbi – xidməti otağımın quldurcasına zəbt olunmasıdır. Yəni otaqdakı sənədlərimin, xidməti silahımın yerində olub-olmaması barədə məlumatım yoxdur. Odur ki, Respublika Prokurorluğu nümayəndəsinin iştirakı ilə komissiya yaradılsın, müvafiq araşdırma aparmaqla fakta hüquqi qiymət verilsin. Biz həftənin birinci gününə razılaşdıq ki, hər ikimizin səyi ilə belə bir komissiyanın təşkil olunmasını təmin etməliyik...

...Həftənin şənbə günü məlum oldu ki, icra başçısı vəzifəsini icra edən Vaqif müəllim S.Hüseynovun sağ əli sayılan və həbsli axtarışda olan "Zobik" ləqəbli Ruslan tərəfindən öz xidməti kabinetində qətlə yetirilib. Vaqif müəllimin mühafizəçisi də öz növbəsində "Zobik"i güllələyərək öldürüb və o da hadisə yerindən qaçanda Zobikin də cangüdəni onu yaralayıb...

...Bundan sonra, Surət Hüseynovun baş nazir, Əli Ömərovun baş prokuror vəzifələrinə təyin olunması baş alıb gedən qanunsuzluğun, cinayətlərin ört-basdır olunmasına şərait yaratdı. Onlarda belə yüksək vəzifələri daşımağa heç bir potensialın olmaması, Heydər Əliyev kimi Şəxsiyyətlə guya çiyin-çiyinə işləməsi, qanunlara riayət etməklə fəaliyyət göstərməsi – şübhəsiz ki, qeyri-mümkün idi. Heydər Əliyev başa düşürdü ki, onların bu təyinatını xalq düzgün anlayır və inanır ki, xalqın, millətin mənafeyinə, onun iradəsinə xidmət göstərməyən heç bir kəs onun hakimiiyyətində təmsil oluna bilməz. Tarix göstərdi ki, onların hər biri öz fəaliyyətlərində yol verdikləri yarıtmazlığın nəticəsi olaraq öz-ozlərini ifşa etdilər...

...Əli Ömərov Baş prokuror təyin olunanda düşündüm ki, uzun müddət ərzində çalışdığım, əslində mənə doğma sayılan bu orqandan uzaqlaşım. Eyni zamanda onu da dərk edirdim ki, Əli Ömərovun iş metodları və şəxsi keyfiyyətləri təyin olunduğu vəzifə ilə tərs mütənasibdir. Onun DİN-nin müavini Eldar Həsənovla birgə Amerikaya səfəri və bu səfərdən qayıdandan sonra sonuncunun Baş prokurorun müavini vəzifəsinə təyinatı vəziyyətin dəyişəcəyinə başlanğıc oldu. Nəhayət tabeliyində işləyən rayon prokurorunun dövlətə itaətsizlik göstərən bir dəstə şəxslə Baş prokuror Əli Ömərovu öz xidməti otağında döyüb təhqir etməsi və işgəncə verməsi onun, törətmiş olduğu qanunsuzluqların, özbaşınalıqların və cəzasızlığın obyektiv nəticəsi olduğunu şübhə etmirəm ki özü də anlayır...

Onun Baş prokuror olduğu dövrdə mən bir müddət sərəncamda gözləməli oldum. Bu müddət ərzində Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsi rəhbərliyinin təklifi ilə həmin fakültədə dərs dedim. Qanunla nəzərdə tutulan sərəncam müddəti başa çatdıqdan sonra isə Bakı şəhər prokurorluğunda DİO-ya nəzarət şöbəsində çalışdım...

Baş prokurorluğa hücumdan sonra, təbii ki, Əli Ömərov öz vəzifəsində qalmağı öz mənliyinə rəva bilsə də, onun kənarlaşdırılması nəinki qanunauyğun, həm də labüd idi. Prokurorluğun iş üslubuna və fəaliyyət prinsiplərinə tam bələd olmayan, lakin peşəkar polis əməkdaşı olaraq, prokurorluğun da fəaliyyətini bu istiqamətdə qurmağa çalışan Eldar Həsənov nəhayət çatmaq istədiyi zirvəyə yüksəldi.

Onun iti yaddaşı, insanlarla, o cümlədən əməkdaşlarla məqsədyönlü, həm də diplomatik davranışı, öz üzərində müntəzəm çalışmağı müəyyən müddət ərzində Baş prokuror vəzifəsini lazımınca yerinə yetirməyə imkan verdi.

Həmin ərəfədə Azərbaycanda yeni qanunlar hələ ki qəbul olunmamışdı. Köhnədən qalma SSRİ qanunları isə artıq qüvvədən düşmüşdü. Digər tərəfdən yox yerdən qondarma "Talış-Muğan respublikası"nın təşəbbüskarları və təşkilatçıları peyda olmuşdu ki, bu problemin də həlli Heydər Əliyevin öhdəsinə düşmüşdü. Respublikanın Şimal zonasında baş qaldırmaqda olan milliyətçi "Sadval" təşkilatı da həssas və çətin problemlər qabartmaqda idi. Bu elə bir dövr idi ki, bizə qonşu və doğma olan ayrı-ayrı dövlətlərin, o cümlədən qardaş Türkiyənin də bir sıra yüksək vəzifəli şəxsləri Azərbaycanın müstəqil bir dövlət olaraq gələcəyinə inanmırdılar. Ölkə iqtisadiyyatı tamamilə çökmüşdü. Ona görə də neft yataqlarının işə salınması, diplomatik sahədə beynəlxalq münasibətlərin qurulması, ölkədə sabitliyin bərqərar olması naminə xarici səhmdarların Azərbaycana cəlb olunması vacib şərtlərdən biriydi. Lakin cəbhədə yaranan gərginliyin, ara verməyən düşmən hücumlarının qarşısını alan, torpaqlarımızın işğalına sədd çəkən qadir bir ordunun yaradılması da ən zəruri vəzifələrdən başlıcasıydı...

Keçmiş hakimiyyətlərin səriştəsizliyi, biganəliyi və bacarıqsızlığının nəticəsi olaraq bir sıra xarici dövlətlər, onlara məxsus kəşfiyyat orqanları vasitəsi ilə, hələ də öz yerini tam bərkitməmiş müstəqil Azərbaycan dövlətinin daxili işlərinə qarışıb, onun təbii sərvətlərinə göz dikib

dayanmışdılar. Əlbəttə, bütün bu problemləri təhlil etmək, ölkədə stabilliyi təmin etmək üçünsə ilk növbədə atəşkəsə nail olmaq vacib idi. Heydər Əliyevin təşəbbüsü ilə bu taleyüklü məsələ öz həllini tapandan sonra neft sahəsində böyük və nüfuzlu beynəlxalq investorların köməyinə ehtiyac özünü biruzə verdi. H.Əliyevin gərgin əməyi və dərin siyasəti nəticəsində bu məsələ də ilkin olaraq, vaxtında öz həllini tapmış oldu. Ölkə həyatının bütün sahələrində paralel aparılan islahatlar və görülən tədbirlərin nəticəsi olaraq, qısa bir müddət ərzində Ordu yaradıcılığına başlandı. Lakin xarici və daxildə düşmən mövqeyi tutan qüvvələr müxtəlif vasitələrlə Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırmaq təşəbbüsündə bulundular...

Ölkədəki qeyri-stabil vəziyyəti sabitləşdirmək, qanunsuz silahlı birləşmələri zərərsizləşdirmək, təxribatların və digər qanunsuzluqların qarşısını almaqdan ötrü qanunlar və yaxud qanun qüvvəli aktlar qəbul edilməliydi. Heydər Əliyevin təşəbbüsü ilə belə bir normativ xarakter daşıyan 16.08.1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizə və hüquq qaydasının təmin olunması" barədə fərman hüquqi baxımdan imkan yaratdı ki, cəmiyyətdə az qala hər addımda rast gəlinən cinayətkarlıq və özbaşınalıqla mübarizə gücləndirilsin.

02-04 oktyabr 1994-cü il hadisələrinə gətirib çıxaran özbaşınalıq və itaətsizlikdən sonra H.Əliyev hakimiyyətinin devrilməsinə yönələn ayrı-ayrı qrupların, tədricən eyni məqsəd ətrafında birləşmək cəhdi formalaşmaq üzrəydi.

Prokurorluğa silahlı hücum və Baş prokurorun təhqirlərə məruz qalması ilə bağlı XTPD rəhbərliyinin və cinayəti

törətmiş dəstə üzvlərinin cəzasız qalması H.Əliyev hakimiyyətinə müxalif olan qüvvələrin daha da azğınlaşmasına gətirib çıxardı. Elə təsəvvür yaradıldı ki, H.Əliyev guya həmin cinayətkar qruplaşmadan çəkinərək, onları cəzalandırmağa cəsarəti çatmayıb. H.Əliyev o günə və o saata qədər səbr nümayiş etdirdi ki, rəsmi olaraq DİN-nin struktur qurumu kimi fəaliyyət göstərməli olan XTPD gecə saat 11-12 radələrində 8-ci km qəsəbəsində yerləşən qərargahından çıxaraq hakimiyyəti ələ keçirmək məqsədilə Prezident Aparatına tərəf hərəkətə keçdi. Məhz bu ərəfədə H.Əliyev televiziya vasitəsi ilə xalqa müraciət edərək, yaranmış fövqəladə vəziyyət barədə məlumat verdi və dövlətimizin müstəqilliyini,onun Prezidentini qorumaq, ölkədə sabit həyat şəraitində yaşamağın təminatını istəyən hər bir kəsi dərhal Prezident Aparatının qarşısına dəvət etdi. Həmin gecə bu çağırışdan heç bircə saat keçmədi ki, artıq minlərlə insan Prezident Aparatının qarşısına toplaşdı.

Ən acınacaqlı və çıxılmaz vəziyyətində xalqının səsinə səs verərək, ölkəni vətəndaş müharibəsindən, parçalanmaqdan, aclıqdan və qırğınlardan xilas edən Ulu öndəri qədirbilən xalqımız nəinki müdafiə etdi, eyni zamanda qarşı tərəfi xalq qarşısında tutduğu mövqeyə görə üzr istəmək məcburiyyətində qoydu. H.Əliyev bir daha mərdlik və şücaət nümayiş etdirərək onların günahından keçdi və xalqın məzəmməti ilə kifayətləndi...

Türkiyənin bir sıra ictimai-siyasi dərnəkləri və təhlükəsizlik orqan əməkdaşları XTPD-ni güc vasitəsi olaraq ələ almaqda maraqlı idilər. Sabiq Prezident Ə.Elçibəylə aparılan danışıqların H.Əliyev tərəfindən yenidən təftiş olunması,

ölkəmizin sərvətləri üzərində Azərbaycan Dövlətinin özünün sərəncam vermə hüququnun bərqərar edilməsi, həmin qüvvələrin marağı ilə üst-üstə düşmürdü... Belə ki, Ə.Elçibəy iqtidarı onların mövqeyinə daha sərfəliydi. Ə.Elçibəyin Prezidentliyi dövründə ofisi Hökumət evində yerləşən (TİKA) "Türkiyə iş birliyi" deyilən bir qurum artıq fəaliyyətə başlamışdı və istədiyi yöndə iş aparırdı. Bu məqsədlə Türkiyə İstiqbarat təşkilatının ən yüksək vəzifəli şəxsləri qurama ad və soyadlar altında Bakıya gəlir və XTPD-nin rəhbərliyi ilə,eləcə də Heydər Əliyev hakimiyyətinə müxalif qüvvələrlə məxfi görüşlər keçirirdilər. Rövşən Cavadov və bu qəbildən qeyriləri Türkiyəyə gedib-gəlir, ordakı təcrübəli siyasətçilərdən və generallardan məsləhət alırdılar. Hətta o zaman Türkiyədəki nümayəndələriimizdən bəziləri R.Cavadovun görüşlərini təşkil edir, qabağa düşüb ona bələdçilik edirdi. Bu məsələ o səviyyədə maraq doğururdu ki, Türkiyənin Azərbaycandakı səfirlik əməkdaşları səlahiyyətlərindən kənar çıxan müəyyən vəzifələrin yerinə yetirlməsinə cəlb olunmuşdu. Səfir Altan Karamanoğlu, hüquq müşaviri Ərtoğrul Güvən, din müşaviri Əbdülqədir Sezgin və digərləri xüsusi fəallıq göstərirdilər.

Azəbaycan Dövlət Universitetinin hüquq fakültəsinə professor kimi işə qəbul olunan, daha sonra Milli Məclisin hüquq bölməsinin müdiri vəzifəsinə təyin olunan Fərman Dəmirkolun başında durduğu ASAM (Azərbaycan Strateji Araşdırmalar Mərkəzi) adlı siyasi təşkilatın məqsədi – məhz H.Əliyev hakimiyyətini devirərək, özünün də rəhbərlərindən biri olan koalision hökumət yaratmaq idi. ASAM-ın

təşkilatlanmasına həsr olunmuş ilk iclas İçərişəhərdə yerləşən Azərbaycan ensiklopediyasının o vaxtkı direktoru İsmayıl Vəliyevin xidməti otağında baş tutmuşdu. Sonradan o həmin vəzifədən uzaqlaşdırıldı.

ASAM-ın iclaslarına dəvət olunan kəslər (bunların əksəri sabiqlər idi), o cümlədənTürkiyənin Azərbaycandakı səfirliyinin yuxarlda qeyd olunan nümayəndələrinin də iştirak etdiyi, ilkin toplantıda ümumi vəziyyətin gərgin olduğu,hakimiyyətin hansı yolla olursa-olsun dəyişdirmək zəruriliyi yarandığı, daha kimlərin bu iclaslara cəlb olunmasının məqsədəuyğunluğu müzakirə olunmuşdu. İclasa sədrlik edən Fərman Dəmirkol bu təşkilatın sırf siyasi və məxfi xarakter daşıdığına işarə vuraraq təhlükəsizliyin və məxfiliyin qorunması məqsədi ilə gələcək iclasların Türkiyə səfirliyinin binasında keçirilməsini təklif etmişdi. Səfirlikdə keçirilən iclaslarda müzakirələr getdikcə hakimiyyətin devrilməsinə yönələn istiqamət alırdı. Aparılmış istintaq dövründə axtarış zamanı üzə çıxan protokollardan məlum olurdu ki, bütün iclasların sözbəsöz stenoqramı rəsmiləşdirilib. Stenoqramı həyata keçirənsə milliyyətcə qazax olan bir tələbə qız olmuşdur...

İclasların birində F.Dəmirkol hakimiyyətin yalnız zor tətbiq etmək yolu ilə ələ keçirilə biləcəyini söyləyib, belə bir gücün mövcudluğunu bəyan edərək XTPD-dən istifadə olunmasını məqsədə uyğun hesab etmişdi. F.Dəmirkol bu çevrilişin həyata keçirilməsini siyasi cəhətdən təmin etməli halda, Türkiyə və Avstriya vətəndaşı olan Kənan Gürəl adlı şəxs isə XTPD ilə sıx əlaqələr yaratmaq yolu ilə hərəkətverici qüvvələri təşkil etməliydi. Kənan Gürəl Bakı

şəhərində "Traza" adlı firma yaradaraq, əslində xidmət etdiyi məxfi təşkilat rəhbərinin tapşırığı ilə, Cavadovla gəldikləri razılığa əsasən, onun sərəncamına göndərilmiş ötürücü cihazlarla təchiz olunmuş, xüsusi təlim keçmiş şəxslərlə birgə, XTPD ilə sıx əlaqələr qurmalı,bölgələrdə, xüsusilə sərhəd rayonlarında, o cümlədən Lənkəranda, Qusarda, Qazaxda, Zaqatalada, həm də Gəncədə əhali arasında təbliğat aparmalıydı. XTPD-nin fəallıq göstərdiyi Qazaxda zəruri olan işlər görülməli idi. Onların vəzifəsi camaatın əhval-ruhiyyəsini öyrənmək, əhalini Heydər Əliyev hakimiyyətinə qarşı yönəltmək və Mərkəzi birbaşa və ya Kənan Gürəl vasitəsilə məlumatlandırmaq idi. Təşkilatın ən yüksək rütbəli rəhbəri qeyri-rəsmi Bakıya gələrək vaxtaşırı dinləmələr aparır, sərəncamında olan şəxslərin, o cümlədən XTPD rəhbərliyinin növbəti addımlarını müəyyənləşdirirdi.

Planda nəzərdə tutduqları məqsədə çatmaq üçün Heydər Əliyevi hətta terror yolu ilə aradan götürməyi də istisna etmirdilər. Mart ayının əvvəllərində bir neçə dəfə sui-qəsd cəhdləri olmuşdusa, Ulu öndərin özü demişkən, "İlk növbədə Allah onu qorumuşdu". Hər halda onun özü də hadisələri düzgün təhlil etmək, onları qabaqlamaq, qiymətləndirmək, ən vacibi isə nəticə çıxarmaq qabiliyyətinə malik yüksək peşəkar, dərin siyasətci, psixoloq və geniş dünyagörüşünə, fövqəltəbii düşüncə qabiliyyətinə malik bir insan idi. R.Cavadov ulu öndərin xarici ölkələrə nəzərdə tutulan səfərlərinin günü, saatı, qayıdış vaxtı barədə məlumat almaq məqsədi ilə bir qayda olaraq, həmin səfərlərdə bilavasitə iştirak edən yüksək vəzifəli şəx-

sin yaxın qohumlarından birini ələ alaraq, tam məxfi olan həmin siyahını əldə etmişdi.

H.Əliyevin iştirakı nəzərdə tutulan Kopenhagendə keçiriləcək beynəlxalq tədbirdən qayıdış vaxtında onun təyyarəsini partlatmaqdan ötrü planlı terror aktı baş tutmadı. K.Gürəlin ifadəsindən, eləcə də "Traza" firmasının ofisində aparılmış axtarış zamanı əldə olunmuş çoxsaylı "Mərkəzə" ötürülən məlumatlar, eyni zamanda "Mərkəz"-dən daxil olan məxfi tapşırıqların həyata keçirilməsi üçün nəzərdə tutulan maliyyə hesabatları, H.Əliyev hakimiyyətinin devrilməsinə qarşı hərtərəfli ölçülüb-biçilən tədbirlərin görülməsini bir daha təsdiq edirdi. K.Gürəlin "Mərkəzə"göndərdiyi məxfi sorgudan görünürdü ki, Azərbaycanda zəruri məlumatları əldə etməyin ən asan yolu əsasən rüşvət vermək və ya qızlarla ünsiyyət yaratmaqla mümkündür. Ona görə də çoxlu məbləğdə pula (paraya) ehtiyac duyulduğu ərz olunurdu.

İstintaq zamanı Gürəlin verdiyi ifadədən məlum oldu ki, R.Cavadovla əvvəlcədən birgə gördükləri tədbirlər nəticəsində, H.Əliyevin Kopenhagendən qayıdış günü və saatı dəqiqləşəndən sonra,o telefonla bilrbaşa öz şefinə zəng vuraraq sui-qəsdin hazırlandığı barədə ona məlumat çatdırmaq istəsə də, şefin iş telefonu cavab vermədiyindən, axşam saat 21 radələrində onun evinə təkrar telefon açaraq planlaşdırılan terror aktı barədə məlumat vermişdi.

Həmin məlumat, H.Əliyevlə birlikdə o tədbirdə iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirələ yaxın mənbədən üstüörtülü şəkildə xüsusi rabitə vasitəsilə ona sızdırılıbmış. Dəmirəl isə H.Əliyevlə hələ Sovet dövründən çox

isti münasibətdə olduğundan, vətənində ona qarşı nəsə hazırlandığı barədə bildirir. H.Əliyev intuitiv olaraq ona qarşı növbəti sui-qəsdin vətənə döndüyü vaxt təyyarəni partlatmaq yolu ilə həyata keçirilmə versiyasını güman edir və geri dönmə vaxtını nəzərdə tutulduğundan 9 saat qabağa keçirir.

H.Əliyev kəskinləşmiş siyasi və kriminogen vəziyyətin stabilləşdirilməsi, xüsusilə XTPD-nın ölkədə ağalıq etmə iddiasının qarşısını almaq məqsədilə R.Cavadovdan nə istədiyini öyrənmək, onu və ətrafındakıları qanuna zidd hərəkətlərdən çəkindirmək, nəhayət onlara son xəbərdarlıq etmək məqsədi ilə onu görüşə dəvət edir. Görüş zamanı R.Cavadov söz versə də, onun əhatəsində olan, müxtəlif əqidələrə xidmət göstərən vəzifə hərislərinin, eləcə də kəşfiyyat orqanı əməkdaşlarının təhriki ilə o öz qanunsuz əməllərini davam etdirmək məcburiyyətində qalır...

***

...XTPD qərargahının yerləşdiyi Nizami rayonunun Polis idarəsindən başlanan dövlət çevrilişinə cəhd zamanı qarşılıqlı atışmada bir nəfər həlak oldu, neçə nəfər xəsarət aldı, polis idarəsinin inzibati binasına isə xeyli miqdarda maddi ziyan dəydi. Bundan sonra da Prezident Heydər Əliyev tərəfindən edilən müraciətlərə və xəbərdarlıqlara məhəl qoymayan XTPD, eləcə onun ətrafına yığışan qüvvələr martın 16-dan17-nə keçən gecə manevr edərkən, Dövlət Təhlükəsizlik orqanlarının və polis əməkdaşlarının səyi nəticəsində, Azərbaycan dövlətçiliyinin mənafeyinə və xalqın iradəsi əleyhinə yönələn qanunsuzluqların qarşısı

alındı, sui-qəsdin iştirakçıları tərkisilah edildilər. Atışma zamanı XTPD-nin komandiri R.Cavadov yaralandı və təcili yardım maşınında xəstəxanaya aparılarkən yolda keçindi...

Həmin hadisələrdə xüsusi fəallıq göstərən sabiq XTPD əməkdaşları və digərləri həbs olunaraq, cinayət məsuliyyətinə cəlb edildilər.

Prezident Heydər Əliyev televiziya ilə Türkiyə xalqına və həmvətənlərimizə müraciət edərək, çevriliş aktının, eləcə baş tutmayan sui-qəsdin hazırlanmasında iştirakı olan hər iki ölkənin vətəndaşlarına, xalqlarımızın təhlükəsizliyini, birliyini pozmağa cəhd göstərən ayrı-ayrı qüvvələrə kəskin şəkildə öz iradını dilə gətirdi. Hər iki xalqın və millətin eyni tarixi kökə malik olduğunu bir daha xatırladan və bunu şərh edən ümummilli liderimiz Heydər Əliyev məhz bu hadisələrlə bağlı özünün müdrik nitqi zamanı "Bir millət və iki dövlət" olmağımız barədə qürur hissi ilə səslənən tarixi və yaşarı bir kəlamın özülünü qoymuş oldu.

# EKS PREZİDENTLƏ GÖRÜŞ

12-17 mart 1995-ci il tarixlərdə dövlət çevrilişinə cəhdlə bağlı xarici kəşfiyyat orqanlarının və onların dəyirmanına su tökən qüvvələrin barəsində aparılan istintaq zamanı çevriliş cəhdinin həyata keçirilməsi prosesində fəallıq göstərən sabiqlər sırasında Əbülfəz Əliyevin də adı çəkilirdi. Prezidenti olduğu ölkəsini və xalqını çətin vəziyyətdə qoyaraq tərk etmiş Əbülfəz bəyin iş üzrə dindirilməsi və səbəbi məlum olmayan bu hərkətlərinə hüquqi qiymət verilməsi zəruriyyəti yaranmışdı. Bununla əlaqədar Sabiq prezidentin olduğu ehtimal edilən Naxçıvanın Ordubad rayonunun Kələki kəndinə ezam olundum. Uca dağlarla əhatə olunan Kələki kəndi təbiəti və qeyri adi təmiz havası ilə diqqəti cəlb edirdi.

Kəndin mərkəzinə yaxın ərazidə yerləşən Geoloji - qazıntı işləri idarəsinin köhnəlmiş vəziyyətdə olan binasını bizə göstərdilər və bildirdilər ki, prezident Elçibəyin aparatı həmin binada yerləşir. Tez bir zamanda prezidentin köməkçisi və qardaşı kimi özlərini təqdim edən Oqtay və Almurad adlı şəxslər bizə yaxınlaşdı. Mən özümü və mənimlə birgə olan şəxsləri təqdim etdim və Əbülfəz bəylə görüşmək məqsədimi, istintaqı maraqlandıran bir sıra hallar üzrə araşdırma aparılmasına zərurət yarandığını onlara izah etdim. Köməkçi Oqtay 5-10 dəqiqə ərzində qayıdacağını deyib bizdən aralandı. Qayıtdıqda, Elçibəylə görüşdüyünü , onun adından görüşümüzü bir saat ərzində təxirə sal-

mağı xahiş etdi. Və həmin müddət ərzində bizi Ordubadın ən dadlı neməti olan ərik mürəbbəsi ilə çay qonaqlığına dəvət etdilər. Təxminən təyin olunmuş vaxtda Elçibəyin bizi yaxınlıqda yerləşən evində gözlədiyini bildirdilər. Bələdçilik edən köməkçisi idarənin yanından yüksəkliyə doğru, uzun illər əvvəl çay daşları ilə örtülməsi təsəvvürü yaradan dar küçə ilə sadə bir evin darvazası qarşısında dayanmış Elçibəyin yanına gətirdi. O, öz səmimiyyətini nümayiş etdirərək görüşümüzü gecikdirdiyinə görə üzrxahlıq etdi. Çaya dəvət olunduğumuza görə təşəkkürümü bildirdim. Bir neçə dəqiqə ərzində o, kəndin söykəndiyi hündür yüksəkliyi göstərərək, həmin yüksəkliyin bir neçə il əvvəl ermənilərin nəzarətində olduğunu, sonradan isə Fərəc Quliyevin şücaiəti sayesində həmin yüksəkliyin geri qaytarılmasından bəhs etdi. O vaxta qədər kəndin, eləcə də onun sakinləri olan insanların taleyinin ciddi təhlükə altında olduğunu qeyd etdi. Daha sonra onun təklifi ilə giriş darvazasından təxminən 2-3 metr məsafədə yerləşən üç pilləli sadə taxta pilləkənlə evə daxil olduq. Naxçıvan Muxtar Respublikası



Kələki kəndi

Prokurorunun müavini Cəlil Mahmudovun, dövlət çevrilişi ilə bağlı cinayət işi üzrə rəhbəri olduğum "Xarici kəşfiyyat orqanları və siyasi təşkilatların rolu " epizodu üzrə qrupun üzvü Tapdıq Mahmudovun, tələbəlik dövründən tanıdığım naxçıvanlı dostum Məhəmməd Əkbərovun, eləcə də Ordubad rayon polis idarəsinin adını hazırda xatırlamadığım rəisinin iştirakı və video-kameranın müşaiyəti ilə bəyin kabineti kimi təqdim olunan sadə bir otağa daxil olduq. Otağın divarlarında Azərbaycan Demokratik Respublikasının qurucularından bir neçəsinin, eləcə də Hüseyn Cavidin, C. Məmmədquluzadənin artıq rəngini itirməkdə olan böyük portretləri asılmışdı.

Araşdırma zamanı Əbülfəz bəy istintaqı maraqlandıran suallara mahiyyəti üzrə aşağıdakı məzmunda izahlar verdi. 17 iyun 1993 cü il tarixdə həqiqətən heç bir rəsmi şəxsə, o cümlədən, Ali Sovetin sədri seçilmiş Heydər Əliyevə məlumat vermədən aparatın bir neçə nümayəndəsi ilə birgə Bakı şəhərini tərk edərək Kələkiyə gəlmişdir. Onun məqsədi, rəhbəri olduğu hakimiyyətin Gəncədə yerləşən 709 saylı hərbi hissədə cəmləşmiş dövlətə itaətsizlik göstərən silahlı qüvvələrlə yaranmış qarşıdurmanın qarşısını almaq, vətəndaş müharibəsinə rəvac verməmək, həmçinin müəyyən müddət ərzində prezident səlahiyyətlərini aparat nümayəndələri vasitəsilə hazırda yaşadığı bu kənddən həyata keçirmək olmuşdur. Aparat üzvlərinin maliyyə məsələsi ilə bağlı Kələkiyə köçdükdən sonrakı müddət ərzində Türk qardaşlardan yalnız bir dəfə maddi yardım göndərilib və həmin yardım aparat nümayəndələri arasında bölüşdürülmüşdür. 12-17 mart dövlət çevrilişinə qoşulmaq və dəstək olmaq barədə ona edilən təklifə münasibəti ilə

bağlı suala o, həqiqətən öz səlahiyyətli nümayəndəsini onun adından danışıqlarda iştirak etmək üçün Bakıya göndərdiyini və hakimiyyət devrildiyi təqdirdə planlaşdırılmış 5 nəfərdən ibarət koalision hökumətin sədri seçiləcəyi şərti ilə, ona sadiq qüvvələrlə birgə çevrilişə dəstək göstərəcəyini bildirməsini də etiraf etdi. Bununla yanaşı, o, həmçinin, Heydər Əliyevin təcrübəli siyasətçi olaraq ona qarşı olan qüvvələrə qalib gələcəyinə şübhə etmədiyini də bildirdi.

Xarici kəşfiyyat orqanları və onlara əlaltılıq edən separatçı qüvvələrlə həmrəylik nümayiş etdirməsinə onu vadar edən amillər barədə suala Əbülfəz bəyin cavabı yalnız o oldu ki,"Heydər Əliyev Əbülfəz deyil, O, istəsə, üç gün müddətində Azərbaycanda bütün neqativ halların, o cümlədən rüşvətin kökünü kəsməyə qadir olan qətiyyətli və prinsipial dövlət xadimidir. Onun öz siyasəti və təcrübəsi sayesində Gəncə hadisələri üzrə yaranmış qarşıdurmadan da qalib çıxacağına inanırdım".

Əbülfəz bəyin cavabları verilən sualları əhatə etmədiyi ilə bağlı onu daha konkret faktlara və suallara yönəltmək istədim. Lakin O, verdiyi cavabların dolğun və mahiyyəti üzrə olmadığını anlasa da, cavabını "Azərbaycanda Heydər Əliyevi əvəz edə biləcək kimsənin olmadığı" fikri ilə tamamladı.

Əbülfəz bəylə aparılan söhbət zamanı, onu ölkə başçısı kimi, ixtisasına və təcrübəsinə uyğun olmayan məsul vəzifəyə sövq edən amillər, eləcə də, ölkəyə rəhbərlik etdiyi bir il müddət ərzində, o cümlədən Gəncə hadisələri dövründə dövlət idarəçiliyində kəskin böhran vəziyyətə gətirib çıxaran ziddiyyətli hallara münasibət bildirərkən məlum oldu ki, O, heç vaxt hakimiyyətə vəzifə hərisliyi, yaxud di-

gər şəxsi maraqları naminə can atmamış, əksinə, o həmişə xalqının azadlığını boğan qüvvələrə qarşı mübarizlik nümayiş etdirmiş, bu istiqamətdə onun ideyaları ilə həmrəy olan gənclərlə, o cümlədən tələbələr arasında maarifləndirici işlər aparmışdır. Hətta SSRİ dövründə anti sovet təbliğatı aparmağa görə məhkəmənin hökmü ilə məhkum olunduğunu da nəzərə çatdırdı.

Ə.Elçibəy verdiyi ifadədə etiraf edirdi ki, onun hakimiyyətə gətirilməsi o zaman "Azadlıq" meydanında bir sıra digər təşkilatçılarla yanaşı yüz minlərlə insanların iştirak etdiyi mitinqlərdə onun da çıxışları, ölkənin ağır vəziyyətində ümid yeri axtaran xalqın diqqətini cəlb etmişdi. Ətrafına cəmləşmiş o dövrün müxalif siyasi qüvvələrinin təşəbbüsü və təkidi ilə qanunsuz zəbt olunmuş Mütəllimov hakimiyyəti devrilmiş və o ölkə rəhbərliyinə yeganə namizəd olaraq irəli sürülmüşdür. Hakimiyyətdə olduğu ilk bir neçə ay ərzində dövlət idarəçiliyi sistemində kadr potensialı olmadığı bir şəraitdə zərurətdən irəli gələn kadr dəyişikliklərinin aparılmasında səhvlərə də yol verilmişdi. AXC rəhbərliyinin etimadını qazanmış, lakin idarəçilik təcrübəsi olmayan şəxslərin mənsub olduqları ixtisasları üzrə, bəzi hallarda isə yalnız xalq hərəkatında fəal xidmətləri nəzərə alınaraq vəzifələrə təyin olunması şübhəsiz ki, idarəçilik sistemini böhran vəziyyətinə gətirib çıxaran əsas amillər olmuşdur.

Bununla yanaşı, söhbətimizin sonunda Əbülfəz bəy Bakı üçün darıxdığını və Bakıya qayıtmaq istəyi barədə Heydər Əliyevi məlumatlandırmagı xahiş etdi.

Görüşümüzdən çox çəkmədi Əbülfəz bəy Bakıda öz həmkarları arasında idi.

# QƏLƏBƏYƏ APARAN YOL

SSRİ-nin dağılması ilə müstəqillik əldə etmiş əksər respublikalar ilk illərdə sosial, iqtisadi, hüquqi, bir sözlə, həyatın bütün sahələrini əhatə edən ciddi çətinliklərlə üzləşdi. O dövrə qədər mövcud olmuş İttifaqdaxili iqtisadi əlaqələrin, respublikalar arası müqavilələrin, eləcə də, qanunların qüvvədən düşməsi ölkəmizi də dərin böhran vəziyyətinə gətirib çıxarmışdı.

XİX əsrdə Çar Rusiyası tərəfindən hissə-hissə köçürülüb Qərbi Azərbaycan torpaqlarını məngirləməklə dövlət statusu qazanmış ermənilər sonrakı iki yüz ilə yaxın müddət ərzində mütəmadi olaraq himayədarlarının dəstəyinə və bilavasitə köməyinə arxalanaraq Azərbaycan torpaqlarına və azərbaycanlılara qarşı təcavüzkar və soyqrım siyasəti yeritmiş, torpaqlarımızı mənimsəmiş, minlərlə həmvətənlərimizi milli etnik zəmində kütləvi qırğınlara məruz qoymuşlar.

1986–1987-ci illərdə ermənilərin xalqımıza və torpaqlarımıza qarşı təcavüz dalğası yenidən baş qaldırdı. Onların bu dəfəki məqsədləri çar rusiyası tərəfindən ”Kürəkçay”, ”eləcə də, “Gülüstan” və “Türkmənçay” müqavilələrindən sonra Suriyadan, Livandan, Türkiyədən, İrandan, köçürülərək Azərbaycanın Qarabağ bölgəsində məskunlaşdırılmış, 1923-cü ildə Azərbaycanın tərkibində Muxtariyyət statusu verilmiş erməni icmasınn heç bir beynəlxalq nor-

malarla uzlaşmayan formatda Azərbaycanın tərkibindən çıxmaq, əsrlərlə ata-baba yurdu olan yerli azərbaycanlı əhalini sıxışdırıb qovmaq və Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq idi.

Dünyanın əksər ölkələrində, uydurulmuş yalan informasiyalarla, azərbaycanlılara qarşı mütəmadi olaraq kütləvi, mütəşəkkil və qəddarlıqla törətdikləri vəhşilikləri əksinə quraşdıraraq, illərlə düşmənçilik siyasəti yürüdən, mahiyyətcə erməni şovinizmini və terrorunu təbliğ edən daşnaksütun partiyasının fəalları, Dağlıq Qarabağ Muxtar vilayətində cinayət yolu ilə mənimsədikləri külli miqdarda vəsait hesabına quduzlaşmış və məsuliyyətdən yayınmaqda maraqlı olan bir qrup nankor Koçaryanlar, Sarkisyanlar, Poqosyanlar və digərləri ilə cinayət əlaqəsinə girərək, guya Qarabağın" köklü sakinləri" olan " məzlum" ermənilər azərbaycanlılar tərəfindən sıxışdırılması və hüquqlarının pozulması səbəbindən SSRİ – nin dağılması ilə bağlı Azərbaycanın tərkibindən çıxmaq, özlərinin " tam müstəqilliyini" elan etmək məcburiyyətində qaldıqlarını bəyan etmişlər.

Əslində isə, o zaman SSRİ – yə başçılıq edən Mixail Qorbaçovun ikiüzlü siyasətinə güvənən və onun ətrafında cəmləşən erməni şovinistlərinin birgə ideyalarından qaynaqlanan bu aksiya hələ SSRİ çökməyə başlamazdan əvvəl planlaşdırılmışdı. Son vaxtlar erməni siyasətçilərinin bəziləri Qarabağın Azərbaycanın tərkibindən çıxması fikrinə guya SSRİ dövlətinin dağılması prosesində gəldiklərini iddia etməyə cəhd edirlər. Halbuki, hadisələrə rəvac verənlərdən biri olan Qorbaçovun köməkçisi Aqambek-



Heydər Əliyevin Sov.İKP MK-nın siyasi bürosunda çıxışı

yan SSRİ – nin hələ dağılmağa məruz qalmamışdan dörd il qabaq, 1987-ci ildə Fransada çıxış edərək Qarabağda yaşayan ermənilərin “özünü təyin etmə” planları barədə açıqlama vermişdi. Həmin ərəfədə, Ermənistanın yerli sakinləri olan azərbaycanlılar öz doğma yurdlarından məhrum edilməklə, müxtəlif işgəncələr tətbiq edilərək, Ermənistan ərazilərindən qovulub çıxarılırdılar. Daha sonra, Qarabağ ərazisində ermənilər tərəfindən iki nəfər azərbaycanlı çobanın öldürülməsi və Sumqayıt şəhərində Qriqoryan soyadlı ermənininin bilavasitə millətlərarası münasibətləri qızışdırmaqla otuz iki nəfərin, o cümlədən, azərbaycanlı və erməni millətindən olan şəxslərin öldürülməsi ilə nəticələnən, əvvəlcədən planlaşdırılmış təxribatlar Azərbaycana qarşı xəyanətin başlanğıc mərhələsi idi.



Siyasi büronun iclası

O zaman Sovetlər ölkəsində böyük nüfuza malik, SSRİ Nazirlər Soveti Sədrinin 1- ci müavini, Sovet İttifaqı KP MK – nin büro üzvü Heydər Əliyevin həmin vəzifədə olduğu, eləcə də, Azərbaycana rəhbərlik etdiyi əvvəlki illərdə erməni millətçiləri nankorluq nümunəsi olan bu niyyətlərini qabartmağa cəsarət etmədilər. İttifaq rəhbərliyində obyektiv və prinsipial mövqeyi ilə seçilən Heydər Əliyev, idarəçilik mexanizmi tənəzzülə uğramaqda olan Qorbaçovun da yaralı yeri idi və mahiyyət etibarı ilə daşnakların məqsədi ilə üst-üstə düşürdü. O, Hələ Stavropol vilayətində işlədiyi dövrlərdən erməni mafiyasının sifarişi ilə üzərinə götürdüyü öhdəliklər sayesində yüksəldiyi rəhbər vəzifəni, onunla müqayisə olunmaz qüruru və işgüzar nüfuzu ilə fərqlənən, idarəçilikdə yol verdiyi səhvləri büronun iclaslarında üzünə çırpan Heydər Əliyev şəxsiyyətinin zəhmindən və tutduğu vəzifəni uduzmaq təhlükəsindən ehtiyat edirdi. Ona görə də Heydər Əliyevin hansı yolla olursa olsun vəzifəsindən istefa verməsinə nail olmaqla yanaşı, həm də Azərbaycan Respublikası KP MK-nin 1-ci katibi başda olmaqla DİN, MTN və digər mühüm nazirlik

və xidmətlərin rəhbər heyətləriinin, Heydər Əliyev şəxsiyyətinə qısqanclıqla yanaşan, "Mərkəzin göstərişlərini özünün şəxsiyyətindən, milli mənsybiyyətindən və digər mənəvi dəyərlərdən üstün tutan bayağılaşmış manqurtlarla əvəz olunması kimi Azərbaycana və şəxsən Heydər Əliyevə qarşı mürtece məqsəd güdən plan həyata keçirilməli idi.

1988-ci ildə Azərbaycan KP MK-nın 1-ci katibi vəzifəsinə təyin olunmuş və iki ilə yaxın müddət ərzində respublikaya rəhbərlik etdiyi dövrdə ölkəni xaos vəziyyətinə gətirib çıxaran Ə. Vəzirovun son günlərdə verdiyi müsahibədən məlum olur ki, 1985-ci ildə o hələ Xarici işlər nazirliyi sistemində işlədiyi dövrdə Qorbaçov ona Azərbaycanda 1-ci katib vəzifəsini təklif edib. O isə təklif olunan vəzifəni həyata keçirməyi bacarmayacağını etiraf etmişdi. Heç də təsadüfi deyildi ki, üç il sonra Qorbaçov "Əvəzolunmaz" Ə. Vəzirovun Azərbaycana rəhbər təyin olunması barədə qərarını qəbul edir və sonuncu 20 yanvar 1990-cı il hadisələrindən iki gün əvvələ qədərki müddət ərzində həqiqətən də bacarmadığı vəzifəni acınacaqlı sonluqla yerinə yetirir. Yanvarın 18-də (20 yanvar hadisələrindən 2 gün əvvəl) Moskvaya qayıtdıqda Qorbaçov onu qəbul etməyi belə rəva bilmir. "Ə. Vəzirovun müsahibəsində qeyd etdiyi bu faktın özü bir daha təsdiq edir ki, Heydər Əliyevə və Azərbaycana qarşı Qorbaçovla erməni şovinistləri arasında separatist əlaqə hələ Sovet İttifaqı KP MK-nın Baş katibi təyin olunduğu 1985-ci ildən mövcud olub və Ə. Vəzirovun Azərbaycana rəhbər təyin olunması, qabaqcadan tərtib olunmuş planın tərkib hissəsi olmaqla məqsədyön-



Heydər Əliyev – Xalq birliyi sarsılmazdır,
5 oktyabr 1994-cü il

lü həyata keçirilmişdir.

Heydər Əliyevin istefasına nail olduqdan sonra, həmin dövrdə onun Azərbaycana qayıtmasının qarşısını almaq məqsədilə MTN-in rəhbərliyinə tədbirlər görülməsi barədə tapşırıq verilmişdi. Məhz bu xidmətin Azərbaycan üzrə yerli əməkdaşları və əlaltıları vasitəsi ilə Azərbaycandan Heydər Əliyev haqqında uydurma, anonim yazılar təşkil olunmuş, onu xalqımızın gözündən salmağa cəhdlər edilirdi. Hətta, Ulu Öndərin istefasından sonra Moskva şəhəri yaxınlığında tibb müəssisələrinin birində müalicə aldığı zaman onun Azərbaycana qayıdacağından narahat olan o dövrün Azərbaycanın ölkə başçısı A.Mütəllimov Rusiya DTK sədrinin vasitəsi və xidməti telefonu ilə Heydər Əliyevlə əlaqə saxlamış, ona Azərbaycana qayıtma-

mağı məsləhət görərək Azərbaycanda artıq onu sevmədiklərinə dair həqiqətə uyğun olmayan məlumat vermiş və Bakıya döndüyü təqdirdə təhlükə ilə qarşılaşacağının istisna olmadığı barədə bildirmişdi. Təbii ki, Heydər Əliyev hər hansı təhlükədən qorxmadığını, Azərbaycanın onun doğma vətəni olduğunu, öz xalqını sevdiyini, istədiyi vaxt vətəninə qayıdacağını, heç kəsin ona mane ola bilməyəcəyini və heç kimin belə bir səlahiyyətə malik olmadığını nəzərə çatdırmışdı. Halbuki, həmin ərəfədə, sonradan özlərini ifşa edən, layiq olmadıqları deputatlıq statuslarını və səriştəsiz hakimiyyətlərini qorumağa cəhd edən bir qrup ikiüzlü nankorlar istisna olmaqla, qədirbilən azərbaycan xalqı həmişə olduğu kimi öz ləyaqətli oğlunun xalqımıza olan sonsuz istəyini, respublikamızın inkşafı naminə gördüyü misilsiz işləri yüksək qiymətləndirirdi və ona tükənməz sevgisi var idi.

Buna baxmayaraq, xaricdən idxal olunan, özgə dəyirmanına su tökən hakimiyyət rəhbərlərinin fəaliyyətdə olan gizli şəbəkələrinin vasitəsillə qurduqları təxribat hərəkətləri nəticəsində Heydər Əliyevi Bakıya gəlməkdən çəkindirmək məqsədilə, ölkəmizin tanınmış ziyalıları ilə birgə təyyarə limanında onu qarşılamaga hazırlaşdıqları barədə Ulu Öndərlə telefon əlaqəsi saxlayan Azərnəşrin direktoru Əjdər Xanbabayev 30.05.1990-cı il tarixdə axşam saat 10 radələrində şəhərin mərkəzinə yaxın Ketsxoveli və Poluxin küçələrinin kəsişdiyi döngədə dostunun evindən çıxıb avtomobilinə oturduğu zaman yaxın məsafədən açilan atəşlə qətlə yetirildi.

Heç bir hədə-qorxuya məhəl qoymayan Heydər Əliyev



Heydər Əliyev – Naxçıvanda,
iyun 1991-ci il

Bakıya gəldi və ilk vaxtlarda səhhəti ilə bağlı anadan olduğu Naxçıvanda yaşamağa və işləməyə üstünlük verdi.

Respublika rəhbərliyinə təyin edilən şəxslərin yarıtmaz fəaliyyətlərindən və nail olduqları fürsətdən istifadə edən düşmən Qarabağda, eyni zamanda, Sumqayıtda təxribatlar törədərək təcavüzkar niyyətlərinə yol açdılar. Ermənistan ərazisindən çox hallarda ölümlə nəticələnən işgəncələr tətbiq olunmaqla son nəfərə qədər qovulan 250 minə yaxın azərbaycanlı öz ata baba yurdları ilə vidalaşmalı oldu. Düşmənin silahlı qüvvələri himayədarlarının fəal dəstəyi ilə o dövrün Dağlıq Qarabağ Muxtar vilayəti ərazisinə daxil olan Xankəndini, Şuşanı, Xocalını və ətraf yaşayış ərazilərini işğal etdi.

1905, 1918, 1948 – 1953 cü illərdə milli zəmində azərbaycanlılara qarşı törədilən soyqrım siyasətinin tərkib his-



Xocalı sakinləri, 26 fevral 1992-ci il

səsi olaraq, 1988-1993-cü illər ərzində, işğal edilən ərazilərimizdən qovulan azərbaycanlılar yenə də bu şovinist və qəddar siyasətin qurbanları oldu. Yüzlərlə qadın, uşaq, qoca xüsusi amansızlıqla qətlə yetirildi, ailələr məhv edildi. Ermənistan ərazisində dislokasiya olunmuş rus ordusunun 366- cı motoatıcı alayının hərbi dəstəyi və iştirakı ilə Xocalı şəhərində erməni faşistləri tərəfindən törədilən qırğın tarixdə misli görünməmiş ən qəddar və insanlığa sığmayan üsul və vasitələrlə müşaiyət olunan kütləvi qətliam, dünyada bəşəriyyət əleyhinə törədilən ən qəddar cinayətlərdən biri kimi bu gün də beynəlxalq miqyasda tanınmaqda davam edir. Şaxtalı və qarlı gündə erməni faşistlərinin silahlı hücumundan, ayaqyalın vəziyyətdə qurtulmağa cəhd edən ananın sinəsinə sıxdığı körpəsini silahın nizəsi ilə qucağından zorla qopararaq onun gözü qarşısında qətlə yetirib, sonra özünü də oxşar işgəncələrə məruz qoyması, fikrimcə, tarixdə analoqu olmayan vəhşiliyin bir nümunəsidir.

SSRİ-nin dagılmasından sonra, 1992- ci ildə Azərbaycan məruz qaldığı təcavüzə son qoymaq, ərazi bütövlüyünün təmin edilməsi, ermənistan silahlı birləşmələrinin Azərbaycan torpaqlarından çıxarılması ümidi ilə BMT-nin üzvlüyünə daxil oldu.

Dünyanın ən yüksək statusa və səlahiyyətlərə malik mötəbər beynəlxalq təşkilatı olan BMT və onun Təhlükəsizlik Şurası, fəaliyyətini tənzimləyən Nizamnaməsinə uyğun olaraq, hər hansı ölkənin beynəlxalq normalar çərçivəsində tanınmış ərazilərinə, suverenliyinə yönələn müdaxilə, təcavüz, o cümlədən silahlı hücum törədildiyi hallarda, onun qarşısını almağa yönələn tədbirlər görmək, o cümlədən, sanksiyalar tətbiq etmək, lazım gəldikdə təcavüzkara qarşı sərəncamında olan silahlı struktur qürumun gücündən istifadə etmək səlahiyyətinə malikdir.

1993-cü ilin aprel ayının ilk günlərindən başlayaraq düşmən öz təcavüzkar siyasətini davam etdirərək Qarabag ərazisinə daxil olmayan Kəlbəcəri , daha sonra Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Fizuli və onlara bitişik çoxsaylı yaşayış məntəqələrini işğal etdi.

Həmin ilin aprel – noyabr ayları ərzində BMT-nin Təhlükəsizlik Şurası tərəfindən işğal olunmuş torpaqların beynəlxalq hüquq normaları əsasında tanınmış Azərbaycan əraziləri olmasını təsdiq edən, erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması tələblərini əks etdirən dörd qətnamə qəbul olundu.

Bundan sonra da, qəbul olunmuş qətnamələrə məhəl qoymayan erməni faşistləri özbaşınalıqlarını davam etdirərək İşğal etdikləri ərazilərdə yaşayan 750 minə yaxın

yerli əhalini öz doğma ev – eşiyindən didərgin saldı.

Ölkəmizin daxilində mövcud olan dərin iqtisadi və siyasi böhran, hakimiyyətsizliyin baş alıb getdiyi qeyri sabit şərait, hərbi sahədə özbaşınılıgın hökm sürməsi, torpaqlarımıza, eləcə də həmvətənlərimizə qarşı törədilən təcavüzün qarşısını almağa imkan vermirdi. Belə bir şəraitdə müharibənin daha ağır nəticələrə gətirib çıxarması ehtimalı qaçılmaz olaraq qalırdı. BMT Təhlükəsizlik Şurası isə qətnamələrin icrasına yönələn tədbirlər görməkdən yayınırdı.

Mövcud hakimiyyətdən narazılıq zəminində səriştəsiz ölkə rəhbərliyinin istefasına yönələn 2-4 iyun Gəncə qiyamı və qiyamşılar tərəfindən girov götürülmüş yüzlərlə insanın taleyi, hakimiyyətsizlik şəraitindən istifadə edən separatçı ünsürlərin cənub və şimal bölgələrində ölkənin parçalnmasına yönələn cəhdləri, ən başlıcası erməni qəsbkarlarının olkəmizin bu probləmlərlə üz-üzə qarşılaşdıqları şəraitdə namərd xislətinə uyğun xəyanətkar mövqeyini nümayiş etdirməkdə davam etməsi Prezident Ə.Elçibəyin ümidini hər yerdən üzmüşdü. Vətəndaş müharibəsinin ayrı-ayrı regionlarda artıq başlamış olduğu bir şəraitdə Heydər Əliyevin xalqın təkidli xahişi və tələbi ilə Bakıya dəvət olunması ölkəni bu çıxılmaz vəziyyətdən çıxara bilən yeganə qüvvə ola biləcəyi, dövlət idarəçiliyi sahəsində heç bir biliyə və təcrübəyə malik olmayan və tələb olunan ekstrimal hallarda qətiyyətli tədbirlər görmək kimi prinsipial mövqelərdən uzaq Ə.Elçibəyin özü üçün də ən optimal və ümidverici variant idi.

Tarix də sübuta yetirdi ki, Azərbaycanın müstəqilliyi-



Heydər Əliyev 28 May Respublika Günü
Bakı, Gülüstan sarayı, 27 may 2001-ci il

nin möhkəmlənməsi, xalqının gələcək xoşbəxtliyi və rifahı naminə canından keçməyə hazır olan Dahi rəhbər xalqının ümidini qırmadı və Bakıya gəldi. Qısa müddət ərzində mövcud problemlərin hər birini dərindən öyrəndi. Bu problemlərin həlli gecikdirilmədən təxrəsalınmaz tədbirlər görülməsini tələb etdiyindən idarəçilikdə təcrübəsi olan siyasi bilik və bacarığına etibar edə biləcəyi təcrübəli kadrlara böyük ehtiyac var idi. Lakin, son on ildən çox müddət ərzində obyektiv səbəblərdən respublikanın idarəçilik sistemində mövcud kadr ehtiyyatları barədə kifayət qədər məlumatlı olmayan Heydər Əliyev həmişə

olduğu kimi o dövrdə də kadrların seçilməsi və yerləşdirilməsi məsələsinə ciddi yanaşırdı. O, hələ Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində tabeliyində çalışmış, onun idarəçilik təcrübəsindən yararlanan, bilik və bacarığına bələd olduğu, hətta sonradan nankorluq edib arxasınca danışan şəxslərdən olsalar da belə, bəzilərini məhz Prezident aparaıtında və bir sıra mühüm sahələrdə məsul vəzifələrə təyin edir, onların liberal mövqeyini və şəxsi keyfiiyyətlərini nəzərə almadan, idarəçilik sistemində onlardan istifadə olunmasına şərait yaradırdı.

Azərbaycanın parçalanmasına, onun müstəqilliyinə qarşı törədilən təxribatlar, dövlət çevrilişinə cəhdlər, terror aktları, özünün həyatına qarşı sui-qəsdlər ölkə Prezidenti Heydər Əliyevi xalqının xoşbəxt gələcəyi naminə tutduğu müqəddəs yoldan döndərə bilmədi. Ulu Öndərin uzaqgörən siyasəti, cəsarətli həm də çevik addımları sayəsində mənfur qüvvələrin ölkəmizin təbii sərvətlərinə sahib çıxmaq arzuları ürəklərində qaldı. Xarici investorların ölkəmizə cəlb olunması, dünyanın möhtəşəm neft şirkətləri ilə imzalanan kontraktlar, təkcə iqtisadi cəhətdən deyil, həm siyasi, həm də beynəlxalq əlaqələrin qurulması və inkişafı sahəsində müstəsna əhəmiyyətə malik oldu.

Qarabağın ərazisini, eləcə də 7 rayonu işğal etmiş Ermənistanla həmin ərəfədə müharibənin davam etdirilməsində uğur əldə etməyin yanlış variant ola biləcəyini düşünərək, Heydər Əliyev Bakıya qayıtdığı ilk anlardan ölkəmizin ümumi vəziyyətini nəzərə alaraq düşmən tərəflə müvəqqəti də olsa atəşkəsə nail olmaq istiqamətində danışıqlar aparılmasına üstünlük verdi və 1994-cü ilin

may ayında bu barədə qarşılıqlı razılıq əldə olundu. Bundan sonrakı dövrdə də münaqişənin həlli ilə bağlı ATƏT-in yaratdığı Minsk qrupunun iştirakı ilə aparılan danışıqlar prosesində, eləcə də iştirak etdiyi bütün Beynəlxalq tədbirlərdə Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması barədə qəbul olunmuş beynəlxalq sənədlərin, o cümlədən, BMT qətnamələrinin icrasına yönələn əsaslandırılmış qətiyyətli mövqeyini dəfələrlə bəyan etmiş, İştirakçı dövlətlərin dəstəyini qazanmışdı.

Beynəlxalq sahədə də münasibətlər yarıtmaz vəziyyətdə idi. Azərbaycana rəhbərlik etmiş şəxslərin ikili standartlara xidmət etməsi, mövqe primitivliyi və təcrübəsizliyi ucbatından ölkənin beynəlxalq əlaqələri qane edici səviyyədə deyildi. Ermənilərin fitnəkar niyyətləri, Azərbaycana qarşı düşmənçilik mövqelərinin, eləcə də, mütəmadi olaraq davam edən əsassız torpaq iddialarının mahiyyəti lazım olan səviyyədə ictimaiyyətə çatdırılmırdı. Onların torpaqlarımızda ikinci erməni dövləti yaratmaq məqsədi ilə yüz minlərlə azərbaycanlı əhalininin yurd-yuvalarından didərgin salınması, minlərlə həmvətənlərimizin işgəncə və xüsusi amansızlıqla qətlə yetirilməsi kimi vəhşilikləri barədə nəinki xaricdə, ölkənin daxilində belə faktiki reallığı əks etdirən informasiya qıtlığı mövcud idi. SSRİ dövründə Muxtariyyət hüququ verilmiş qarabağ ermənilərinin guya azərbaycanlılar tərəfindən sıxışdırılması və hüquqlarının pozulduğu barədə daşnaklar tərəfindən uydurulmuş şər və böhtan dolu təbliğat beynəlxalq arenada əsil həqiqə-



Heydər Əliyevin BMT-də çıxışı

tin ört-basdır edilməsinə, ağ yalan və iftiraların isə ayaq tutub yeriməsinə gətirib çıxarmışdı.

Qeyd olunan bütün bu halları nəzərə alaraq ölkəmizin daxilində sabitliyi bərqərar etmək, iqtisadi vəziyyəti tarazlaşdırmaq, müasir hərb sənətinin sirrlərini mənimsəyən etibarlı orduya malik olmaq, öz xalqının sarsılmaz ideya və iradə birliyinə və nəhayət, qələbə zəfərinə əmin olmaq, həmçinin, Qarabağın tarixən və bütün dövrlərdə Azərbaycan torpağı olması barədə əsil həqiqəti, habelə, ermənilərin növbəti təcavüzünün yüz ildən çox müddətdə azərbaycanlılara qarşı davam edən milli düşmənçilik zəminində etnik təmizləmə, soyqrım siyasətinin tərkib hissəsi olması barədə faktları beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması vacib amillərdən idi.

BMT Təhlükəsizlik Şurasının, icrasız qalan qətnamələrinin kağız üzərində mövcudluğuna ümid bəsləməklə işğal olunmuş ərazilərimizin taleyini faktiki olaraq fəaliyyətsizlik göstərən ATƏT-in Minsk qrupunun mənasız müzakirələrinə etibar etmək sadəlöhvlük olardı. Onların bu fəaliyyəti sanki, daha çox, ərazilərimizin işğalını unutdur-

maga yönəlmişdi. Otuz ilə yaxın müddət ərzində, erməni lobbisinin güclü təsirə malik olduğu, həm də, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ölkələrin nümayəndələrindən təşkil olunmuş bu qrupun təşəbbüsü və iştirakı ilə ara-sıra keçirilən müzakirələr məcazi mənada "gözə kül üfürmək " təsəvvürü yaradırdı və Azərbaycan tərəfi arxayınlaşdırmaq, ötürülmüş müddəti bir qədər də uzatmaqla təcavüzkar tərəfin öz cinayətkar niyyətlərinə nail olmağa imkan verən şərait yaratmağa xidmət etməkdən başqa bir şey deyildi.

Müstəqil dövlətçiliyimizin qorunması və möhkəmlənməsi, ölkədaxili sabitliyin təmin olunması, idarəçilik sisteminin, iqtisadi, siyasi və hüquqi əsaslarının qurulması, milli ordunun yaradılması və formalaşması, beynəlxalq münasibətlərin və mədəni əlaqələrin inkşafı, Ümummilli lider Heydər Əliyevin vətəninə, xalqına olan sarsılmaz bağlılığının, sönməz sevgisinin qüdrətindən irəli gələn misilsiz xidmətləri sayesində mümkün oldu.

Heydər Əliyevin layiqli davamçısı olaraq İlham Əliyev başa düşürdü ki, BMT Təhlükəsizlik Şurası qətnamələrinin uzun müddət ərzində Ermənistan tərəfindən icra olunmamasına bilərəkdən göz yumulur. Beynəlxalq sənədlərdə "Münaqişə" kimi qeyd olunan bu təcavüzün və işğalın danışıqlar yolu ilə həllini fəaliyyətsizlik nümayiş etdirən, ATƏT – in Minsk qrupuna həvalə olunması, yalnız təcavüzkar tərəfin mənafeyinə xidmət edir. Azərbaycanın isə öz hərbi gücü sayesində torpaqlarını azad etmək iqtidarında olmasına isə inamla yanaşmırlar.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına

dair Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və s. beynəlxalq təşkilatları tərəfindən qəbul olunan qərarlar da təəssüf ki, təcavüzkara təsir etmək iqtidarında olmadı. Əksinə İllər ötdükcə, havadarlarına güvənərək, BMT və ATƏT -in Minsk qrupunun həmin müddət ərzində fəaliyyətsizliyindən azğınlaşan düşmən Azərbaycanın Qarabağ bölgəsinə daxil olmayan Tərtər, Tovuz, Qazax, Gədəbəy, Daşkəsən rayonlarının yaşayış məntəqələrinə mütəmadi olaraq silahlı hücumlar etməklə dinc əhali içərisində insan itkilərinin artmasına səbəb olur, yenə də insanlara maddi və mənəvi zərər vurmaqda davam edirdilər..

Otuz ilə yaxın müddət ərzində aparılan danışıqlar prosesində Azərbaycanın mövqeyi dəyişməz olmuşdur. Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması, eləcə də bir milyona yaxın qaçqın və köçkünlərin tarixən yaşadıqları yurdlarına qayıtmaları kimi hüquqlarının bərpa olunduğu təqdirdə, Qarabağ erməni icmasına Azərbaycanın tərkibində ən yüksək muxtariyyət verilməsi məsələsinin müzakirə olunması mümkünlüyü barədə bəyanatlar irəli sürülmüşdür. Lakin qarşı tərəf Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaq xülyasından əl çəkməmiş, işğal etdikləri əraziləri daha da genişləndirmək niyyəti ilə yenidən müharibəyə hazırlıq istiqamətində geniş miqyaslı tədbirlər görmüşdür. İşğal altında olan ərazilərdə hücum və müdafiə zamanı yerdəyişmələr və manevrlər etmək məqsədilə öz düşüncələri çərçivəsində keçilməz səngərlər, yeraltı



İlham Əliyevin Münxendə növbəti siyasi qələbəsi,
15 fevral 2020-ci il

sığınacaqlar qurmuş, müxtəlif növ silahlar, tanklar, hərbi maşınlar, təyyarələr, raket qurğuları və s. əldə etmişlər.

Düşmən daxilində özünü "ikinci erməni dövlətinin qurucusu" kimi qələbə qazanacağına "inamla" yanaşan, dünyanın bir nömrəli terroristi imicini qazanmış Sorosun yetişdirməsi, Köçəryanın sonuncu müsahibəsinə görə "Sorosizmin"in Ermənistanda çox geniş yayılmış tərəfdaşlarının sayesində, baş nazir vəzifəsində olan qarabağ qansterlərindən olmuş Sarkisyanın hakimiyyətini devirməklə baş nazir vəzifəsinə yüksələn Paşinyan soyadlı erməni, bənzəri olmayan həyasızlıqla Xankəndində "Qarabağ ermənistandır, nöqtə" deyərək bəyanat səsləndirdi. Və əsabələri ilə birlikdə Azərbaycanın qürur mənbəyi olan Şuşa şəhərinə gedərək vaxtilə, Qarabağ xanlarının yarışlar keçirdiyi Cıdır düzündə sərxoş vəziyyətdə nümayişkaranə



İlham Əliyevin BMT-də çıxışı

tərzdə rəqs etməyi özünə rəva bildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bundan sonra da səbr və dözüm nümayiş etdirərək beynəlxalq təşkilatların iclaslarinda, o cümlədən, Soçi şəhərində, Qazaxstanda eləcə də sonuncu dəfə isə Almaniyanın Münxen şəhərində müxbirin Qarabağla bağlı sualları əsasında keçirilən debatda, haqqa- ədalətə söykənərək tarixi faktlara əsaslanan dəlillərlə beynəlxalq qanun və konvensiyalara, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə istinad etməklə Qarabağın Azərbaycanın tarixi ərazisi olmasını bir daha sübuta yetirdi və əvvəlki şərtlərinə sadiq qalaraq Ermənistanın silahlı ordu hissələrini Azərbaycan torpaqlarından çıxardığı təqdirdə Garabağ erməni icmasının yaşadıqları ərazilərdə normal şəraitlə təmin olunacağını və bundan sonra onların status məsələsinin müzakirə oluna biləcəyni bir daha dilə gətirdi. Eyni zamanda bir daha nəzərə çatdırdı ki, Beynəlxalq təşkilatların qətnamələri icra olunmadığı təqdirdə Azərbaycan xalqı BMT Təhlükəsizlik Şurası Nizamnaməsinin müvafiq normalarına uyğun olaraq ərazilərinin işğaldan azad

edilməsi hüququnu özündə saxlayır. Beynəlxalq hüquq normalarından, tarixi reallıqdan bixəbər, Paşinyanın heç bir məna və mahiyyət kəsb etməyən, eybəcərləşdirilmiş şəkildə ifadə etdiyi söz qırıntıları isə onu tədbir iştirakçılarının qarşısında gülünc vəziyyətə saldı. Bundan sonra, O, masa arxasında Azərbaycan Prezidentinə biabırcasına uduzduğunu dərk edərək, öz gücünü hərbi sahədə nümayiş etdirəcəyinə və qalib olacağına "əminliklə" yanaşdı.

Ac toyuq yuxusunda darı gördüyü kimi, sələfləri sərkisyandan və köçəryandan da irəli gedərək Azərbaycan torpaqlarının daha geniş ərazilərini əhatə etməklə " ikinci erməni dövləti" yaratmaq xülyasını reallaşdırmaq məqsədi ilə torpaqlarımızı və dinc əhalini müxtəlif səmtlərdən hücumlara məruz qoydu. Paşinyanın timsalında Ermənistanın real vəziyyəti anlamaq və qiymətləndirmək səriştəsi olmadığı son zərurət vəziyyəti, işğal altında olan torpaqlarımızın azad edilməsi məqsədilə həyata keçirilmiş hərtərəfli tədbirlər sayesində dünyanın güclü ordular sırasına daxil olan Azərbaycan ordusunun Ali Baş Komandanı İlham Əliyevin, uzun illər ərzində göstərdiyi dözüm və səbrinin tükənməsinə rəvac verdi.

27 sentyabr 2020-ci il tarixdə səhər saat 6 radələrində Ermənistan ordusu sərhəd boyu Azərbaycan yaşayış məntəqələrini iri çaplı ağır artileriya silahlarından atəşə tutdu, müxtəlif tipli ağır texnikanın sərhədlərimizi pozaraq yaşayış məntəqələrimizə hücum cəhdləri göstərdi ki, növbəti təcavüzü düşmənin açıq-aşkar yenidən ərazilərimizin işğalına, dinc əhalinin məhv edilməsinə yönəlib.

Azərbaycan dövlətinin başçısı, Ali Baş Komandan

İlham Əliyevin, illərdir, torpaqlarımızın düşməndən hərbi yolla azad edilməsi üçün susayan əsgərlərimizə, "Torpaqlarimızı azad etmək uğrunda İRƏLİ!" əmr komandasını ordumuz bayram əhval-ruhiyyəsi ilə qarşıladı və dərhal düşmənin cəbhə boyu hücumunun qarşısını kəsərək itkilər verib geriyə çəkilməyə məcbur etdi. Düşmən tərəf yerdəyişmə manevrləri tətbiq etməklə bir neçə dəfə hücum taktikasını qəyişməyə cəhd etdisə də, müharibənin ilk günlərindən Azərbaycan dövlətinin və onun ordusunun gücü ermənilərin qurduqları taktikanı darmadağın etdi, otuz il ərzində yaratdıqları səngərlərdən keçib irəliləmək nə qədər çətin olsa belə, vətənə, xalqına, Ali Baş Komandana olan sevgi, sarsılmaz mill ruh, eyni zamanda, düşmənin dözülməz xislətinə və xəyanətinə qarşı formalaşmış nifrət, keçilməz hesab olunan səngərləri yararaq geridə qoydu. Cəsur əsgərlərimiz ölümün gözünün içinə Şəhidlik zirvəsindən baxaraq yalnız Vətən uğrunda və Zəfər naminə irəlilədilər.

Qırx dörd gün davam edən Vətən müharibəsi, hər bir azərbaycanlıya həyəcan dolu qürurverici sevincli hisslər, xoşbəxt anlar bəxş etməklə, məğrur və igid əsgərlərimizin döyüş meydanında göstərdikləri yenilməz şücaəti, qəhrəmanlıq nümunələrini tərənnüm edən döyüş salnaməsini, habelə, Azərbaycan əsgərinin mətinliyi və gücü qarşısında aciz qalan, silahını, texnikasını döyüş meydanında qoyub qaçan namərd, fitnəkar və qorxaq düşmənə qarşı dərin nifrət doğuran səhnələri əks etdirən, sanki dünyanın ən istedadlı rejissorunun yaratdığı bir teatr tamaşasını xatırladırdı.

27 sentyabr 2020-ci il tarixdə ikinci Vətən müharibəsi



Əsgərlərimizin ölümün gözünün içinə Şəhidlik zirvəsindən baxaraq Vətən uğrunda və Zəfər naminə əks hücumu

başladığı ilk anlardan Azərbaycan ordusunun Ali Baş Komandanı İlham Əliyevin qələbə əzminə, nikbin əhvali ruhiyyəyə malik olması hər kəsdə, hətta cəbhədə düşmənlə qarşı – qarşıya döyüşən və hər an şəhid olmağa hazır olan əsgərlərimizdə böyük ruh yüksəkliyi, qələbəyə inam yaradırdı. Düşmən qüvvələrinin müqavimətini qırıb, igid əsgərlərimizin irəliyə doğru atdıqları hər addım, dəf olunan istehkamlar gecəli - gündüzlü nəzarətdə saxlanmaqla, hər bir yüksəkliyin, kəndin, rayonun, şəhərin azad edilməsini teleyiziya ekranları vasitəsilə məhz Ali Baş Komandanın özü tərəfindən xüsusi duyğularla xalqımıza elan olunması hər bir azərbaycanlının qəlbinə əbədi yaşayacaq sevincli anlar bəxş edirdi, təkcə Azərbaycanda deyil, bütün dünya



Əsgərlərimizin növbəti qələbə təntənəsi

azərbaycanlılarının ümummilli bayramına çevrilirdi və xüsusi təntənə ilə qeyd olunurdu.

Əslində, Heydər Əliyev kimi vətənpərvər, müdrik və cəsarətli Dövlət xadiminin və Zərifə xanım kimi ziyalı və nurlu ananın təlim – tərbiyəsi mühitində böyüyüb yetişməsi İlham Əliyevin xarizmatik şəxsiyyət anlamını özündə birləşdirən siyasi xadim olmasında rolu misilsizdir və təbii qəbul oluna bilər. Bir sıra Rusiya siyasi dövlət xadimlərinin, İlham Əliyevin Moskva Dövlət Beynəlxalq Münasibətlər institutunda Diplomatiya sahəsində yüksək ixtisasa yiyələnməsinin də təsiri olması barədə qürrələndikləri fikirlərlə də razılaşmaq olar. Ulu Öndərin azərbaycan xalqına miras olaraq bəxş etdiyi ideyalara sadiq qalmaq və zamanın fövqünə uyğun bu ideyaları təkmilləşdirmək və inkşaf etdirmək İlham Əliyevin 17 il ərzində ölkəmizə rəhbərliyi dövründə həyata keçirdiyi saysız-hesabsız uğurla-

rın və qələbələrin ən mötəbər və əvəzolunmaz mənbəyi olması şübhəsizdir.

Lakin nə qədər işlər görülsə də və uğurlar əldə edilsə də, torpaqlarımızın otuz ilə yaxın müddət ərzində işğal altında qalması, təkcə azərbaycanlı olaraq deyil, dövlət başçısı, həm də Azərbaycan ordusunun Ali Baş Komandanı kimi onu rahat buraxa bilməzdi. Ulu Öndər 2003-cü il Prezident seçkilərində xalqa müraciət edərək Ilham Əliyev barəsində demişdi: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm "

Azərbaycan Prezidenti, Azərbaycan Milli ordusunun Ali Baş Komandanı İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müqəddəs vəsiyyətini ölkə həyatının bütün sahələri ilə yanaşı, həm diplomatiya sahəsində, həm döyüş meydanında yenilməz mərdlik və cəsarət nümayiş etdirməklə, Azərbaycan ordusunun fədakarlığı və igidliyi sayesində işğal altında olan ərazilərimizi erməni faşistlərindən azad etdi.

Ali Baş Komandan Şuşa şəhərinin işğaldan azad olunduğu 8 noyabr 2020-ci il tarixdə Ulu Öndərin məzarını ziyarət edərək qürurla, bir az da kövrək duyğularla onun ruhu qarşısında baş əydi, ata vəsiyyətini yerinə yetirdiyindən xoşbəxt olduğunu ifadə etdi.

Ümummilli Liderin, oğlu İlham Əliyevə, milli qüru-



Birinci vitse-prezident Mehriban Əliyevanın dünyada tarixi-mədəni, dini abidələrin qorunmasına və bərpasına yönələn multikultural fəaliyyəti misilsizdir.

rumuzun rəhni olan bu vəsiyyəti və onun ən yüksək səviyyədə yerinə yetirilməsi Azərbaycan xalqının vətəninə, ailəsinə, valideynlərinə olan bağlılığın, sevginin təcəssümü, onların nəsihətlərinə və vəsiyyətlərinə olan sadiqliyin simvolik nümunəsi olaraq Azərbaycanın müasir tarixində mənəvi dəyərlərimizi zəngilləşdirən parlaq səhifələrdən olacaq.

Dünyada sülhsevərliyi, beynəlmiləl mövqeyi və qanunlara riayət etməyi, eyni samanda, vətənini, milli adət və ənənələrini, tarixi-mədəni, dini abidələrini qoruyub saxlamağa önəm verən Azərbaycan, yerləşdiyi ərazidən, hansı millətə, dinə mənsub olmasından asılı olmayaraq başqa ölkələrin və xalqların da adət və ənənələrinə, tarixi-mədəni, dini abidələrinə hörmətlə yanaşmaq kimi yüksək mənəvi dəyərlərə həmişə həssaslıqla və incə düşüncələrlə yanaşmışdır.

Son illər dünyaya xeyirxahlığın, sülhsevərliyin, humanistliyin və multikulturalizmin nümunəsi kimi təqdim olunan ölkəmiz üçün, bu kimi mənəvi dəyərləri anlamaq və dərk etmə düşüncəsindən uzaq bəzi ölkələrin hakimiyyət rəhbərlərinin Azərbaycana qarşı qeyri-adekvat və eyni zamanda, açıqdan – açığa beynəlxalq hüquq normalarına, o cümlədən, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə zidd mövqe nümayiş etdirməsi təəcüb və maraq doğurur. Bu münasibət erməni diasporasının, öz nüfuzuna güvənməyən ölkə Prezidentlərinin seçki prosesində, təsir edici imkanlarından sui-istifadəsi ilə əlaqədar olduğu şübhə doğurmur.

Multikulturalizmin beynəlxalq səviyyədə yayılması və inkşafında Azərbaycanın Vitse Prezidenti xanım Mehriban Əliyeva tərəfindən çox sayda xeyirxah missiyalar həyata keçirilmişdir. Heydər Əliyev fondu hesabına Təbii fəlakətdən zərər çəkmiş ölkələrə, o cümlədən, beynəlxalq əhəmiyyətə malik tarixi, dini, mədəni abidələrin təmirinə və bərpasına göstərilən yardımlar kifayət qədərdir. Mənsubiyyətindən asılı olmayaraq Azərbaycan ərazisində mövcud olan və aşkar edilən bütün milli, dini, eləcə də incəsənət abidələrinə eyniliklə tolerant münasibət göstərilmiş, ehtiyac olduğu hallarda, həmin abidələrin mənsub olduğu ölkə mütəxəssislərinin rəyi nəzərə alınmaqla bərpa, yaxud təmir işləri aparılmışdır.

Əfsuslar olsun ki, Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu otuz ilə yaxın müddət ərzində həmin ərazilərimizdə, təsəvvür etmək belə mümkün olmayan vəhşiliklərə məruz qalmış təkcə Azərbaycanın

deyil, bu ərazilərdə yaşamış ayrı - ayrı millətlərə məxsus qədim xalqlardan qalmış abidələr yerlə yeksan edilmişdir. Azərbaycanın bir sıra digər regionlarında da mövcud olan qədim Albanlara məxsus abidələr, işğal olunmuş ərazilərdə bu abidələrin qalıqları, o cümlədən qəbirlər də daxil olmaqla sökülüb saxtalaşdırılmaqla, onların yaxın gələcəkdə ermənilərin əcdadlarına məxsusluğu barədə uydurma rəylər yaratmağa cəhdlər göstərilmişdir. Bu ərazilərin illər və əsrlər boyu azərbaycanlıların qədim yaşayış yerləri olmasını həyasızcasına inkar etməyə cəhd edən ermənilər ağına-bozuna baxmadan milli etnik zəmində Azərbaycanın tarixinə aid olan qalaların, qədim mağaraların, tarixi incəsənət abidələrinin, tarixi əhəmiyyət kəsb edən muzeylərinin, konsert salonlarının əksəriyyətini söküb dağıtmışlar. Şərq dünyasının musiqi korifeyləri olan Üzeyir Hacıbəyovun, Bülbülün, görkəmli siyasi xadim və şair Xurşudbani Natəvanın və digərlərinin abidələrini odlu silahdan atəşə tutaraq zədələmişlər. Erməni şovinistlərinin müsəlmanların dini ocaqlarına münasibəti də dəyişməz olmuşdur. Belə ki, işğal olunmuş ərazilərdə qəbiristanlıqlar məhv edilmiş, 70-dən çox məçit və dini məbədlər dağıdılmış, qalan bir neçəsi isə təkcə müsəlman aləminin deyil, dinindən və milliyətindən asılı olmayaraq dünya xalqlarının mənəvi dəyərlərini təhqir edərək bu müqəddəs ocaqları tövlə qismində istifadə etməkdən belə çəkinməmişlər. Qarabağ ərazisində yaşadıqları evlərin bir hissəsi istisna olmaqla, işğal edilmiş 7 rayonun hər birində evlər və binalar dağıdılmış, evlərin və qeyri yaşayış binalarının qapıları, pəncərələri sökülərək aparılmışdır. Bu gün dünya-

nın xüsusi olaraq diqqətində olan ətraf mühitin, fauna və flora ehtiyatlarının o cümlədən meşələrin qorunmasının prioritet istiqamətlərdən olduğu bir zamanda, İşğal altında olmuş ərazilər xarabazara çevrilmiş, meşələr qarət olunmuş, ağaclar kəsilib aparılmış, yaxud yandırılaraq məhv edilmişdir. Kapituliyasiya aktı imzalandıqdan sonra köçə-köç dürumda da dünyanın gözü qarşısında azad etdikləri şəhər və rayon ərazilərində, işğaldan əvvəl yaşamış azərbaycanlılara məxsus evləri və onlara bitişik təsərrüfat sahələrini əvvəlcə qarət və talan edib, sonra da od vurub yandıraraq məhv etməklə milli mənəviyyatlarını bir daha nümayiş etdirdilər. Bu mənzərələri müşahidə edən hər kəsi düşündürməyə vadar edən suallar sonsuzdur...

Azərbaycanlılara, eləcə də bir sıra qonşu ölkələrə qarşı torpaq iddiaları, bu zəmində törətdikləri təcavüzkar siyasət, onların "Dənizdən dənizə Böyük Ermənistan" yaratmaq kimi mif ideyalarını həyata keçirməyə xidmət etməklə, azərbaycanlıların milli zəmində məhv edilməsi və ərazilərini mənimsəməyə yönəlib. Baxmayaraq ki, Ermənistan dövlət kimi, Azərbaycanın qədim torpaqları hesabına təşəkkül tapmış, lakin, heç zaman Azərbaycan Ermənistana qarşı heç bir iddia irəli sürməmişdir. Ermənistan isə, uzun illər boyu qarşılıqlı münasibətlərin yaxşılaşmasına səy göstərən Azərbaycana qarşı beynəlxalq qanun və qaydalarla hesablaşmayaraq uzun illərdir öz şovinist təcavüzkar və işğalçılıq siyasətindən əl çəkmir. 1905-ci, eləcə də 1918-ci ildə azərbaycanlılara qarşı törədilən qırğınlardan, habelə, azərbaycanlıların Ermənistan ərazisindən deportasiyaya məruz qaldıqları 1948-1953 cü illərdən

sonra, erməni təcavüzünün yeni dalğasına qədər müddət ərzində Azərbaycan ərazilərində, o cümlədən, Bakı şəhərində yaşayan ermənilərin milli ayrıseçkiliklə qarşılaşmaları barədə bir fakt belə mövcud olmamış və yaxud qeydə alınmamışdır, əksinə, iki millət arasında qarşılıqlı münasibətlərin normal qayeyə yönəlməsi, fakt olaraq o zaman Bakı sakinləri olmuş hər kəs, o cümlədən ermənilərin özləri tərəfindən də təsdiq oluna bilər. Lakin, hər dəfə olduğu kimi, erməni şovinistləri bu dəfə də öz çirkin niyyətlərini həyata keçirmək məqsədilə artıq stabil xarakter almış münasibətlərə yenidən düşmənçilik toxumu səpdi, bu münasibətlərə elə bir zərbə vurdu ki, nəticələrinin yaxın on illər ərzində sağalacağına inanmaq sadəlöhvlük olardı.

Beynəlxalq qanunlara, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan, güzəştli təkliflərlə razılaşmayan və sonda "Qarabağ Ermənistandır" deyərək meydan oxuyan Ermənistanın baş naziri Paşinyan Azərbaycan ərazilərinə hücumu ilə başladığı müharibənin ilk günlərindən Azərbaycan ordusunun və onun Ali Baş Komandanı İlham Əliyevin qarşısında tab gətirə bilməyəcəyini nəhayət ki, anlayaraq, müxtəlif ölkələrin rəhbərlərinə müraciət edib onlardan kömək diləyir, qızışdırıcı uydurma dini, milli ayrıseçkilik və digər həssas motivlərlə müharibəyə cəlb etməyə cəhdlər edirdi. Lakin, artıq haqqın, ədalətin Azərbaycan tərəfində olduğu barədə məlumatı olan müvafiq ölkələrin rəhbərləri onun bu dilənişlərini milli mentalitetlərinə uyğun təxribatlar olduğunu dərk edərək başlarından rədd edirdilər. Təkrar telefon əlaqəsi saxlamaq cəhdi, şübhəsiz ki, baş tutmurdu. Belə olduğu

təqdirdə, Paşinyan hərbi cinayətlər və təxribatlar törətməklə qonşu ölkələri müharibəyə cəlb etməyə cəhdlər etdi. Müharibə gedən işğal olunmuş ərazilərdən uzaq məsafədə yerləşən dinc insanların sıx yaşadığı Gəncə, Bərdə, Ağcabədi, Xızı, Tərtər və digər şəhərlərə, əhalinin yatmış olduğu gecə vaxtı köməksiz vəziyyətində günahsız insanların daha çox sayda məhv edilməsi məqsədilə, nəticədə geniş miqyasda dağıntılara və insanların, o cümlədən qadın, uşaq və bir sıra hallarda ailələrin faciəsi ilə nəticələnən ballistik raketlər atmaq barədə ağlasığmaz göstərişlər verdi. Azərbaycanı adekvat cavablara təhrik etməyə, Türkiyə hərbi qüvvələrinin, daha sonra suriyalıların Azərbaycan tərəfində vuruşmaları barədə tamamilə uydurulmuş yalan məlumatlar yaymaqla Rusiya və Türkiyə qarşıdurması yaratmağa, bu qarşıdurma fonunda öz təcavüzkar mövqelərini və Azərbaycan ordusu qarşısında biabırçı məğlubiyyətini ört- basdır etməyə çalışırdı.. Lakin, Azərbaycan Ali Baş Komandanın simasında bu təxribatların mahiyyəti və məqsədi düzgün qiymətləndirərək düşmənin fitnəkar niyyətlərinə nail olmağa imkan vermədi. Azərbaycanın məqsədi öz hərbi gücü sayesində torpaqlarını işğaldan azad etmək, düşmənin hərbi qüvvələrini ərazilərimizdən qovub çıxarmaq vətənimizin müdafiəsini təmin etməkdən ibarət idi və buna da nail oldu.

44 gün davam edən müharibədə məğlub olan Ermənistan Rusiya Prezidenti Bladimir Putinin vasitəçiliyi və iştirakı ilə təslim olması barədə aktı imzalayaraq qalan 2 rayonu könüllü olaraq təhvil vermək barədə öhdəliyi qəbul etdi.

Beynəlxalq qanunlara, BMT-nin qətnamələri ilə əsaslandırılmış haqlı və ədalətli mövqeyinə arxalanaraq Azərbaycan təcavüzkar düşmənə qarşı Ali Baş Komandan İlham Əliyevin yaratdığı qüdrətli ordunun döyüş taktikası və yenilməz şücaiəti sayesində işğal altında olan ərazilərimizi geri qaytardı. Azərbaycan üçün bu müharibə təcavüzkar və işğalçı düşmənə qarşı öz doğma torpaqlarının azadlığı uğrunda apardığı Vətən müharibəsi idi. İtirdiyimiz gənclər Vətən torpaqları uğrunda şəhidlik zirvəsinə yüksələn, həmişə xalqımızın qəlbində yaşayacaq Vətəninin şanli və qəhrəman oğullarıdır. Təcavüzkara qarşı aparılan bu müharibə dünyanın hər yerində, istər ictimaiyyət daxilində, istərsə də dövlətlər və beynəlxalq təşkilatlar səviyyəsində Azərbaycan tərəfindən haqq - ədalət naminə aparılan Vətən müharibəsi, bu yolda həlak olanlar isə vətəni uğrunda Şəhid olan və xalqının şanlı tarixinə həkk olunan mərd oğulları kimi tanındılar. Ermənilərin qonşu torpaqlarına təcavüzü məqsədilə müharibəyə cəlb etdikləri övladlarının hansı niyyətlər və dəyərlər uğrunda həlak olmaları şübhəsiz ki, düşündürücüdür və çoxlu sayda suallar doğurur. Onları bu müharibəyə təhrik edən və yalnız mənfur və tamah məqsədi güdən xəyanətkar qüvvələr bu suallara cavab verməlidir. Ona görə bu gün də hakimiyyət uğrunda dəridən-qabıqdan çıxan əsil günahkarların şovinist və məkrli əməllərinə hüquqi qiymət verilməsi hər iki millətin qarşısında duran ən vacib və təxirəsalınmaz məsələlərdəndir. 1988-ci ildən başlamış qanlı hadisələrin səbəbkarları, Ermənistana rəhbərlik etmək iddiasında olmuş və minlərlə insanların qanı bahasına niyyətlərini

həyata keçirdikləri qansterlər Köçəryanın, Sarkisyanın, eləcə də onlara havadarlıq edən Qorbaçovun və onun köməkçiləri olmuş Aqambekyanın, Şahnazaryanın və digərlərinin Azərbaycana, həmçinin erməni xalqına vurduğu maddi, mənəvi zərərin ölçü vahidi yoxdur. Maddi zərəri milyardlarla hesablamaq mümkün ola bilərsə də, bundan sonra, əsrlər boyu qonşu ölkə olaraq yaşamağa məcbur olacaq iki millət arasında kəskin xarakter almış düşmənçilik münasibətlərinin davam edəcəyinə zəmin yaradan amillər hədsizdir, unudulmazdır və uzun illər xatirələrdən silinməzdir. Bəşəri dəyərlərə və insanlığa qarşı törədilən bu cinayətlərin təşkilatçı və təhrikçi subyektləri olan məlum şəxslərin əməllərinə hüquqi qiymət verilmədiyi halda, gələcəkdə münaqişənin və düşmənçiliyin daha faciəli və müddətsiz davam edən nəticələri istisna olunmur.

Ona görə də erməni xalqı azərbaycanlılara qarşı illərlə ürəklərində yaşatdığı və övladlarına tövsiyə etdiyi hər cür kin- küdurəti, ədavəti, xəyanəti, fitnəkarlığı qəlbindən silərək birdəfəlik atmalı, qonşu torpaqlarına qarşı əsassız iddialara, düşmənçiliyə son qoymalıdır. Haqq-ədalət, insanlıq, sülh, əminamanlıq, xoşbəxt gələcək, nəhayət normal qonşuluq münasibətləri naminə qərar verməlidir. Bu dəyərlərə nail olmaq üçün isə erməni xalqını düşmənçiliyə sövq edən ayrı – ayrı yırtıcı və şovinist qüvvələr, minlərlə günahsız insanların həlak olmasından mənəvi əzab çəkən hər iki millətin nümayəndələri qarşısında cavab verməlidir. Düşmənçiliyə təhrik edən qüvvələrin tezliklə məsuliyyətə cəlb olunması və ermənilərin azərbaycanlılara qarşı düşmənçiliyinin nədən qaynaqlandığının araş-

dırılması millətlərarası münasibətlərin normallaşmasına nisbətən də olsa təkan vermiş olardı. Hərçənd ki, əslində bu iki millət arasında mövcu olan ədavətin, düşmənçiliyin heç bir tarixi əsası yoxdur. Səbəb və məqsəd isə erməni şovinistlərinin Azərbaycanın dünya tərəfindən tanınmış torpaqlarına əsassız iddiaları, təhrikçi ambisizion qızışdırıcı mövqeləri və azərbaycanlılara qarşı birtərəfli milli-etnik zəmində düşmənçiliyin geniş miqyasda təbliğindən ibarətdir.

"Respublika"
25 fevral 2021-ci il



# NİTQİ ORDUYA BƏRABƏR LİDER

Görünür Azərbaycan Tanrının diqqətinə layiq məkan olduğu üçün bu yurdun sakinləri zaman-zaman Vətən qarşısında çətin, eyni samanda gərəkli sınaqlardan çıxmalı olmuşlar. Mərdlik, qeyrət, qəhrəmanlıq, rəşadət sınaqlarından. Sanki bu torpağın insanlarının alnına yazılıb, hər qarışı qanları-canları ilə qorumaq və bundan da qürur duymaq və nəhayət, dünyaya nümunə olmaq.

XXI əsrin ilk rübü, -BMT TŞ, Avropa ittifaqı, Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamə və qərarlara, xalqımızın həmişə sülh tərəfdarı olmasına və təca-

vüzkar Ermənistana münasibətdə də bu mövqedən çıxış etməsinə baxmayaraq, Azərbaycan hələ də erməni faşistləri tərəfindən zəbt olunmuş torpaqlarıının itkisi, bir milyona yaxın qaçqın və didərgin düşmüş həmvətənlərinin acı taleyi ilə yaşayırdı. Qarabağ adlı Azərbaycan cənnəti hələ də mənfurların, misginlərin, ləyaqətsizlərin tapdağı altında inləyirdi. Qarabağın da çöhrəsi bu vətən dərdini ruhu ilə yaşayan hər bir azərbaycanlı kimi solğun və bədbin görünürdü. Sanki, bu qədim diyar intizar içindəydi, qəribsəmişdi, öz doğmaları üçün.

Nə yaxşı ki, Ulu Tanrı Azərbaycan xalqının taleyinə Ümummilli Liderimiz Heydər Əliyev kimi dahi insanı, xilaskar rəhbəri nəsib etdi. Məhz onun xalqına, vətəninə sonsuz məhəbbəti misilsiz əvəzolunmaz xidmətləri sayesində 1988-1995-ci illər ərzində ölkəmizin parçalanmasına, vətəndaş müharibəsinin başlanmasına, düşmən tərəfindən daha çox ərazilərin işğalına, maddi-mədəni sərvətlərimizin mənimsənilməsinə və nəticə etibarı ilə ölkəmizin iqtisadi və siyasi əsaslarına qarşı yönələn qəsdlərin qarşısını almaq mümkün oldu. Məhz Ulu öndərin yürütdüyü düzgün və məqsədönlü siyasət nəticəsində ölkə sabit həyata, stabil inkşaf yoluna qədəm qoydu.

2003-cü il prezident seçkilərində Ulu Öndər xalqa müraciət edərək Azərbaycanın gələcəyini etibar etdiyi İlham Əliyev barədə dahiyanə uzaqgörənliklə demişdi: ”O yüksək intellektli, proqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən enerjili və təşəbbüskar bir şəxsiyyətdir...inanıram ki, mənim axıra çatdıra bilmədiyim tale yüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyi-

nizlə lham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Dahi Şəxsiyyət tərəfindən söylənən bu fikirlər Azərbaycan xalqının İlham Əliyevə ilkin olaraq ən yüksək səviyyədə göstərdiyi etimadın əsasını qoydu.

Azərbaycan son otuz il ərzində böyük çətinliklərlə üzləşmiş və bu dövr siyasi proseslər baxımından da mürəkkəb bir dövrü əhatə etmişdir. Həmin dövrün I -ci onilliyi ərzində İlham Əliyevin ölkənin siyasi və iqtisadi həyatında bir sıra məsul vəzifələr daşımasına baxmayaraq, onun uzun illər Ulu Öndərin həyat və iş təcrübəsindən mənimsədiyi, həm də ən yüksək səviyyədə aldığı təhsil sayesində topladığı bilik və bacarığı, siyasi uzaqgörənliyi, prinsipial qətiyyəti, milli dəyərlərimizə sarsılmaz bağlılığı barədə geniş ictimaiyyətə tamlıqla məlum deyildi. Eyni zamanda, qapalı, soyuq təbiəti də yox idi, bu böyük Şəxsiyyətin. Məktəb və iş yoldaşları, müəllimləri, onun təhsil aldığı, eləcə, işlədiyi qurumlarda və kollektivlərdə özünü təkəbbürlü, iddialı aparması halları ilə heç vaxt rastlaşmadıqlarını, əksinə, hər zaman çox ünsiyyətcil, mehriban, sadə təbiətli olduğunu qeyd edirdilər.

Ulu öndərin tövsiyyəsi və xeyir-duası ilə Azərbaycan xalqının yüksək etimadla ölkə Prezidenti seçdiyi İlham Əliyev Ümummilli Liderin vəsiyyətlərini layiqincə yerinə yetirdi, Azərbaycan xalqının ümidlərini doğrultdu. İlk illərdən Ulu Öndərin iqtisadi, siyasi, hüquqi, mədəni, ordu quruculuğunda möhkəm dayaqlar üzərində təməlini qoyduğu işləri O, ləyaqətlə davam etdirdi, beynəlxalq sahədə yeni-yeni uğurlara imza atdı. Məlum oldu ki, artıq oğul

Əliyevdə də ata Əliyevin mühakimə və mübarizə taktikası, problemə yanaşma strategiyası, vətən torpaqlarına və xalqına sonsuz sədaqəti və digər mənəvi genetik dəyərləri nəinki mövcuddur, bu dəyərlər onun həyat tərzinin və fəaliyyətinin başlıca prinsiplərini təşkil edir.

Prezident İlham Əliyev xalqının elə bir oğlu və elə bir şəxsiyyətdir ki, O, Azərbaycan xalqını dünyaya fədakar, sülhsevər, eyni zamanda haqq yolunda hər bir formada mübarizə aparmağa və qalib gəlməyə qadir olan xalq olduğunu əyani olaraq sübuta yetirdi. Bununla yanaşı, O, şəffaf zəkası və açıq siyasəti ilə dünyanın zəhləsini tökən yaltaq, paxıl, xain, tamahgir, torpaq oğrusu olan erməni təbliğatının yalan və böhtanla quraşdırılmış mif dayaqlarını ifşa etdi, yüz illərlə Azərbaycana və azərbaycanlılara qarşı düşmənçilik siyasəti yürüdənlərin davamçıları olan köçəryanları, sarkisyanları, paşinyanları və onların güvəndikləri və məğlubedilməz hesab etdikləri hərbi qüvvələrini diz çökdürdü.

İlham Əliyevin əzmkarlığı, cəsarəti, ən kritik fövqəladə anlarda səbr və təmkin nümayiş etdirməyə qadir olması, yüksək səviyyədə müasirliyə, intellektual biliklərə, xüsusilə beynəlxalq hüququn bütün incəliklərinə malik olması, 27 il müddətində BMT TŞ-nın, icrasını təmin edə bilmədiyi qətnamələrini, beynəlxalq özünümüdafiənin bütün imperativ və fakultativ normalarına riayət etməklə, 44 günlük müddət ərzində Ali Baş Komandan olaraq öz ordusunun gücü sayesində ildırım sürəti ilə icrasını təmin etməsi və haqlı olaraq, düşmənə havadarlıq edənlərə açıqdan-açığa meydan oxuması, onun azərbaycan xalqının Zəfər ta-

rixinə “LİDER SƏRKƏRDƏ” olaraq həkk olunacağına zərrə qədər də olsa şübhə qoymur.

İlham Əliyevin çox nəzərə çarpan, Ulu öndərdən əxz etdiyi ən mühüm keyfiyyətlərdən biri də ilk illərdən fərqli olaraq müharibə dövründə hər kəsin diqqətini cəlb edən və yüksək rəğbət qazanan danışıq üslubu və nitq mədəniyyəti idi. Bəli, düşmən üzərində qələbə qazanılmasında bacarıqla aparılan silahlı müharibə ilə yanaşı, İlham Əliyevin ritorika vasitəsi ilə apardığı müharibənin də rolu danılmazdır. Məhz Liderin nitqləri vasitəsi ilə dünya Azərbaycanı yaxından tanıdı, Azərbaycan isə İlham Əliyevin natiqliyinə daha yaxından bələd oldu. Onun yüksək bacarıqlı nitqinin örnək yeri, əxz etdiyi mənbə isə məhz atası Heydər Əliyevdir. Heydər Əliyevi böyük siyasətçi kimi tanıdan gücləndirən cəhətlərdən biri məhz nitq kommunikativliyi, dinləyicini ifadə etdiyi fikirlərin həqiqiliyinə inandırmaq, cəlb etmə qabiliyyəti idi. Hər kəs, hətta başqa dövlətlərin nümayəndələri bu böyük şəxsiyyətin nitqinə saatlarca qulaq asmaqdan yorulmurdular. Ulu öndər danışarkən ölkənin ən sadə vətəndaşları da onun timsalında özünə güvən yeri görürdü. Onun qəbulunda, yaxud görüşündə olmuş insanların xatirələrində də qeyd olunurdu ki, ünsiyyət zaman ilk dəqiqələrdə keçirdikləri həyəcan çox az zamandan sonra tamamilə yox olur, böyük Liderin simasında qarşı tərəf doğma bir insana təəssüratı yaradırdı.

Dilşünas alimlərin fikrinə görə Heydər Əliyevin nitqlərində nəzərə çarpan başlıca cəhət onun özünəməxsus, H.Əliyev üslubudur. Müşahidələr göstərir ki, H.Əliyevin nitqlərinə təkcə rəsmi üslub nümunəsi kimi deyil, Bu



Heydər Əliyevin zəhmətkeşlərlə görüşü

nitqlərdə müxtəlif üslubların qovuşaraq konkret məqsədə, ideyaya xidmət etməsi özünü göstərir. Burada əsas məqsəd hansı üslubi xüsusiyyətlərdən istifadə edilməsindən asılı olmayaraq fikrin açıq, aydın, inandırıcı şəkildə xalqa çatdırılmasıdır. Məhz ona görə də bu nitqlərdə rəsmi, elmi, bədii, publisistik üslub çalarları bir vəhdət şəklində özünü göstərir.

H.Əliyevin nitqlərində ikinci və ən çox nəzəri cəlb edən xüsusiyyət dəqiqlik, ardıcıllıq, məntiqilik, sabitlik və təmkindir. Bu xüsusiyyətlər birlikdə nitqə bir müdriklik, dahiyanəlik verir, onu dinləyəni inandırır, etimadını qazandırır. H.Əliyevin nitqlərini təkcə linqvistik baxımdan tam şərh etmək qeyri-mümkündür. Bu nitqləri fəlsəfi, psixoloji, siyasi-ictimai, hüquqi, mədəni, məntiqi və s. baxımdan analiz etməklə onların dinləyicilərinə təsir

gücünün mahiyyətini anlamaq mümkün ola bilər.

Bəli, Ulu Öndərin nitq fəaliyyəti barədə deyilən fikirləri tamlıqla İlham Əliyevin nitqi barədə söyləmək olar. Bu dəyərli şəxsiyyət xarici jurnalistlərlə bir üslubda, bir əhval-ruhiyyə ilə danışırdısa, onun çıxışını səbirsizliklə gözləyən xalqla bir başqa tərzdə danışırdı.

Filoloq alim, Rafael Hüseynov "Hər nitqi bir əsər" adlı məqalədə yazırdı: "Prezident İlham Əliyev haçan kürsüdə olubsa, hansı mövzuda danışıbsa, həmişə nitqi parlaq olub, ifadə etdiyi həqiqətlərə, fikirlərinin məntiqi ardıcıllığı, sözlərin, ifadələrin dəqiq seçimi ilə dinləyəni cəlb və heyran edib. Eyni dərəcədə sərbəst danışdığı üç dilin üçündə də eyni səviyyədə -həm azərbaycanca, həm ingiliscə, həm rusca. Lakin Prezident İlham Əliyevin 2020-ci il sentyabrın 27-dən ermənilərin özlərinə xas quldur və terrorçu xisləti ilə Azərbaycana bütün cəbhə boyu növbəti hücuma keçəndən, bunun ardınca şanlı ordumuzun əks həmləylə bir-birinin ardınca müşayiət edilən zəfər marafonunun başlanmasından sonrakı hər çıxışı, hər müsahibəsi, hər müraciəti öz-özlüyündə tarixi bir hadisə, siyasi nitq mədəniyyətinin qızıl səhifələri sayılmalıdır".

Dövlət başçısı güclü nitq yaddaşına malikdir, O, hər zaman hansı şəraitdə, hansı fikri ifadə etdiyini və edəcəyini gözəl xatırlayır. Təsadüfi deyil ki, Ölkə Başçısının nitqlərində tərəddüd yer almadı, qətiyyət Prezidentin nitqlərinə bacarıq qədər mükəmməl bir rəng qatdı. İstər məntiqi ideya baxımından, istərsə də fikri ifadə etmək baxımından yalnız qətiyyət. Digər ölkələrin dövlət başçılarının nitq quruluşunda müşahidə olunan hezitasiya -hmmm, aaaaa

kimi ifadə ünsürləri İlham Əliyevin nitqinə tamamilə yaddır. Cənab Prezidentin nitq oponenti ilə dəyərli cəhətlərindən biri onun demək olar ki, artıq əl hərəkətlərindən də çox az hallarda istifadə etməsidir. Çox hallarda əl jestlərinin iştirakı bəzən nitq müəllifinin özünü daha çox ifadə etməsinin çətinliyində özünü göstərir. İ.Əliyev isə olduqca yüksək nitq vərdişlərinə malik olduğu üçün, hər hansı nitq tərəddüdlərindən, ifadə imkansızlığından uzaqdır.

Söhbət siyasət kimi ciddi və qlobal mövzu ətrafında gedirsə nitqdən olduqca dəqiq faktlar tələb olunur, ölkə rəhbəri nitqində çox məsuliyyətlidir, xüsusilə statistik rəqəmlər bildirərkən dəqiq olmayan rəqəmlərə müraciət etmir. Siyasət mühiti çox mürəkkəb sahə olduğu üçün burada münasibətlərin formalaşması, ünsiyyətin qurulması da çox fərqli bir sistem təşkil edir. Bu çevrə elə psixoloji vəziyyətlər tələb edir ki, bəzən digər məsələlərdə o qədər də məqbul sayılmır. Siyasətdə olur ki, münasibətləri qurmaq, nizamlamaq üçün, bir-birinə rəqib, hətta düşmən olan qüvvələr nitq ünsiyyətinə daxil olmağa, əl verməyə, ardıcıl olaraq hətta gülümsəməyə belə məcbur olurlar.

Müharibə dövründə səslənən nitqlər emosionallığı ilə fərqlənir. Bu məqamlarda ürəkdən səslənən, xalqın mənafeyini, hisslərini əks etdirən hər bir söz, hər bir fikir xalqın hafizəsinə əbədi həkk olur, dillər əzbərinə çevrilir. Təbii ki, övladını itirmiş valideyn qarşısında hər cür nitq gücsüzdür. Lakin böyük natiq-liderlər bu kimi çətin məqamlarda da sözün gücündən istifadə etməyi bacarmalıdırlar. İlham Əliyev bu natiqlik sınağını da ən yüksək səviyyədə yerinə yetirməyi bacardı. İnsanlar doğru yolu ayırd edə bilirdilər.

Övlad itgisi nə qədər acı olsa belə, göz nuru olan övladlarının seçdikləri bu müqəddəs yolu sayğı ilə qəbul etdilər. Ölkə başçısının da gələcəyə ümid dolu sözləri insanlardan itgilər qarşısında sönməməyə, əksinə qürurla durmağa ruhlandırdı. Təsadüfü deyil ki, cənab Prezidentin xalqa müraciətlərində düşmən tərəfə ünvanladığı mesajlar bu gün əhalinin dilində əzbərə çevrilmişdir. İlham Əliyev məhz azərbaycan dilini gözəl bilməsi sayəsində xalqın ürəyinə yol tapa bildi. Ölkə vətəndaşları müharibə dövründə Prezidentin simasında artıq ölkəni idarə edən rəsmi şəxslə bərabər, doğma insan, xalqının yenilməz övladını görürdülər.Təbii olaraq İlham Əliyevin müharibə ilə bağlı nitqlərini və çıxışlarını bütün ölkə əhalisi təqdir etdi.

İlham Əliyevin nitq mədəniyyətinin ən yüksək səviyyədə olduğunu, siyasi və elmi cəhətdən məntiqi dolğunluğunu filoloqlar, politoloqlar və hüquqşünaslar daha aydın müşahidə etdilər. Ali Baş Komandanın Xarici ölkə agentliklərinə verdiyi müsahibələri və beynəlxalq konfranslardakı Qarabağın tarixi, BMT qətnamələrinin icra olunmaması səbəbləri, Ermənistanın işğalçı və təcavüzkar siyasəti və s. tarixi faktların təkzibolunmaz sübutlarla beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılmasına dair çıxışları beynəlxalq hüququn və Azərbaycan diplomatiyasının zirvəsi olmaqla, düşmənin uzun illər dünyada kök salmış anti-azərbaycan təbliğatını darmadağın etdi.

Müharibə dövründəki nitqlərə xüsusi rəng qatan xüsusiyyətlərdən biri xəlqilik və millilikdir. Bu cür nitqlər xalqa daha yaxın, doğma və inandırıcı təsir bağışlayır.Xalq dilində işlədilən frazeoloji vahidlərdən liderin də istifadə etməsi, yəni xalqla xalqın öz dilində danışması təbii ki,



İlham Əliyevin Milli Məclisdə çıxışı

dövlət başçısını da öz vətəndaşına yaxınlaşdırırdı. Bundan irəli gəlir ki, İlham Əliyevin əhali ilə efir ünsiyyəti zamanı istifadə etdiyi bu cür ifadələr hər kəsin dilində əzbərə çevrilmiş, sitat elementi olmuşdu.

İlham Əliyevin nitqinin daha təsirli xüsusiyyətlərindən biri səsindəki inamdır. Natiq dövlət başçısı müharibə dövrünün ən ağır günlərində ölkə əhalisinə ünvanladığı müraciətlərdə yer alan inamı, optimistliyi hər zaman əhalidə qələbəyə inam yaratdı. İ.Əliyevin nitqinin önəmli cəhətləri kimi ölkə vətəndaşlarına müraciətdə xəlqiliyin, xarici jurnalistlərlə müsahibələrdə hüquqiliyin və s.cəhətlərin geniş yer aldığını görürük.

Lakin Liderin nitq potensialının yüksək göstəricisi onun xarici dillərdə də ən mükəmməl səviyyədə danışması.

Dövlət başçısının müxtəlif dillərdə söz ehtiyatı heyrət doğurur. Xarici dildə çıxışlarında belə İ.Əliyev söz tapmaqda hər hansı çətinliklə üzləşmədi. Müsahibələrdə ən mürəkkəb və önəmli məsələ ilə bağlı suallara cavab verərkən o sakit və təmkinlə heç bir nitqi məhdudluğuna məruz qalmadan fikirlərini olduqca aydın, əsaslı şəkildə və dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Onun nitqlərində heç bir sözün yersiz, yaxud başqa sözün yerində işləndiyini sezmirik. Dünya mediası da Prezidentimizin düşmən tərəflə müqayisədə bu sahədə də çox böyük üstünlüyünü müşahidə etdi. Cənab Prezidentin nitqləri müxtəlif istiqamətlərdə və ünvanlarda yayımlandı. Xarici ölkə kanallarına verilən müsahibələr, ölkə əhalisinə ünvanlanan müraciətlər, çağırışlar, müsahibələr bu şəkildə mükəmməl bir tərzdə Azərbaycanın səsini dünyaya çatdırmağa yönəlmişdi.

Müsahibələr ölkə əhalisinin böyükdən kiçiyinədək hamının diqqət mərkəzində oldu. Hər kəsi əksər hallarda düşmən dəyirmanına su tökən, bir çox hallarda münaqişədən geniş təsəvvürü olmayan, intriqant meylli jurnalistlərin qıcıqlandırıcı suallarına verilən kəskin cavablar maraqlandırırdı. Ali Baş Komandanın müharibəylə bağlı müsahibələri 21 əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilə bilər. Müsahibələr ardıcıl, dünyanın ən müxtəlif ölkələrinin, müxtəlif kanalları vasitəsi ilə aparılırdı. Həmin müsahibələri izlədikdə bəzən hansısa ölkəni təmsil edən, erməni tərəfini dəstəkləyən kanalın aqressiyasını, bəzən neqativ münasibətini müşahidə etdik. Lakin qələbəni gözə almış Liderin bu kimi qeyri-adekvat münasibətlər üzərində dayanmadığı aydın hiss olunurdu. İlham

Əliyev əsl lider, əsl diplomat olaraq bu kimi kiçik hisslərə qarşılıq vermək əvəzinə yaranmış imkanlardan istifadə edərək dünya ictimaiyyətinə məsələnin gerçək mahiyyətini - Qarabağ həqiqətlərini, müharibənin səbəblərini, nankor qonşularımızın yersiz tələblərini dünyaya çatdırmağa üstünlük verirdi. Azərbaycan Prezidenti bu müsahibələri özünün real mübarizə və silah üsuluna çevirdi və döyüş meydanında olduğu kimi bu müharibədə də qalib gəldi. Həmin nitqlərdə gerçəklikdən doğan konkretlik, qətiyyət, iradə əsaslı şəkildə yer alırdı. İ.Əliyev müharibə dövründə verdiyi müsahibələrdə öz səriştəsini, yetgin siyasətçi imicini bir daha nümayiş etdirdi. Müasir dövrün uğurlu lider modelini təqdim etdi. Lakin ölkə Başçısı ilə müsahibə aparan bir çox jurnalistlərin səriştəsi və yetginliyi barədə bu sözləri demək qeyri-mümkündür. Ümumilikdə Azərbaycan Prezidenti ilə müsahibə aparan jurnalistlərin bəzilərinin səthi məlumatlara malik olduqları özünü biruzə verirdi. Dağlıq Qarabağ münaqişəsi kimi ciddi bir məsələ ilə bağlı müsahibə aparmaq üçün isə bir sıra jurnalistlərin obyektiv araşdırmalar aparmağa meylli olmaması təəssüf doğururdu.

Jurnalistikaya aid keyfiyyətlərdə qeyd olunur ki, sualların əhatə etdiyi mövzularla bağlı məlumatlı olmaq çox önəmlidir. Eyni zamanda müsahib haqqında daha çox şey bilmək, məlumatlı olmaq müxbirin ən böyük üstünlüyüdür. Yalnız savadlı şəxs informasiyalardan yetərincə istifadə edə və xoş həmsöhbət ola bilər. Çünki jurnalistin dünyagörüşü müsahibin ona olan hörmət və etibarını artırır. Bu hal müsahibədə mühüm önəm kəsb edir. Məcazi mənada da olsa yaxşı deyiblər ki, müsahibə sanki bir dueldir.

Lakin bu, silahların deyil, intellektlərin sözlə döyüşüdür. Burada ya jurnalist qalib gəlir, ya da müsahib. Qələbə qazanmaq isə hansı tərəfin daha hazırlıqlı olmasından birbaşa asılıdır. Lakin İlham Əliyevlə müsahibə aparan bəzi xarici jurnalistlər ya yetərli qədər məlumatlı deyildilər, ya da yetərli qədər bitərəf. Belə ki, verilən suallar bir çox hallarda işğalçı Ermənistanın mövqeyindən verildiyi hiss olunurdu. Bu isə jurnalistikanın əsas şərtlərindən olan neytrallıq prinsipinə zidd olaraq qiymətləndirilir. İlham Əliyev siyasətinə, mövqeyinə və potensialına daha yaxşı bələd olan rus jurnalistikasının nümayəndəsi isə Azərbaycan Prezidentinin bu siyasi qabiliyyətini vurğulamaqdan yan keçə bilməyib, İlham Əliyevin təhsil aldığı ali tədris ocağının məhz Moskva Beynəlxalq Əlaqələr İnstitutu olduğunu və bunun qabarıq şəkildə göründüyünü qürurla qeyd etdi.

İ.Əliyev müsahibələrdə yüksək mədəniyyət və səbr nümayiş etdirirdi. Bütün bu qıcıqlandırıcı, daha "ağıllı" jurnalist görünmək üçün verilən suallara baxmayaraq, Prezident məlumatlandırmaqdan, məqsəd və prinsipləri açıqlamaqdan yorulmurdu. Dinlədikdə bəzi eyni mövqeli ölkələr tərəfindən müsahibə aparan jurnalistlərin sualları da oxşar, bəzən eyni olduğunu görürdük.

Müsahibələrdə bəzən jurnalist etikasına riayət olunmadığı, sual ünvanlandığı şəxsin kimliyi unudulurdu. Son dərəcə ciddi mövzu ətrafında aparılan müsahibələrdə jurnalistlərlər bir çox hallarda sanki ittiham mövqeyi tutması özünü biruzə verirdi. Xalqa açıqlayıcı müraciətlərinin birində Ölkə Başçısı ondan müsahibə götürən bir xarici jurnalistin onunla sanki prokuror kimi danışdığını, onu ittiham etmək cəhdi barədə irad tutdu. Belə hal bir qədər də

onların öz peşəkarlığını şübhə altına qoyurdu. Əl-Ərəbiyyə kanalının jurnalistinin sual zamanı işlətdiyi “hadisələr nəzarətdən çıxır” kimi ifadə səsləndirməsi hansı baxış bucağından deyildiyi məlum deyildi. Nəzarətdən çıxma hansı qüvvələrin nəzarəti nəzərdə tutulması da jurnalistin tam özünün ehtimal etdiyi məsələdir. Eyni zamanda “Dağlıq Qarabağda müharibə yenidən gündəmə gəlib” fikrini ifadə edən jurnalist anlamalı idi ki, bu münaqişə onun üçün bir xarici jurnalist olaraq yenidən gündəmə gələ bilər, Azərbaycan üçün isə uzun illər gündəmdə olan problem olaraq qalırdı.



Əl-Cəzirə telekanalının irəli sürdüyü sual-“Siz Ermənistanı bu müharibəni, bu münaqişəni başlamaqda günahlandırırsınız. Bir çoxları iddia edə bilər ki, Ermənistan öz cari ərazisini və 2018-ci ildəki məxməri inqilabdakı qələbəni nəzərə alaraq münaqişənin başlamasına risk etməz-



di. Buna Siz nə deyirsiniz?"-sual cavab tələb edən sualdan daha çox, heç bir əsası olmayan fikir ifadə etməsi ittiham etmə kimi məzmun daşıyır.

Digər bir sualdakı ifadə tərzinin də qıcıqlandırıcı və provakasion olması təəccüb doğurur -"Siz atəşkəslə bağlı beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymamaq seçimini edirsiz?" Və digər sualda isə məntiqə zidd bir fikir səslənir:-"Sonuncu münaqişəyə baxdıqda, Azərbaycan Ordusu cəbhədə müəyyən irəliləyişə nail olub və xüsusilə Füzuli rayonu ətrafında bəzi kəndləri geri alıb. Bu, o deməkdir ki, Azərbaycan geri qaytardığı həmin ərazilərdən geri çəkilməyə hazırlaşmır?". Bu kimi sualı verən jurnalistin məntiqi düşüncəsi şübhə altına düşə bilər. Oxşar suallarda işğala məruz qalmış ölkə ilə işğal etmiş ölkə arasında fərqi görmək istəməməsi da təəssüflə qarşılanırdı. İlham Əliyevlə müsahibə aparan bəzi xarici ölkələrin jurnalistlərinin onun əhatəli hazırlığı barədə məlumatsızlıqları nəzərə çarpırdı. Qərəzli və absurd sualların qarşısında belə narahatlıq və ya hiddət göstərməyən Azərbaycan



Prezidenti şübhəsiz ki, qarşı tərəfdə daxilən rəğbət yaradırdı. Müsahibələr arasında Türkiyə və Rusiya jurnalistlərinin müsahibələri səmərəli mahiyyəti ilə fərqlənirdi. Həmin müsahibələrdə jurnalistlərin daha məlumatlı olduqları problemlə bağlı daha neytral və optimal sualları vermələrindən məlum olurdu. Problemi dərinliyi ilə dərk edən bu ölkələrin jurnalistlərinin Liderimizin şəxsiyyətinə xüsusi hörmət və rəğbəti də aydın sezilirdi.

Ali Komandan verdiyi bu müsahibələrlə əslində bütün dünyanın fikrini tam dəyişmiş oldu. Bəzi ölkələrin xüsusi öyrədilmiş, əvvəlcədən planlaşdırılmış suallarla dolu hücumlarına baxmayaraq, Prezidentimiz məqsədinə nail oldu, dünyanın böyük bir hissəsinin rəğbətini qazandı. Bununla da bərabər mükəmməl nitqi, təfəkkür və məntiq potensialı Prezidentimizi dünya siyasi səhnəsində ən uca kürsüyə qaldırdı. Şərhlərinin zənginliyi və əhatəliliyi ilə Baş Komandan dünyaya siyasi nitqin ən uğurlu nümunəsini təqdim etdi. Cənab Prezidentin müsahibələri tam bir



bilgi mənbəyi idi, nitqində irəli sürdüyü faktlar, arqumentlərin zənginliyi jurnalistlərin ən yüksək şəkildə bilgilənməsinə səbəb olurdu. Baxmayaraq ki, jurnalistlər ardıcıllıqla hazırladıqları müsahibələrdə daha çətin, gərginlik yarada bilən suallar verməyə cəhd etsələr də, Ali Baş Komandanın polad məntiqi, dəmir yumruğu qədər güclü oldu. Onun faktları analiz etmək qabiliyyəti və təqdimatı həmin jurnalistləri tərk silah etdi.

Dünya siyasətində uğursuz nitq nümunəsi göstərən dövlət başçıları çox olmuşdur. Ən aparıcı ölkələrin siyasi liderlərinin bəzən səriştəsiz və ya etik göstəricilərdən uzaq davranışları yaddaşlarda qalmışdır. Yüksək postlara nail olmuş siyasət adamları analoji situasiyalarda gərginliyə, sualların qıcıqlandırıcı mahiyyətinə dözməyərək təhqirə, qeyri adekvat münasibət nümayiş etdirərək, dialoqları yarımçıq qoymuş, bununla da dünya ictimaiyyətinin qınağına tuş gəlmişlər. Fransa prezidentlərindən biri postuna hələ yeni qədəm qoyduğu ilk vaxtlarda qadın jurnalistin bəzi qıcıqlandırıcı suallarına cavabında onu təhqir etməsi,



birbaşa yayımlanan verilişdə dialoqu yarımçıq qoyub getməsi, onun fəaliyyətinə başladığı ilk günlərdə təkcə fransızların arasında deyil, bütün dünyada ikrah qazandırdı. Olaydan bir qədər sonra prezidentin buna dərin təəssüfünü bildirməsi onun haqsız olmasının sübutu idi. Lakin olay artıq insanların beynində o şəxs haqda təəssüratını yaratmışdı. Görünür həmin  şəxsin prezident postuna yiyələnməsinə baxmayaraq, hələ kifayət qədər siyasi etika və professionallığa yiyələnə bilməmişdir.

Əslində bir çox xarici ölkələri təmsil edən jurnalistlərin heç də gərəkli obyektivliyə, jurnalistika prinsiplərinə riayət etdiyini söyləmək olmaz. İşğalçı ölkənin təcavüzkar mövqeyini müdafiə etməyə yönələn suallar verilməsi, əksər hallarda,əhali arasında jurnalistin mənsub olduğu ölkənin, agentliyin münasibəti kimi qəbul olunurdu:

“-Əvvəllər soyuq müharibə olmuş bu münaqişə indi Azərbaycanı və Ermənistanı alova bürüyüb. Bu müharibə keçmişdən qaynaqlanır və indi artilleriya mərmilərinin səsi



eşidilir. Dağlıq Qarabağ yenidən gündəmə gəlib, müharibə Qarabağdan və beynəlxalq tərəflərin müdaxilələrindən kənara doğru genişlənir, regional müharibəyə çevrilməklə bağlı xəbərdarlıqlar mövcuddur. Münaqişənin həlli yolu, beynəlxalq müdaxilələr bizim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə müzakirəmizin mövzusu olacaq".

Təqdimatdan açıq-aydın anlaşılır ki, müsahibənin aparıcısı Dağlıq Qarabağ problemi barədə səthi biliklərə malikdir. "Soyuq müharibə" adlandırdığı münaqişədə hətta "atəşkəs" adlandırılan dövrdə ardıcıl olaraq azərbaycanlı əsgərlərin, zabitlərin, hətta dinc sakinlərin öldürüldüyündən, ardıcıl olaraq erməni tərəfin atəşkəsi pozduğundan ya xəbəri yoxdur, ya da özünü xəbərsiz kimi göstərir. Daha sonra həmin aparıcının verdiyi suala nəzər salaq:

"-Prezident Əliyev, açıq-aşkar görünür ki, Azərbaycan və Ermənistan arasında hadisələrin gedişi nəzarətdən çıxır, bu hərbi əməliyyatların genişlənməsinin hər hansı bir həddi varmı?"

Sualda məsələnin mahiyyətini bilmədən Azərbaycan Prezidentini müharibənin aparılmasında və regionda yayılmasında təşəbbüskar kimi göstərmək meyli sezilir. Lakin ölkə Başçısı bu cür suallarda gizlənən eyham və qərəzə əhəmiyyət verməyərək ən dolğun cavablandırmaları təmin edirdi.

Digər suallar da heç də birmənalı deyildi: -"Prezident Əliyev, əgər Ermənistan Sizin təqdim etdiyiniz bu təşəbbüsə cavab verməsə, bu eskalasiya davam edəcək və mülki şəxslərin həyatı üçün qorxular olacaq və bunun bədəli çox yüksək olacaq";

"-Lakin Prezident Əliyev, "Əl-Ərəbiyə vasitəsilə Ermənistan prezidenti danışıqlar haqqında danışdı və o dedi ki, münaqişə danışıqlar yolu ilə həll olunmalıdır. Siz buna nə cavab verərdiniz?".

Müsahibələrin birində jurnalist tərəfindən verilən cavab: -Bəziləri hesab edir ki, bu böhran genişlənsə, sizin torpaqlarınız savaş meydanına çevriləcək və bu, sizin xeyrinizə olmayacaq. Bu, bir növ sizin torpaqlarınızda marionetlər müharibəsinə bənzəyir. Siz qorxmursunuz ki, bu regionlar arasında mübarizə olar?

Prezidentin dolğun cavabı: -Xeyr, marionetlər müharibəsi yoxdur. Azərbaycan müstəqil ölkədir. Bizim müstəqilliyimiz bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Azərbaycanın beynəlxalq arenada çox güclü mövqeyi var. Mən bizim nailiyyətlərimizlə bağlı sizə cəmi iki misal gətirə bilərəm. Bir neçə il bundan əvvəl 155 ölkənin dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına se-

çildi. Bu bizim müstəqil siyasətimiz sayəsində və ölkəmizin beynəlxalq ictimaiyyətin çox məsuliyyətli üzvü olması sayəsində oldu. Keçən il biz Bakıda 120 ölkənin iştirakı ilə Qoşulmama Hərəkatının sammitini keçirdik. Və Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürdü. Bu şərəfli vəzifə 120 ölkənin yekun qərarı ilə Azərbaycana həvalə oldu. Marionet ölkə bu dəstəyi ala bilərmi? Marionet ölkələr miskindir. Heç kim onlara diqqət yetirmir. Bu gün Azərbaycanın sözü dünya üçün əhəmiyyət kəsb edir. Bu gün regionda Azərbaycan olmadan heç bir siyasi, iqtisadi, enerji, nəqliyyat layihəsi həyata keçirilə bilməz və bizə marionet deyənlər özləri marionetdir. Qoy onlar güzgüyə baxsınlar. Onlar ölkələrə yuxarıdan aşağı baxmağa öyrəşiblər. Biz belə vəziyyətdə deyilik. Biz öz ləyaqətimizi müdafiə edirik. Dünyada heç bir ölkənin bizim işlərimizə müdaxilə etməyə haqqı yoxdur və onlar bunu başa düşməlidirlər. Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın maraqlarına xidmət edir. Azərbaycanın bir milyon insanı öz doğma torpaqlarına qayıdacağı vaxtı gözləyir və biz hökumət olaraq bunu təmin edəcəyik. Biz insanlarımızı öz vətəninə qaytaracayıq, şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik. Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq.

-Prezident Əliyev, Avropa deyir ki, sizinlə Ermənistan arasında olan böhranın hərbi həlli yoxdur. Siz Avropanın bu mövqeyinə necə cavab verərdiniz?

-Mən çox eşidirəm münaqişənin hərbi yolla həlli yoxdur. Birincisi, mən bununla razı deyiləm. İkincisi, yaxşı,

əgər hərbi yolu yoxdursa, bizə qeyri-hərbi həll yolu verin, bizə diplomatik həll verin. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edin. Onlar dünyanın ən ali beynəlxalq qurumu tərəfindən qəbul olunub və bu qətnamələr erməni qoşunlarının işğal olunmuş ərazilərdən heç bir şərt olmadan çıxarılmasını tələb edir. Biz 1992-ci ildən bu yana danışıqlar aparırıq və bu 28 il ərzində hər hansı diplomatik həll olubmu? Vasitəçilər və ya digər beynəlxalq təşkilatlar bizə siyasi həll təqdim ediblərmi? Xeyr. Onlar bu münaqişəni dondurulmuş etdilər. Lakin o dondurulmuş deyil. Biz nə qədər gözləməliyik? Daha 30 il? Ermənilər bizim torpağımızda oturmağa və bizim insanlarımıza öz evlərinə geri qayıtmağa icazə verməməyə nə qədər davam edəcəklər? Əgər beynəlxalq ictimaiyyət beynəlxalq qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək. Bu da baş verir.Mən bir daha münaqişənin həllinə kömək etmək istəyən bütün tərəflərə, həmçinin Ermənistan rəhbərliyinə deyirəm ki, nə qədər gec deyil işğala son qoyun. Bəyanat verin ki, siz həll prinsiplərini qəbul edirsiniz, Azərbaycanın ərazi bütövlüyünü qəbul edirsiniz, işğal olunmuş bütün ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verəcəksiniz və Azərbaycan ərazisində "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir "Qarabağ Ermənistan deyil" və onda biz dayanarıq".

Bu suallarda heç bir neytral məlumatlandırma, araşdırma təşəbbüsü müşahidə olunmur. Əksinə, suallar sanki bir erməni tərəfin sualları kimi görünür. Lakin Preziden-

tın dolğun və əsaslandırılmış cavabları bu kimi " müdafiəçi"ləri ifşa edirdi.

"Qarabağ sizin üçün bu qədər önəmlidirmi?" sualı isə jurnalistin mövzu haqqında məlumatsızlığı ilə bərabər etikadan nə dərəcədə uzaq olduğu aydın olur.

Dövlət Rəhbərinin son-qələbə çıxışı da ölkə əhalisi tərəfindən xüsusi olaraq müsbət emosialarla qarşılandı, bu isə təbii idi. Cənab Prezident bu çıxışında qələbə sevincini xalqla, məhz öz xalqı ilə bölüşməsi gecə saatlarına təsadüf etdi. Azərbaycan bu zəfər xəbərindən sonra qalib bir ölkə olaraq yuxudan oyanacaqdı, qürurlu, xoşbəxt, özgüvənli, gələcəyə inamla.

-Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq-Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan Baş Naziri imzalamışlar. (Bəyanatın bəndləri səsləndirilir.)

-Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Bu bəyanatın tarixi əhəmiyyəti var. Bildirməliyəm ki, bu bəyanat videokonfrans şəkilində imzalanmışdır və ilk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyənat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyənatı videokonfrans formatında Rusiya Prezidenti və

mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilib-dir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib, Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar.

Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki, hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralar-dan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalaya-caq. Öz xoşu ilə bunu imzalamır. Bunun-dəmir yumruğun hesabına imzalayır.

Bu bəyənat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyənatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur”.

Azərbaycan söz sənətinin məskəni olmuşdur. Azərbaycan sözə hər zaman qiymət verən xalq olmuşdur. Bu torpaq nizamilər, fizulilər, nəsimilər, vurğunlar, vahab-

zadələr yetişdirmiş torpaqdır. Bu xalqın qələbəsində də sözün qüdrəti hiss olunmalı idi. Bu dəfə isə sözün qüdrətindən şairlərimiz, yazarlarımız deyil, dövlət Başçımız- Liderimiz istifadə etdi. Dağlıq Qarabağ müharibəsində söz müharibəsi də, rəhbərinin dili ilə aparılmasaydı bu qələbə solğun kimi görünərdi, sevinsək də, bu qədər mənəvi doyum duyğusu almayacaqdı. İlham Əliyev söz qüdrəti ilə də qələbəni xalqına yaşatmağa nail oldu. Rəhbərimizin "Əziz Şuşa biz qayıtdıq! Əziz Şuşa sən azadsan! Əziz Şuşa biz səni dirçəldəcəyik!" kimi ifadələri onu canlı olaraq eşidənlərin heç zaman qulaqlarından getməyəcəkdir. Bu müraciətlər artıq bir daha hansısa yadelliyə yenilməyə imkan verməyəcəkdir. Bu şüarlar Azərbaycan adı ilə eyni mənalı sözlər silsiləsinə çevriləcək və tarixə həkk olunacaqdır..

Əvvəldə qeyd etdiyimiz fikrə qayıdırıq-Tanrı bizi bu bəladan qurtarmaq üçün, Sizlərlə bir dövrdə yaşamağı, Zəfər qələbəsinə birgə sevinməyi nəsib etdi. Çox təşəkkür edirik Sizlərə, - Azərbaycan xalqının sevimlisi və ümidgahı, Sizin silahdaşınız, azərbaycan qadınının simvolu Mehriban xanıma və Sizə, cənab Prezident! Nə yaxşı ki, bu çətin dönəmin Dövlət başçısı Siz oldunuz, - Dahi Heydər Əliyevin davamçısı, nə yaxşı ki bizimlə oldunuz, inşallah, uzun illər olacaqsınız!!! Özünüz demişkən "Sözümüz əməlimizdir!".

Azərbaycan apardığı ədalətli müharibə ilə bütün dünyada ədaləti bərpa edən yeni müharibə modeli yaratdı. Dünyanın bütün xalqları, 21-ci əsrdə İlham Əliyevin simasında müasir siyasi lider modelini gördü, dövrünün xalqına dövlətinə torpağına bağlı Ali Baş Komandanını tanıdı...

Ölkə Başçısı, "Qanlı yanvardan, Xocalı soyqırımından sonra ürəkdən sevinə bilməyən xalqına, verdiyi qurbanların ağırlığına baxmayaraq sevinmək öyrətdi. Özü bizimlə sevindi, bütün rəsmi çərçivələri yararaq, xalqı ilə bərabər yaşadı, sevinc hisslərini. Bəzən kövrəldi, göz yaşlarını saxlamadı. Bəzən isə siravi vətəndaş kimi gülüşü ilə belə bizimlə oldu. Çünki o da bizlərdən birimizdir. Çünki o da "20 Yanvar", "Xocalı", "20 noyabr-Çaykənd" faciələrinə bizim qədər yanmışdı. O da bizimlə bərabər Şuşa, Kəlbəcər, Laçın və s. yurd yerlərimizin itkisini yaşamışdı. Ürək dolu sevinmək, içdən gülmək onun da hamıdan çox haqqı var. Ali Baş Komandanımız üçün yalnız ölkəsi və xalqının mənafeyi önəmli idi. O, heç vaxt bəzi ölkələr kimi haqqa-ədalətə sığmayan siyasət yürütməmişdi. Təzyiqlərdən çəkinərək Qarabağdan əl üzməmişdi.

...Artıq müharibənin ağır, gərgin günləri geridə qalmışdır. Uzun illər üzərimizdə ən ağır yük olaraq qamətimizi əyən, hələ də davam edəcəyini düşündüyümüz ədalətsizlik nəhayət ki, sona çatmışdır. Bu Qələbə Zəfərini bizə Azərbaycan xalqının mərd oğulları -Yenilməz Sərkərdə İlham Əliyevin Komandanlığı altında ölümün gözünün içinə Şəhidlik zirvəsindən baxaraq Yalnız Zəfər Uğrunda irəliləyən Azərbaycan ordusunun əsgərləri nəsib etdi.

O günlərin acılarından, eləcə də sevincindən vətən torpaqlarını öz qanı bahası ilə geri qaytaran oğullarımızın əfsanəvi qəhrəmanlığından, xalqımızın dünyaya nümunə olacaq birlik əzmindən bədii və tarixi əsərlər yazılacaq, filmlər çəkiləcək, hər bir qazimizin adı, şəhidimizin xatirə-

si əziz tutulacaq, əbədiləşəcək və heç zaman unudulmayacaq.

Bu günlərdə də Azərbaycan xalqının gələcək xoşbəxtliyi naminə mübarizəsini davam etdirən Azərbaycanın yeni tarixini yazmış əvəzolunmaz Liderimiz və müasir ordumuzun yenilməz sərkərdəsi İlham Əliyevin Qəhrəmanlıq salnaməsi gələcək nəsillərə, eləcə də müasir dünya ölkələri və liderləri üçün örnək olacaqdır.

*Qeyd: Məqalədə Ekspert - linqvist Almaz Bayramovanın elmi fikirləri nəzərə alınmışdır.*

AZƏRTAC
18 oktyabr 2021-ci il
İKİ SAHİL
19 oktyabr 2021-ci il
RESPUBLİKA
2 noyabr 2021-ci il

*Vicdanlı və halal zəhmətdən yayınan, tüfeyli həyata, alkoqol içkilərə, narkotik vasitələrə qurşanan, bir sözlə, tüfeyli həyat tərzinə meyilli olan insanlar bəzi hallarda fərqinə varmadan neqativ təsirlərin hədəfinə çevrilirlər. Təəssüf ki, üzərinə düşən mühüm vəzifələrin öhdəsindən gələ bilməyən bir sıra laqeyd və səriştəsiz məmurlar da bu kimi zəif iradəli və səbatsız ünsürlərin muzdlu "xidmətindən" istifadə etməklə saxta dəlillər və sübutlar toplumu əsasında, təqsirsiz insanları ittiham edir, barələrində həbs qəti imkan tədbiri seçməkdən belə çəkinməyərək vicdansızcasına "uğurlara" nail olmaga cəhd edirlər.*

# ETİRAF

Xətai rayon prokurorluğundan iki yeniyetmənin ağırlaşdırıcı hallarda Bakının Əhmədli qəsəbəsində Olqa və beş yaşlı qızı Nataşanın yaşadıqları mənzildə zorlanması və öldürülməsi cinayətini törətdiklərinə görə ittiham olunmasına dair cinayət işi ittihamnamə təsdiq edilib məhkəməyə göndərilməsi üçün aidiyyəti üzrə Bakı şəhər prokurorluğuna daxil olmuşdur. Cinayət işi İstintaqa nəzarət şöbəsi tərəfindən öyrənildikdən sonra təsdiq olunması üçün təqdim olunarkən həbsdə olan təqsirli şəxslərin valideynlərinin şikayətləri əsasında işin materialları bilavasitə tərəfimdən öyrənildi. İşin ibtidai istintaqı zama-

nı yol verilmiş prosessual nöqsanlar, xüsusilə sübutların toplanması və obyektivliyində yaranan şübhələr həmin iş üzrə tərtib olunmuş ittihamnaməyə imza atan rayon prokurorunun, müstəntiqin və şəhər prokurorluğunun aidiyyəti əməkdaşlarının iştirakı ilə cinayət işini müzakirəyə çıxarmağa vadar etdi. Müzakirə zamanı elan olunmuş ittihamın mötəbər sübutlara əsaslanmadığı barədə fikirlər üstünlük təşkil etsə də, rayon prokuroru elan olunmuş ittihamın əsaslı, toplanmış sübutların obyektiv olması mövqeyini müdafiə etməklə müzakirə iştirakçılarını inandırmaq məqsədilə cinayətin iş üzrə həbsdə saxlanan yeniyetmələr tərəfindən törədildiyini bir daha təsdiq etdi.

Elan olunmuş ittihamın obyektiv sübutlara söykənmədiyi, iş üzrə aparılan istintaq hərəkətlərinin yalnız rayon polis şöbəsinin səthi tərtib olunmuş və istintaq yolu ilə lazım olan səviyyədə yoxlanılmamış məlumatları əsasında keçirildiyi, təqsirləndirilən şəxsləri zərərçəkmişlərin yaşadığı evin girişində gördüyü barədə yalnız bir nəfər şahidin mustəntiq tərəfindən səthi dindirildiyi, maddi sübut qismində işə əlavə olunmuş zərərçəkmişin barmağından çıxarılmış üzüyün istintaqın əvvəlində alınmış ifadələrdəki əlamətlərlə eyniliyi, eləcə də təqsirləndirilən şəxslərin etiraf ifadələrinin polis şöbəsində alınmış izahatlarla sözbə- söz təkrarı kimi şübhə doğuran xüsusatlar ilk növbədə təqsirləndirilən yeniyetmələrlə görüşmək, onların psixoloji və fiziki durumları ilə maraqlanmaq, elan olunmuş ittihama münasibətlərini dinləmək və bundan sonra iş üzrə materialları təhlil etməklə qiymətləndirmə aparılması zəruriliyini tələb edirdi.

Bayıl istintaq təcridxanasında qəbul etdiyim yeni-yetmələrin hər ikisinin xarici simalarından qorxu içində olduqları açıq-aydın görünürdü. Birinci qəbul etdiyim yeniyetmə ilə ünsiyyət yaratmaq məqsədilə onun ailə tərkibi, yaşam tərzi, məşğuliyyəti, milli mənsubiyyəti və digər sosial göstəricilərilə maraqlandım. İttiham olunduqları cinayəti hansı şəraitdə törətdikləri barədə suala qorxunc baxışlarla qısaca olaraq,"Qapını döyüb mənzilə daxil olduq, orada yaşayan qadını və uşağını öldürüb aradan çıxdıq,"-dedi. Azyaşlı zərərçəkmişin, onlardan hansı biri tərəfindən zorlandığı barədə verdiyim suala o, əvvəlcə susdu, gözləri doldu, özünü saxlaya bilmədi, bədəni bütünlüklə titrəməyə başladı. Nə isə demək istədi, lakin dili-dodağı söz tutmadı. Birdən hönkürtü ilə ağlamağa başladı. Bir qədər sakitləşdikdən sonra özümə qarşı onda inam yaratmaq məqsədilə Bakı şəhər prokuroru vəzifəsini icra edən və istintaqa, eləcə də polis orqanlarının fəaliyyətinə prosessual nəzarəti həyata keçirən şəxs olduğumu və valideynlərinin şikayətləri əsasında onları qəbul etdiyimi nəzərə çatdırdım. Bir daha iş üzrə əvvəl verdiyim suala qayıtdım. O, təkrar ağladı və polis rəisinə, cinayəti dostu ilə birgə törətdikləri barədə izahat verdiyini və ona heç vaxt izahatını danmayacağı barədə söz verdiyini bildirdi. Belə olan təqdirdə izah etdim ki, barələrində olan cinayət işi rayon prokurorluğundan və polisindən Bakı şəhər prokurorluğunun sərəncamına keçib. O, artıq polis rəisi ilə görüşməyəcək. Ona görə də yalnız həqiqəti danışmaq tövsiyə olunur. Bundan sonra, yenə də tam etibar etmədiyini biruzə verərək, lakin, qorxaq baxişlarla onun

bu cinayətdən xəbəri olmadığını, cinayəti qonşuluqda yaşayan dostluq etdiyi şəxslə birlikdə törətmələri barədə vermiş olduğu ifadələri polis şöbəsində ona və dostuna ağır işgəncələr tətbiq etməklə zor gücünə yazdırdıqlarını bildirdi.

İkinci təqsirləndirilən şəxslə də aparılan söhbət zamanı təxminən eyni vəziyyət, oxşar münasibət, yenə də işgəncə və diktə olunmuş izahatlar, polis şöbəsində onlara işgəncə tətbiq edən polis işçilərinin nəzarəti altında prokurorluğun müstəntiqi tərəfindən tərtib olunmuş dindirmə protokolları və s....

Beləliklə, iş üzrə tərtib olunmuş ittihamnamə tərəfimdən ləğv edilərək, əlavə istintaq aparılmasını bilik və bacarığına özüm qədər inandığım, şəhər prokururorluğunun baş müstəntiqi Aydın Əliyevə həvalə etdim. Aparılacaq istintaq tədbirlərinin məntiqli, ardıcıl plan əsasında, bilavasitə özümün iştirakı ilə aparılması barədə göstəriş verdim. İlk növbədə cinayəti törətməkdə ittiham olunan şəxslər barədə ifadəsi alınmış Dimitri adlı şəxsi dəvət etdik. Harada yaşaması və hər hansı işlə məşğul olub-olmaması barədə suallara verdiyi cavablardan məlum oldu ki, o, Xətai rayon polis şöbəsinə yaxın ərazidə yaşayır, konkret iş yeri yoxdur. lakin polis şöbəsində bir neçə “yaxşı” insanlar var ki, ona yardım edir, o da bunun müqabilində onlara köməklik göstərir, hal şahidi kimi iştirak edir, lazım gələndə şahid kimi ifadə verir. Bir neçə ay əvvəl Əhmədlidə rus qadının azyaşlı qızı ilə birgə öz mənzilində öldürülməsi faktı ilə bağlı verdiyi ifadəni xatırlayırmı?, sualına cavab olaraq, bu hadisə barədə eşitdiyini, lakin han-

sı məzmunda ifadə verdiyini xatırlamadığını bildirdi. Belə olan təqdirdə iş üzrə onun adından yazılmış və imzalanmış ifadə, nəzərdən keçirməsi üçün ona təqdim olunur. O, ifadəni nəzərdən keçirib, həmin cinayəti törətmiş yeniyetmələri xatırladığını dedi və onları ona polis şöbəsində göstərib həmin cinayəti törədən şəxslər olduqlarını bildirmişdilər, "Diqqətlə" baxmağımı və yadda saxlamağı tapşırmışdılar". Onun adından izahat yazıb imzalatdıqdan sonra polislərdən birisi onu hadisə baş verən binanın qabagına apardığını və ona göstərdikləri uşaqları hadisə baş verən gün, gecə vaxtı həmin evin blokunun girişində gördüyünü təsdiq etməsini xahiş etmişdilər. Əslində isə hadisənin hansı gün və saatda baş verməsi barədə məlumatı olmamış və uşaqları əvvəllər görməmiş və tanımamışdır. Polis əməkdaşlarının sözündən ona məlum olmuşdur ki, həmin uşaqlar binanın 1-ci mərtəbəsində yaşayan qadını və az yaşlı qızını öldürüblər, cinayəti törətməyi etiraf ediblər və həbs olunublar. Bundan sonra O polis işçilərinə inanıb tərtib etdikləri izahata imza atıb.

Aparılmış əməliyyat və istintaq tədbirləri nəticəsində maddi sübut qismində işə əlavə olunmuş üzüyün, yeniyetmələrin həbsindən sonra "Bakı "univermağının yanında yerləşən, "Aynur" məişət evinin alt qatında yerləşən zərgərlik emalatxanasından satın alındığı da təkzibolunmaz sübutlarla , o cümlədən satıcı ilə aparılan müvafiq istintaq hərəkətləri ilə tam təsdiqini tapdı.

Müqəssir qismində iki gəncin şübhə doğuran ittihamlarla həbsdə saxlanması narahatçılıq doğururdu. Ona görə də ilk növbədə onların dindirilməsi və tezlik-

lə, barələrində qüvvədə olan saxta ittihamla bağlı həbs qəti imkan tədbirinin ləğv olunmasına dair qərar qəbul edilməsi zəruri idi. Görünürdü ki, Xətai rayonunun həmin cinayəti törədən şəxslərin müəyyən edilməsi ilə məşğul olan polis əməkdaşları tələskənliyə və professionallıqdan kənar qanuna zidd üsul və metodlara yol verərək əsl cinayətkarları müəyyən etməkdə bilik və bacarıqlarına güvənmədiklərindən, ağır cinayətin açılması barədə hesabat vermək naminə ibtidai istintaqın başlangıcında şübhəli şəxs qismində tutduqları yeniyetmələrdən hədə-qorxu və fiziki işgəncələr tətbiq etmək yolu ilə cinayətin onlar tərəfindən törədilməsi barədə etiraf ifadələri alınmasına nail olmuşdular. Bundan sonra elan olunmuş ittihamın daha inandırıcı olması barədə fikir formalaşdırmaq məqsədilə üzərində cinayətin izlərinin qalması ehtimalı olan zərərçəkmişlərə məxsus paltarların qanuna uyğun qablaşdırılmamasından sui-istifadə edərək mikrohissəciklərin, qan nümunələrinin təqsirləndirilən şəxslərin paltarlarında aşkar edilməsi kimi saxta sübutlar əsasında ittiham verilməsinə süni əsaslar yaratmaqla, faktiki cinayəti törədən şəxsləri müəyyən etmək kimi birbaşa vəzifələrindən yayınmışdılar.

Əlavə istintaqın nəticəsi şübhəsiz ki, iş üzrə biri digərini təkzib edən halların aydınlaşdırılması ilə bağlı idi. Cinayəti törədən şəxslərin müəyyən edilməsi ümdə vəzifə olaraq qarşıda dururdusa, cinayət hadisəsi ilə heç bir faktiki əlaqəsi olmayan iki gəncin təqsirsizlik prezumsiyasına zidd olaraq həbsdə saxlanmasının qarşısının alınması daha mühüm əhəmiyyət kəsb edirdi. Məsələnin mürəkkəbliyi onunla

bağlı idi ki, əsl cinayətkarlar müəyyən edilmədən həbsdə olan yeniyetmələrin azadlığa buraxılması tərəfimdən subyektiv mövqe nümayiş etdirmək kimi yanlış təsəvvür yarada bilərdi, xüsusilə saxta sübutların keçərli olmasında maraqlı və israrlı olan ideya "müəllifləri" nin və icraçı qüvvələrin mövcud olduğu bir şəraitdə.

Cinayət işinin materialları öyrənilərkən iki nəfər şəxsin barəsində daxil olmuş, səthi tərtib olunmuş qısa bir məlumat diqqətimi xüsusilə cəlb etdi.

Müstəntiq Aydın Əliyevin bilavasitə rəhbərliyi və nəzarəti altında həyata keçirilən Əməliyyat tədbirləri nəticəsində yaxın evlərin birində yaşayan ailələrdən iki nəfərin hadisədən bir neçə gün sonra yoxa çıxması müəyyən edildi. Məlum oldu ki, onlardan biri Laçın rayonu ərazisində yerləşən kəndlərinə gedib, nə vaxt qayıdacağı bilinmir. Digəri isə Leninqrad şəhərinə, qohumlarının yanına uçub. Geriyə biletinin tarixini də dəqiqləşdirmək mümkün olur. Hər iki şəxsin, cinayət aşkar edildikdən sonrakı ərəfədə konkret məqsəd olmadan müxtəlif istiqamətlərə səfər etməsi maraq doğurmaya bilməzdi. Hərçənd ki, istintaqa o da bəlli idi ki, həmin şəxslər biri-biri ilə yaxın münasibətdə olmaqla axşamlar, bəzən gecədən keçmişə qədər tez-tez zərərçəkmişlərin evlərinin qarşısında görüşüb söhbət edərlərmiş. İş üzrə müqəssir qismində cəlb olunmuş yeniyetmələrin həmin ərazidə yaşayan yaxın qohumlarının, qonşularının cinayət işinin materiallarına əlavə olunmuş ifadələri də maraq doğururdu. Lakin bu məlumatların artıq yeniyetmələrə ittiham elan olunduqdan, onların həbsindən sonrakı müddətdə, vali-

deynləri tərəfindən övladlarının əsassız və qanunsuz ittiham olunmaları barədə müxtəlif hakimiyyət və dövlət orqanlarına çoxsaylı müraciətləri və şikayətlərindən sonra aşkara çıxmasına baxmayaraq hər cəhətdən daha inandırıcı görünən bu versiyanı işləmək əvəzinə, əslində heç bir dolğun və mötəbər dəlillərə və sübutlara əsaslanmayan, elan etdikləri ittihamı daha da bərkitmək məqsədilə, alqı-satqı yolu ilə əldə olunmuş üzüyü "maddi sübut" qismində işə əlavə etmişlər.

Beləliklə, Leninqraddan gözlənilən şəxsin qayıdacağı günə hələ on gündən də çox qalmışdı. Digərinin isə rayondan qayıtma vaxtını çox güman ki, heç onun özü də bilmirdi. Həbsdə qalmaqda davam edən biçarə yeniyetmələrin səhhəti və saxlanma şəraiti nəzarətdə idi. Ona görə də yaranmış vəziyyət təxirəsalınmaz tədbirlərin görülməsini tezləşdirməyi tələb edirdi. Bu məqsədlə Aydın Əliyevdən Laçın rayonuna ezam olunmaq üçün etibarlı əməliyyatçıların siyahısını təqdim etməyi xahiş etdim. Məqsədim istintaq üçün maraq kəsb edən şəxsi, onun üçün maraq doğuran tamamilə başqa bir bəhanə altında Bakıya gətirmək idi. Bir neçə dəfə əməliyyatçıların siyahısını tərtib etdiksə də müxtəlif əlaqəli səbəblərdən onları dəyişməli olduq. Siyahı tərtib olunarkən ilk növbədə ezam olunacaq şəxslərin təhlükəsizliyini təmin etmək, istintaqın marağında olan şəxsin yerini dəyişməklə aradan çıxmaması, Leninqraddakı şəxsin məlumatlandırılmaması və ümumilikdə iş üzrə obyektiv həqiqətin aşkar olunmasına mane ola bilən digər amillərin aradan qaldırılması kimi mühüm əhəmiyyət kəsb edən hallar nəzərə alınırdı. Bu nöqtəyi-nəzərdən konkret plan tədbirləri hazırlayaraq

Laçına mülki şəxs formasında Aydının özünə məxsus, avtomaşını ilə getməsi qərarına gəldik.

Qanunsuz ittihamı quraşdıran və onu müdafiə etmək məqsədilə yaramaz hərəkətlərində israrlı olan qüvvələrin müstəntiqin səfərindən xəbəri olmamalı idi. Həmin günün səhəri alaqaranlıqdan yola çıxan Aydın Əliyev təxminən bir sutkadan sonra saat 5-30 radələrində mənə telefon açaraq həmin şəxsi gətirib gəldiyini və artıq şəhər prokurorluğunda mühafizəçinin yanında olduqlarını bildirdi. Aydının təkbaşına həmin şəxsi nə kimi bəhanə altında şəhər prokurorluğuna gətirib çıxarması mənim üçün də bu günə kimi sirr olaraq qalır.

Mən prokurorluğun binasına daxil olanda mühafizəçi polis nəfəri Aydın müəllimin iş otağında dincəldiyini, gətirdiyi şəxsin isə küçəyə çıxıb, siqaret alıb qayıdacağı barədə məlumat verdi. Mən mühafizəçiyə deməyə söz belə tapmadım və daxilimdə Aydının bu biganəliyinə təəcübləndim. Dərk etdim ki, gətirilən şəxsin bizim üçün nə dərəcədə maraq doğurduğunu Aydın heç mühafizəçiyə də bildirməyib. Əməkdaşlar hələ işə gəlməmişdilər. Mən bacardığım qədər həyəcanımı gizlədərək, iş otağıma qalxdım. Bir tərəfdən Aydının mühafizəçini, onu diqqətindən yayındırmaması barədə xəbərdar belə etməməsi və cinayəti törətməkdə şübhəli şəxsə aradan çıxmağa şərait yaradaraq kabinetində dincəlməyi özünə rəva bilməsi anlaşılmaz olsa da, onun yerinə yetirdiyi xidməti vəzifəsinə, mənim ona olan etibarıma müstəsna dərəcədə sədaqətli olmasına cüzi də olsa şübhəm yox idi.

Aydının onunla görüşdüyü ilk andan, eləcə də yol boyu apardığı söhbət zamanı vəd etdiyi xoş sürprizlərlə qarşılacağı barədə düşüncələrə dalan Ariz, törətmiş olduğu cinayətə görə aldanılıb gətirildiyini hərdən bir beynindən keçirirdi, bədəninə üşütmə hopduğundan, tez bir anda da unutmağa çalışırdı. Və özünə ürək-dirək verərək düşündüyü qara fikirlərin həqiqətə uyğunluğu olmuş olsaydı belə, onu Laçından bir nəfər mülki şəxs deyil, ən azı bir neçə nəfər polis işçisi zorla maşının baqajına basıb gətirərdilər. Bundan başqa, Aydın müəllim rəhbərlik gələnə qədər mühafizəçi polisin yanında gözləmək barədə xahiş edərkən, eyni zamanda, yorğun olduğunu polisin nəzərinə çatdıraraq ona çay təklif etməsini də xahiş etmişdi. Hətta o, öz düçüncələrini təftiş etmək məqsədilə siqaret almaq bəhanəsi altında şəhərə çıxıb 20-30 dəqiqəyə qayıdacağını bildirdiyi halda belə, polis işçisi tərəddüdsüz etirazını ifadə etmədi və heç onun arxasınca belə baxmadı. Qayıtmasaydı, necə olacaqdı... Törətmiş olduğu cinayət ilə ona göstərilən hörmət və etibar arasında məntiqi uyğunsuzluq baxımından da ağlına gələn düşüncələr onu çaşdırırdı, hər halda, qarşılaşdığı şərait onu narahat edirdi, bəzən də onu qaçıb aradan çıxmağa sövq edirdi. Tərəddüdlər içərisində yaşadığı bu anda mühafizəçinin yüksək cingiltili səslə sakitliyi pozan telefon zəngi onu diksindirdi. Dəstəyi qaldıran mühafizəçi: "Çavuş Babayev". - "Laçından gələn qonağımız gəlib çıxdımı" sözləri eşidildi.-"Cənab Prokuror, yanımdadır"-deyərək mühafizəçi cavab verdi. Dərhal ikinci mərtəbədən pilləkənlərlə enən uca boylu xidməti geyimli şəxs ona yaxınlaşaraq nəvazişlə onun

ardınca getməyi xahiş etdi. Üçüncü mərtəbəyə qalxdılar. Qəbul otağından keçib ikiqat qapıdan otaga daxil olduğu an prokuror yerindən qalxdı və qonaqla görüşüb özünə yaxın stulda oturmağı təklif etdi. Prokurorun xahişi ilə stola çay gəldi. Hal-əhval tutduqdan sonra prokuror Laçında mövcud vəziyyətlə maraqlandı, həmsöhbətinin rayona səfərinin yəqin doğulduğu doğma yurd üçün darıxdığı ilə əlaqədar olduğuna işarə də vurdu. Sonra Laçınlılara olan hörmətindən, onların mərdliyindən, qədirbilənliyindən söz açdı: "İşğalçı erməni faşistlərinin qarşısına- silahsız çıxan Laçın sakinləri son imkanları tükənənədək düşmən qarşısından qaçmadı, Azərbaycanın ən dilbər guşələrindən olan doğma Laçınımızı itirməmək uğrunda mübarizə apardı, qurbanlar verdi"

Laçınlıların ünvanına deyilən xoş sözlər əslində həqiqət olmaqla, Arizin də ürəyindən idi. Lakin bu qürurduyucu sözlərin ona da aidiyyəti var idimi?!, bir Laçınlı olaraq deyilən təriflərdən onun da qürur hissi duymaq haqqı varmı?!...kimi ziddiyyətli düşüncələr içində çarpışan Ariz artıq prokurorun dediklərini ara-sıra eşidirdi. Söhbətin uzanması heç də xoş sürprizlərdən xəbər vermirdi. İfadə etdiyi fikirlərində səmimi olan prokuror Arizin onu narahat edən daxili hisslərini duyaraq Laçından olan tanışlarının haqqı sevən ədalətli insanlar olması, dürüst danışmağı hər şeydən üstün tutan, səhvlərini etiraf etməyi bacaran mərd kişilər olduğunu bir daha onun nəzərinə çatdırdı. Özünü deyilən xoş sözlərin və xüsusiyyətlərin daşıyıcısı kimi süni təbəssümü ilə nümayiş etdirməyə cəhd edən, lakin bu rolu oynamaqdan tamamilə uzaq olan Arizə- "Güman

edirəm ki, Siz də o hadisələrdə ən azı zərərçəkmiş olmusunuz.” Ariz gözlərini stolun üstündəki Cinayət məcəlləsinə zilləyərək düşüncələrə daldı... Əslində o da Laçının müdafiəsində əlindən gələni əsirgəməmişdi. Düşmənin silahlı postlarına qəfil hücumlar təşkil etmək məqsədilə tanıdıqları həmyerlilərindən ibarət dəstə yaratmışdılarsa da, elə ilk həmlələri zamanı bunun silahsız mümkün olmadığını sınaqdan çıxararaq bir nəfər yaralı ilə birgə heç bir şeyə nail olmadan aradan çıxmışdılar. - Bunu deməyə ehtiyac varmı?!...

“Düşünürəm ki daxilinizdə narahatçılıqa səbəb olan və qəlbinizi tarım çəkən, ağır yükdən azad olmaq və hazırda rahat nəfəs almaq şansınız var”, -deyə prokuror qısa anlığa yaranmış sükutu pozdu. Ariz duruxdu və başını aşağı saldı, əvvəlcə ona elə gəldi ki, indicə içində düşündüklərini prokurora danışırmış və prokuror da onların yaratdıqları dəstənin erməni postuna silahsız həmləsi ilə bağlı uğursuz hücumlarından keçirdiyi “Daxili narahatçılığı” nəzərdə tutur. Arizin utanaraq başını aşağı salmasını isə prokuror, Arizin Asiflə birlikdə, törətdikləri cinayətə işarə vurduğunu dərk etdiyi kimi qəbul etdiyindən sözünə davam edərək , ”Buyur, Ariz, indi danışa bilərsən görək sənin kimi sakit təbiətli, kifayət qədər dünyagörmüş, mərd bir insanı cinayət törətməyə vadar edən amillər nədən ibarət idi?

Əslində Ariz də artıq prokurorluğa gətirilməsinin səbəbini bilmək və yüngülləşmək istəyirdi. İştirakçısı olduğu cinayətə görə hər hansı məsuliyyət daşıyacağı, yaxud həbs olunacağı barədə heç fikirləşmirdi də. Dərindən

nəfəs aldı, necə və nədən başlasın.? - düşündüyü an, prokuror növbəti siqareti yandırıb, Arizə də təklif etdi, əlində tutduğu alışqanla onun da siqaretini yandırdı. Prokurorun bu jesti Arizin nəinki ürəyindən oldu, sanki, düşdüyü çətin vəziyyətdən çıxış yolunu bir az da asanlaşdırdı və cəsarətləndirdi. Səbri tükənmiş Ariz siqaretdən bir qullab alaraq nəhayət ,"Yoldaş prokuror, Siz, yəqin ki urus qadınla uşağının məsələsini nəzərdə tutursunuz. İcazə verin, Danışım-". deyərək dilləndi. Prokuror istədiyinə nail olduğuna arxayınlaşaraq xarici simasında və danışığında heç bir dəyişiklik nümayiş etdirməməyə çalışaraq "Tələsmə, siqaretini çək, danışarsan, danışmasan da hər şey bizə məlumdur". Sonra selektorla, "Mədinə, Bizə çay ver, Aydını və Elşəni kamerası ilə dəvət elə".Sonra Arizə müraciət edərək "deyirəm, bəlkə, saçını, başını darayasan, səni video-kameraya çəkək, necə fikirləşirsən?" Ariz gülümsəyib çiyinlərinin işarəsi ilə etiraz etmədiyini bildirir, hər iki əli ilə bir neçə dəfə saçını sığallayır. Bu zaman Aydın və prokuror kriminalist Elşən video-kamera əlində içəri daxil olur. Ariz ayağa qalxır və məzlum baxışlarla Aydını süzür, aşağıdan yuxarı uca qamətli Eşəni nəzərdən keçirib, bayaq onu prokurorun yanına qaldıran əməkdaş olduğunu tanıyır və başının işarəsi ilə çoxdan tanıdığı şəxslər kimi onlarla salamlaşır. Elşən mənim Arizlə apardığımız qeyri-rəsmi söhbətin mövzusundan fərqli olaraq dindirmə başlamazdan əvvəl, qanunla nəzərdə tutulan prosessual qaydaları və hüquqlarını ona izah edir və anket məlumatlarını soruşur. Ariz həmin anda dönüb mənə baxır, sanki, mənim münasibətimi bilmək istəyir. Mən başımla

təsdiqedici işarə verib razılığımı bildirirəm. Bundan sonra Ariz dostluq etdiyi Asifin təklifi ilə beş ay bundan əvvəl birgə törətdikləri hadisəni təfsilatı ilə danışmağa başlayır. Heç bir sualsız və müdaxilə olmadan izahat verən Ariz Asiflə yaşadıqları evin yaxınlığında tez-tez gördükləri bir qadınla tanış olmaq məqsədilə onun evinin qarşısında birinci mərtəbədə yerləşən mənzili ilə üz-üzə olan ağacın altında oturub söhbətləşərdilər. Bir neçə dəfə Asif söz ataraq, həmin qadınla görüşmək istədiyini bildirirdisə də, sonradan adını öyrəndikləri Olqa onunla görüşməkdən imtina edirdi. Axşamlar 5-6 yaşında olan qızı ilə həyətdə görünən Olqa onları görəndə dərhal mənzilinə gedərdi. Bir dəfə Asif ona təklif etdi ki, Olqa həyətdə olarkən onların həmişə qaranlıq olan bloklarında gizlənsin. Olqa onu görən kimi qızı ilə qaçıb mənzilinə daxil olarkən arxasınca girərək qapını içəridən baglamaga mane olsun və o, dərhal özünü çatdırıb birlikdə köməkləşib onun və uşağının səsini kəsəcəklər və istədiklərinə nail olacaqlar.

Beləliklə, o Asifin diktəsi ilə dediyi tərzdə hərəkət edərək hər ikisi Olqanın mənzilinə daxil olub, öldürəcəkləri ilə hədələyərək, səs – küy salmaması barədə xəbərdar etmiş, hər ikisi onunla cinsi əlaqədə olduqdan sonra Asif uşağı hamama aparmaq istərkən Olqa səs-küy salmağa başlamışdır. Bu zaman Asif Olqanı boğazından tutaraq ölənə kimi boğmuşdur. Sonra uşağı zorlayaraq başını vannaya yığılmış suya salaraq boğub öldürmüşdür. Daha sonra Olqanın barmağında olan sarı qızılı rəngli, üstündə balaca qaşı olan üzüyü çıxardaraq cibinə qoymuşdur. Mənzildə ayrı-ayrılıqda apardıqları axtarış zamanı Asifin

daha nə kimi əşyalar tapıb götürməsini deyə bilməsə də, o özü şəxsən pul və ya hər hansı qiymətli əşya tapmamış, stolun üstündə olan maqnitafonu və kassetləri mətbəxdən tapdığı boş salafan paketə qoyaraq özü ilə götürmüş, gecənin müti qaranlığında mənzili tərk etmişlər. Daha sonra, o həmin maqnitafonu xalasının yaşadığı evin qarşısında onlara məxsus, metal torla hasara alınmış bostanda salafan paketdə torpaga basdırdığını bildirmişdir.

İfadəsində təsvir etdiyi Olqaya məxsus mənzilin giriş qapısının əlamətləri, hadisədən qabaq zərərçəkmişlərin yaşadığı 1- ci mərtəbə ilə 2-ci mərtəbənin arasında blokda gizləndiyi yeri, otağın interyeri, hamamın, mətbəxin, yataq otağının quruluşu, yerləşmə istiqamətləri, təxmini ölçüsü, mənzildən götürdüyü maqnitafonu və kassetləri gizlətdiyi bostan və digər hərəkətlərini əks etdirən cxem onun tərəfindən icra edilərək ifadəsinə əlavə olundu. Şübhəli şəxsi dindirmə protokolu tərtib olunub başa çatdırıldıqdan dərhal sonra Arizə Olqanın mənzilindən apardığı maqnitafonu və kassetləri basdırdığı yeri, eləcə də ifadəsində göstərdiyi digər xüsusatları yerində göstərə bilməsi barədə təklifə o, həmin maqnitafonu kassetləri ilə birgə gizlətdiyi yeri tam dəqiqliyi ilə, İfadəsində göstərdiyi digər halları da hadisə yerində göstərə biləcəyini vəd etdi.

Polis əməkdaşlarının həmin cinayəti törədən şəxsləri fəallıqla axtardığından Asiflə məsləhətləşərək, sonuncu qohumlarının olduğu Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə, o isə Laçın rayonuna, - kəndlərinə getmişdir. Ayrılandan sonra Asiflə əlaqə saxlamamış, onun nə vaxt qayıdacağı barədə ona məlum deyil.

Tərtib olunmuş müvafiq protokol əsasında Arizin ifadəsinin yerində yoxlanması və iş üzrə maddi sübut ola biləcək əşyanın götürülməsi barədə video- kameranın müşaiyəti ilə istintaq hərəkətinin aparılması İstintaq şöbəsinin rəisi Nazim Abbasovun rəhbərliyi ilə təşkil olunmuş qrupa həvalə olundu. Ariz heç bir çətinlik çəkmədən Əhmədli qəsəbəsində yerləşən xalası gili yaşadığı evin 1-ci mərtəbəsinin qarşısında təsvir etdiyi bostanın metal tordan hörülmüş hasara yaxın çökək yerindən Olqanı və onun azyaşlı qızını öldürdükdən sonra sonuncunun mənzilindən oğurladığı maqnitafonu çıxararaq təqdim edir. Mərhumların mənzilinin quruluşuna dair göstərdiyi xüsusatlar ifadəsinin yerində yoxlanması zamanı təsdiqini tapır.

Artıq, aparılmış əlavə istintaq zamanı saxta sübutlara söykənən ittihamlarla həbsdə olan yeniyetmələrin azadlığa çıxmaları üçün kifayət qədər əsaslar mövcud idi.

Əməllərində hər hansı cinayət tərkibi olmadığından barələrində seçilmiş həbs qəti imkan tədbirləri ləğv olunmaqla işin onlara aid hissəsində icraata xitam verilir. Yeniyetmələr təxirəsalınmadan həbsdən azad olunurlar.

Nəhayət, Leninqraddan gələn təyyarə Bakı hava limanında yerə enir. Asifi qarşılayanlar içərisində onu hamıdan yaxşı və hərtərəfli tanıyan Ariz də var. Birbaşa şəhər prokurorluğuna gətirilən Asif təkzib olunması mümkünsüz olan sübutlara əsaslanan ittiham dəlilləri qarşısında təslim olmaqla Arizin, birlikdə törətdikləri cinayət üzrə göstərdiyi faktlardan mahiyyət etibarı ilə fərqlənməyən ifadə vermək məcburiyyətində qalır.

Arizin qrup şəklində törətmiş olduqları ağır cinayəti istintaq orqanı tərəfindən ümumtaktiki dindirmə üsulu tətbiq etməklə etiraf etməsi və törətdiyi əməldən səmimi peşmançılıq ifadəsi tərtib olunmuş yeni ittihamnamədə əksini tapir. Məhkəmə tərəfindən də Arizi xarakterizə edən yeganə yüngülləşdirici hal nəzərə alınaraq ona təyin edilən cəza, bu cinayəti planlaşdıran, təhrik edən və cinayətin törədilməsində xüsusi amansızlıq və fəallıq göstərən Asifə təyin edilən cəzadan daha fərqli oldu.

Aparılmış əlavə istintaq zamanı yeniyetmələrin qanunsuz və qondarma ittihamlar əsasında məhkəmə məsuliyyətinə verilməsinin qarşısı alındısa da, onları əsassız ittihamla qanunsuz həbs etdiklərinə görə, məsuliyyət daşımalı olan bir sıra vəzifəli şəxslərin, bundan sonra da irəli çəkildikləri daha yüksək vəzifələrdə kobud hüquq pozuntularına yol verməlləri heç də təsadüfi olmadı.

# QİSAS

Bakının "Kubinka" adlanan məşhur məhəlləsindəki beş mərtəbəli binanın 4-cü mərtəbəsində 3 uşağın cansız cəsədləri aşkar olunmuşdu. Xüsusi istintaq qrupu hadisə yerinə çatanda həmin binanın qabağına xeyli adam yığılmışdı. Ekspert-kriminalist tərəfindən giriş qapısında, cəftədə, dəhlizdə və otaqda, hamamın qapısında, divarlarındakı əl-barmaq izləri, sıçrama, sürtünmə, eləcə də cəsədlərin ətrafında əmələ gəlmiş qan laxtalarından nümunələr, barmaq və dırnaqların arasında ilişib qalan tüklər götürülür. Tibb ekspertinin apardığı ilkin müayinəyə görə, dəhlizdə və otaqdakı iki qızın başında küt alətlə yetirilmiş xəsarətlər, bədənlərində əlbəyaxa çarpışmaya xas sıyrıntılar müəyyən edilir.

Zərərçəkmiş tərəf şübhələndikləri konkret şəxslərin olmadığını, həm də mənzildən hər hansı əmlakın, o cümlədən pul, qızıl-zinət əşyalarının yoxa çıxmadığını bəyan edirlər. Qohum-qardaş, qonşular bu ailənin sakit, mədəni, başqalarına münasibətdə xeyirxah, övladlarının isə nümunəvi əxlaq və tərbiyə sahibi olduqlarını söyləyirlər. Cinayətin törədilmə mexanizmi və vaxtı, qəsdin məhz uşaqların həyatına yönəlməsi kimi hallar diqqəti xüsusi olaraq cəlb edirdi. İlkin istintaq və əməliyyat məlumatlarından məlum oldu ki, mərhum uşaqların atası Arifin dörd qardaşı var. Qardaşlardan hər biri ali təhsillidir, dövlət

idarə və müəssisələrində çalışır, iş yerlərindən müsbət xarakterizə olunurlar. Yaşayışları normaldır, cəmiyyətdə hərə özünəməxsus nüfuza malikdir. Qohumları, həmyerliləri ilə heç vaxt ciddi toqquşmaları, qisas almağa hər hansı səbəb ola bilən ən adi narazılıqları belə yox dərəcəsindədir. Bununla yanaşı, bir sıra qohumları ilə küsülü olsalar da, onlardan şübhələnməyi ağıllarına belə gətirmirlər...

İstintaq cinayətin ruhi xəstə, yaxud manyak tərəfindən törədilmə versiyasını da mümkün səviyyədə araşdırmağa səy göstərdi. Ailənin başçısı Arifin həkim-cərrah olaraq, üzərində tibbi əməliyyat keçirdiyi xəstələrin arasında narazı qalanı da tapılmadı. Ariflə ilkin sorğu-sual zamanı onun ölənlərin ruhuna and içməsi" müstəntiqi qıcıqlandırırdı. Bəlkə də bu onda çoxdan adət halına keçmişdi. Hər halda zərərçəkmiş qismində cəlb olunan Arifin, onsuz da sıxıntı içərisində olan qəlbini buna görə sındırmağa dəyməzdi...

...Cinayətin baş verməsindən 3 gün keçmişdi ki, müstəntiqi Bakı Şəhər Prokurorluğunun İstintaqa nəzarət üzrə müavini yanına çağırdı və bildirdi ki, bu işdə ehtiyatlı olsun, çünki belə bir hadisəni törətməyə qadir olan kəslər, şübhəsiz ki, ona qarşı da əllərindən gələni əsirgəməzlər. O isə cavabında qayıtdı ki", Bu mənim müstəntiq olaraq xidməti vəzifəmdir. Həm də zərərçəkmişlər tələbəlik dostumun qohumlarıdır və bu işin açılması üçün var qüvvəmlə çalışacağam". Birdən müstəntiq xatırladı ki, cinayətin aşkara çıxdığı gün, həmin binanın 5-ci mərtəbəsində yaşayan Ruslan adlı bir oğlanı dindirərkən, həmin gün, günortadan sonra, təxminən saat 4-radələrində 3-cü mərtəbədə yaşayan Jalə adlı qızın Arifgilin qapısını döydüyünü

görmüş, salam verib onun yanından keçəndən sonra da, ona açılan qapının səsini eşitmişdi. İstintaq qrupundakı müstəntiqlərdən birinin hadisə baş verən günü gecə vaxtı, ötəri də olsa dindirdiyi Qasımova Jalə Əsgər qızı isə öz ifadəsində bildirmişdi ki, həmin gün axşam saat 5-ə qədər öz iş yerində olub, bundan təxminən yarım saat sonra evdə olduğu vaxt blokda yaranan səs-küyə çıxaraq, qonşuluqda nə baş verdiyini öyrənib.

Ona qarşı müsbət fikirdə olduğunu nəzərə çatdıran müavin, baş prokurorun onu Leninqrad İstintaq Akademiyasına 3 aylıq ixtisasartırma kurslarına göndərmək barədə göstərişi olduğunu bildirdi. Üstündən əlavə olaraq dedi ki, – onun adı əvvəlki siyahıda yoxmuş və baş prokurora sağ ol de ki, "Sənin adını bu siyahıya sonradan əlavə edib". Müstəntiq apardığı işin icraatında müəyyən irəliləyiş olduğunu nəzərə çatdırdı və kursa göndərilməsinə etiraz etmək istədi, "Bəlkə mən..." deyə sözünə başladı və cümləni axıracan çatdırmadan prokuror müavini irəliləyişin nədən ibarət olduğunu soruşsa da, o fikrini tam açmadı, özlüyündə fikirləşdi ki, - bu versiyanın başlanğıc nöqtəsi barədə məlumat vermiş olsa, güman ki, işin açılması şübhə altında qalacaq. "Bu barədə danışmaq hələ tezdir" dedi. Beləliklə, cinayət işi başqa müstəntiqə təhvil verilməli olur.

***

...Kursda olduğu 3 ay müddət ərzində də Bakı ilə əlaqə saxlayaraq istintaqın gedişatı ilə maraqlandı. Məlum oldu ki, istintaq yalnız Arifin qohumları istiqamətində aparılır. Çoxsaylı dindirmə və üzləşmələr Arifin, onun ailəsinin

qohumları ilə münasibətləri kəskinlik dərəcəsinə gətirib çıxarıb. Orası da məlum oldu ki, 3 aylıq müddət keçdikdən sonra, mümkün olan istintaq hərəkətlərinin yerinə yetirildiyi əsasla, cinayəti törədən şəxslərin müəyyən edilməməsi ilə bağlı, polis orqanlarına əməliyyat tapşırığı göndərilməklə istintaq üzrə icraatı dayandırıblar...

...Nəhayət ki, o, kursu başa vurub Bakıya – iş yerinə qayıtdı. Bundan xəbər tutan zərərçəkmişlərin, xüsusilə biçarə uşaqların anası Sara xanımın təkidi ilə, Arifin bilavasitə yazılı müraciəti və şikayəti əsasında cinayət işini dayandırmaq barədə qərar ləğv edildi və istintaq işi yenidən ona həvalə olundu. Bir qayda olaraq, icraatı dayandırılmış işlərə əməliyyat orqanları tərəfindən bir qədər biganə münasibət göstərildiyindən, qanunla nəzərdə tutulmasa da, o, əməliyyat tədbirlərinin həyata keçirilməsində birbaşa özü də iştirak etməyi qərara aldı. İstintaq və əməliyyat tədbirlərinin birgə təşkili və həyata keçirilməsi – ələlxüsus açılmayan ölüm hadisələrinin istintaqı zamanı mühüm əhəmiyyət daşıyır.

Bu məqsədlə o Arifin yaxın qohumu və dostluq elədiyi Valid müəllimə təklif etdi ki, sakit bir yerdə oturub Ariflə birgə söhbət eləsinlər. Arifin spirtli içkiyə meyilli olması barədə məlumat vardı. Qaranlıq düşəndən sonra Arifin qardaşı oğlunun idarə etdiyi Qaz-24 markalı maşınla Novxanının Sumqayıt istiqamətindəki dəniz kənarındakı yeməkxanaların birində oturdular. Süfrəyə yemək gələndə Valid müəllim təklif elədi ki, “bəlkə 50-50 araq da gəlsin?!” Təbii ki, müstəntiq daxilən etiraz etməsə də, əslində Valid müəllimin təklifi onun məqsədi ilə üst-üstə

düşürdü. Lakin, o, Arifə üzünü tutub “bəlkə lazım deyil” dedi. Arif onun könülsüz ifadəsini, necə deyərlər, daxili iradəyə uyğun əli ilə işarə edərək, oturduqları kiçik otaqdan çölə çıxdı və bir neçə dəqiqədən sonra onları bura gətirən, əlində çanta olan sürücü ilə otağa qayıtdılar. Arif iki şüşə “stolicnaya” arağı çıxarıb, “çoxdandır bunlar maşınımın baqajında qalıb, Moskvadan gəlmədi” deyibən şüşələri Valid müəllimin qabağına qoydu. Valid müəllim badələrə araq süzdü. Arif bir neçə kəlmə müstəntiqin ünvanına xoş sözlər dedi və cinayətkarların tapılmasında ona böyük ümidlər bəslədiyini söylədi. Sonrakı sağlığı da Valid müəllim yenə də ona həsr edərək, “ Qohum-əqrəba ilə az qalıb düşmən olaq, istintaq çağırır, elə bilirlər şübhəli şəxslər kimi onların adını biz vermişik”. Bir neçə badədən sonra üzünü Arifə tutan müstəntiq, onu bir az kövrəltmək və eyni zamanda hadisənin ağırlığını ona bir daha xatırlatmaq niyyətilə, “Bu cinayəti törətməkdə məqsəd – intiqam almaq, mərhum uşaqlara ən doğma olan insanları ömürlük əzab-əziyyətə, dərdə düçar etməkdir”, – dedi, –“ Bu elə bir qəddarlıqdır ki, bu cinayəti törətməkdə marağı olan şəxs bu vəhşiliyi ailədən qisas almaq niyyəti ilə, qəsdən, düşünülmüş şəkildə həyata keçirib. Ola bilməz ki, zərərçəkmiş olaraq Arif müəllimin bu intiqamın və qisasın səbəbini, bunu törədənlər barədə gümanı olmasın.” Müstəntiq bunları deyəndə Arifin su stəkanına zillənməyi, ara bir də ona nəzər salaraq başını buladığı gözündən yayınmadı. Müstəntiq sözünün mabədini gətirdi: “ Elə şeylər var ki, onları lazım gələndə açıb-ağartmağa dəyməz, ancaq bu qəziyyədə nəyisə gizlətmək başa düşülən deyil.

Orası danılmazdır ki, burdakı qisas uşaqlara yox, valideynlərə yönəlib, cinayətin obyekti, heç bir günahı olmayan uşaqların həyatı və nakam taleyidir. Siz isə, Arif müəllim.. susmaqda davam edirsiz. Hər bir halda cinayətkar tanınmalı, o öz cəzasına çatmalıdır”...

Arif öz susmağındaydı, arada başını qaldırıb nəsə demək istədisə də hiss olunurdu ki, onu deməklə hər şeyi itirəcəyinin, böyük riskə getmiş olacağının fərqindədir və yenə də susmağa üstünlük verdi. Onun öz daxilində gizli saxladığı şübhələr onu “Mənim, mənim günahımdır”- deyərək qışqırıb bağırmağa sövq edirdi. O, indi tam anlayırdı ki bu cinayət məhz onun yol verdiyi ciddi səhvlərin ağır nəticəsidir, şəxsən ondan qisas almağa yönəlmişdir. Eyni zamanda, müstəntiqdə də əsas səbəbkarın məhz Arifin özünün olduğu barədə fikir formalaşmaq üzrəydi...

***

...Cinayət işinin materiallarını təhlil edərək qonşudakı Jalənin şəxsiyyəti, həyat tərzi, yaxınları, əlaqə saxladığı tələbə yoldaşları, zərərçəkmişlərin ailə üzvləri ilə münasibəti, özünün psixoloji vəziyyəti və şəxsi keyfiyyətlərini əks etdirən kifayət qədər material toplandı. Məlum oldu ki, Jalə zahirən kifayət qədər cəlbedici, müasir ruhlu, tez qılığa girməyi, istədiyi vaxt hər hansı adamı ələ almağı, eyni vaxtda həm gülməyi, həm ağlamağı bacaran bir kəs, əslində isə çox qaba davranışlı, qəddar, intriqan, eyni zamanda, əsəbi olmaqla, psixoloji cəhətdən anormal bir qadındır. Çox yüksək vəzifəli şəxsin arvadı ilə rəfiqədir, dövlət və hakimiyyət orqanlarında, o cümlədən, hüquq-müha-

fizə sistemində rəhbər vəzifəli qohumları və şəxsi yaxınlıq əlaqələri mövcuddur...

Jaləni rəsmi qaydada Bakı Şəhər Prokurorluğuna dəvət etməzdən əvvəl onun dindirilməsi və üzləşməsi nəzərdə tutulan kabinetdə əməliyyat tədbirləri görüldü. Çağırış vərəqəsi əsasında prokurorluğa gətirilən Jalə, həmin kabinetdə əyləşən digər müstəntiqin dindirmə müddətində otaqda olmasına etiraz etdi. Bu istəyi yerinə yetiriləndən sonra Jalə özünəməxsus baxışları, təbəssümü, eyham və işarəylə müşayiət olunan dindirmə protokolunu istədiyi məzmunda sona yetirdi. O öz ifadəsində zərərçəkmişlərin ailə üzvləri ilə mehriban qonşuluq münasibətində olduğunu, valideynlərinin Ariflə bir yerdə işlədiyini, hadisənin baş verdiyi gün saat 9-dan axşam saat 17:00-dək çalışdığı Elmi-tədqiqat İnstitutunda iş otağında olduğunu, o vaxta qədər heç yerə çıxmadığını bir daha təsdiq etdi. Hadisə barədə isə o, yalnız işdən qayıdandan sonra, evdə olduğu zaman, təxminən axşam saat 6- radələrində, blokdakı səs-küyə çıxaraq eşitdiyini bildirdi.

...Bundan sonra, Jalə ilə üzləşdirmə məqsədilə gətirilən Ruslan Ağayev otağa dəvət olunur və Jalə ilə üzüzə oturduqdan dərhal sonra, otağın qapısı açılır və müstəntiqi şəhər prokurorunun təcili çağırdığını bildirirlər. Müstəntiq məşğul olduğunu desə də, çox vacib məsələ ilə bağlı prokurorun yanına getməli olur. Üzrxahlıq edərək 5-10 dəqiqəyə qayıdacağını deyib, Jalə ilə Ruslanı təklikdə qoyub dəhlizə çıxır. Jalə yan dəhlizə baxan pəncərədən onu görür, həm də taxta döşəmədə onun uzaqlaşan addımlarının səsini eşidir... Müstəntiqin getdiyinə

arxayın olandan sonra, yerindən duraraq müstəntiqin iş masasının altına, tumbaların içinə baxır, sonra otağı bir daha gözdən keçirərək, əyilib pıçıltı ilə rus dilində Ruslana " Sən məni hadisə günü görməmisən, başa düşdün?" – deyir. Ruslan isə ona təəccüb içində "Nə danışırsan, bu olmaya sənin işindir? " – deyə soruşur.Jalə isə özünü itirmiş halda"Yox"- deyir. Ruslan bir anlığa həmin günü gözləri qarşısında canlandıraraq qorxunc baxışlarla "Mən bu barədə ifadə vermişəm və bildirmişəm ki, səni onların qapısını döyəndə görmüşəm,. ifadəmi dəyişə bilmərəm, dəyişsəm..." Jalə onun sözünü təhqiramiz ifadə ilə kəsir: "Bu vaxta qədər niyə mənə bir söz deməmisən ki, səni çağırıblar, mənim haqqımda sorğu- sual ediblər. Ruslan isə "Mən hardan biləydim ki, sən bu işdə" – deyir və sözünü yarımçıq qoyur...

Yan pəncərədən otağına qayıdan müstəntiqi görən Ruslanla Jalə susurlar və sakitcə baxışırlar. Müstəntiq qapını açıb içəri girəndə hər ikisi guya diksinirlər və hörmət əlaməti olaraq yerlərindən qalxırlar. Müstəntiqin "Əyləşin" kəlməsindən sonra otururlar. Müstəntiqin "Darıxmadınız ki?" sualına Ruslan dinməsə də, Jalə "Yox, bir məktəbdə oxumuşuq, bir binada da yaşayırıq" – deyir. Müstəntiq üzünü Jaləyə tutaraq, Ruslanı dəvət etməkdə məqsədin onları üzləşdirmək olduğunu deyir və yalan ifadə verməyə görə cinayət məsuliyyətinə cəlb olunacaqları barədə onlara xəbərdarlıq edir. Aidiyyəti üzrə verilən suala cavab olaraq, hadisənin baş verdiyi gün saat 15 radələrində yaşadığı 5-ci mərtəbəyə pilləkənlə qalxarkən, həm qonşuluqdan, həm də bir yerdə oxuduqları orta mək-

təbdən tanıdığı, aralarında normal münasibət olan Jaləni 4-cü mərtəbədə yaşayan Arifgilin qapısını döyərkən gördüyünü, qapının açılma səsini eşitdiyini və Jalənin mənzilə daxil olduğunu güman etsə də, bilavasitə bunları gözüylə görmədiyini bildirir. Onu da əlavə etdi ki, bu barədə o hadisə günü ifadə verdiyindən dəqiq bilir ki, məhz bu həmin gün olub. Ruslanın günləri səhv saldığına istinad edən Jalə, onun verdiyi ifadəni təkzib edərək, həmin gün saat 9-dan axşam saat 5: 00-a qədər iş yerində olduğunu bir daha nəzərə çatdırır...

Üzləşmə başa catandan sonra cinayət törətməkdə şübhəli şəxs qismində dindirilən Jaləyə iş yerindən möhürlə təsdiq edilmiş arayış təqdim edilərkən, o əvvəlcə bir anlığa çaşıb qalsa da, sonradan özünü ələ alıb yalançı təbəssümlə gülümsədi, beynində müxtəlif variantlar quraşdırmağa cəhd etdi. Jalənin işlədiyi İnstitutdan alınmış arayışdan məlum olurdu ki, o, həmin gün saat 09:15-də işə gəlib, başının bərk ağrıdığını bildirərək, günortadan sonra ona icazə verilməsini xahiş edib və saat 13-dən sonra iş yerində olmayıb...

Təbii ki, fakt qarşısında çıxılmaz vəziyyətdə qalan Jalə vəziyyəti nə cür izah edəcəyini bilmirdi. Hansı cildə girsin – kobudluqmu eləsin, böhtanmı atsın? Hərçənd ki, hələlik bunlara zəmin yaradan amillər yox idi. Fikirləşirdi ki, – görəsən bu müstəntiqin marağı nədir ki, nəyin bahasına olur-olsun o məni ittiham etməyə çalışır?! Halbuki, istəsə işi döndərə də bilər. Hadisə günü onu dindirən müstəntiq daha xeyirxah, daha üzüyola idi, mən deyənlə o dəqiqə razılaşdı. Heyf o müstəntiqdən, əlbəttə beləlarinə də rast gəlinir. Axı ay zalım oğlu, niyə mənə pislik eləyirsən?!.

Bir anlığa bu fikirlərlə baş-başa qalan Jaləyə məhkəmə ekspertizasının rəyi təqdim olundu. Jalə gözlərinə inanmadı. Elə indicə yaxşı və xeyirxah insan kimi xatırladığı müstəntiqin ondan götürdüyü "Tük nümunələrinin mərhum Sevincin barmaqları arasında aşkar olunmuş tüklərlə eyni olduğu və Qasımova Jalə Əsgər qızına məxsus " olması barədə rəy onun özünü müdafiə məqsədi ilə düşünüb-daşındığı uydurma fikirlərini alt-üst etdi. Jalə bərk sarsılıb nəsə demək istədisə, boğazı təngidi və bir neçə dəfə ardıcıl ah çəkərək, "İlanın ağına da lənət, qarasına da..." məsəlini xatırlayaraq axır ki, çətinliklə udqundu. Gözünün ucuyla ekspert rəyinin nəticə hissəsinə zillənərək bir anlığa Sevdanın özünü qorumaqdan ötrü onun arxasına keçərək hər iki əli ilə onun saçlarından yapışıb gah sağa, gah sola çırpınmaqla başını zərbədən qorumağa cəhd göstərməsi yadına düşdü və istər-istəməz canından soyuq bir gizilti keçdi. Özündən asılı olmayaraq, – "Siz məni tutacaqsız? Tutursuz tutun, mən heç nədən, heç kimdən qorxmuram. Tezliklə bilərsiz, mən kiməm, onda məndən üzr istəyəcəksiz" – söylədi. Şübhəsiz ki, Jalənin hədə-qorxusu və belə yekə danışmağı əsassız deyildi. Onun kobudluğuna və qeyri-səmimiliyinə uyğun cavab vermək, böhtançı kimi xarakterizə olunan Jalənin öz məqsədinə nail olmağa yol aça bilərdi. Həmin anda onun psixoloji hücumunun nə dərəcədə təbii və yaxud süni olduğunu anlamaq bir qədər çətin idi...

***

...Jalə cinayət törətməkdə şübhəli şəxs qismində Bakı Şəhər Baş Polis idarəsinin müvəqqəti saxlama təcridxana-

dan axşamkı məsələnin həllində ona kömək göstərməyi bir də xahiş elədi. O, nə yolla olur-olsun, öz ata-anasına bu məsələni çatdırmalıydı. Elmiranın sözündən belə çıxdı ki, bu mümkün olan şeydir, pulun gücünə nə işlər düzəlmir ki?! Soruşdu ki, yəni o qədər pulu varmı? Jalə dedi ki, bura girəndə cibində 15-20 manat pulu olub, onu da kameraya salınmamışdan əvvəl növbətçi hissədə götürüblər. Elmira ağzından qaçırtdı ki, nəzarətçilərdən biri ilə əlaqə yarada bilər, onun vasitəsi ilə çöldən içəriyə, içəridən çölə nəsə çatdırmaq mümkündür, bunun yolunu da izah elədi. Bu məqamda Jalə hətta ağlamsındı və az qala Elmiranın ayağına düşdü ki, nəzarətçinin ovcuna qoymaq üçün ona bir neçə günlüyə əlborcu versin və bir də nəzarətçi ilə şəxsən tanış eləsin. Artıq etibara girmiş Elmira düşündü ki, Jalənin tutulma səbəbini onun öz dilindən eşitməyin əsl zamanı yetişibdir: "Sən neyləmisən ki, tutublar?" soruşanda Jalə çıxılmaz vəziyyətdə qaldı, əvvəlcə nəsə uydurub demək istədi, ancaq ona yardım etməyə razılıq verən bu qadının yanında yalançı çıxacağından ehtiyat edərək, "onu aldatmağa dəyməz" – deyə fikirləşdi Digər tərəfdən də ağlına gəldi ki, "Necə olsa, bunun təcrübəsi çoxdur, bəlkə mənə işin xeyrinə bir məsləhət verdi?!" Bir qədər susandan sonra, " Məni bədbəxt eləyən birindən qisasımı almışam" dedi. Elmira təəccüblə Jalənin üzünə zillənərək: "Necə yəni... kimisə öldürmüsən yoxsa...?" Bu zaman kameranın qapısı açıldı. Elmira Jalənin yazdığı bükülü kağızı onlara nahar gətirən nəzarətçinin ovcuna qoydu və bildirdi ki, ünvan, telefon və hər şey bükülünün arasındadır. Jalə göndərdiyi o kağızda hansı yolla olursa-olsun

azad olunmasını, bu işə "bilirsiniz, kimi, deyirəm?", qohumların qarışmasını, məktubu çatdıran adam vasitəsi ilə əlaqə saxlanmasını, həm də təcili olaraq pul göndərilməsi barədə yazmışdı. Nəzarətçi kameradan çıxandan sonra Jalə Elmiranın təəccüblə ardını gözlədiyi söhbətə davam edərək, bir-bir başına gələnləri danışdı.Tələbəlik dövründə rayona pambıq yığmağa getdikləri vaxt, müəlliminin onu zorlayıb bakirəliyini pozmasını, ərə getməmişdən bir neçə ay əvvəl, qabaqcadan vəd etdiyi tibbi əməliyyat yolu ilə qızlığını guya bərpa etməsini, ərə getdikdən sonra bu səbəbdən ömürlük ana olmaqdan məhrum olduğunu, bunun nəticəsində ailəsinin dağıldığını birər-birər nəql elədi. Jalə hətta orasını da danışdı ki, onu zorlayan o adamla bir binada yaşayırlar, bu hadisədən bir neçə gün əvvəl səhər saat 9 radələrində blokdan çıxıb işə gedəndə görür ki, – rus milliyyətindən olan bir usta həyətdə o naqisin QAZ 24 markalı maşınını təmir edir. O isə əli cibində dayanıb, ona tərəf baxır, istehzayla gülümsəyir, elə bil vaxtilə törətdiyi əməlindən qürrələnirdi. O da əsəbiləşib onu söyür və ona tərəf tüpürcək atır. Həmin şəxs isə bunun cavabını təhqiramiz söyüşlə verir, sonra da nalayiq ifadə ilə "indi.. gedə bilərsən" deyir. Məhz bundan sonra Jalənin qəzəbi aşıb-daşır, əvvəlcədən planlaşdırdığı intiqamını daha da tezləşdirir və sərtləşdirir. Və o, belə bir cinayəti törətmək məcburiyyətində qalır...

...İntiqam almaq məqsədi ilə, çoxdan tanıdığı və onun pərəstişkarı olan, kritik anlarında maddi yardım göstərdiyi xroniki narkoman dostuna başına gələn müsibəti ağlaya-ağlaya danışır. Dostu Jaləni sakitləşdirir, onu zorlayan

şəxsin ailəsini məhv edəcəyinə söz verir. Jalə də pərəstişkarına vəd edir ki, o öz sözünün üstündə dursa, onun hər bir arzusunu, bu vaxta qədər olduğu kimi, ömrü boyu can-la-başla yerinə yetirməyə hazırdır.

***

...Əməliyyat məlumatında daha sonra deyilirdi ki, Arif və Jalənin məxfi saxladıqları sirr istisna olmaqla, ailələr arasında münasibətlər adi qaydada davam edibmiş...

Bir qayda olaraq, Arifin iki azyaşlı övladı gündüz saat 1-dən sonra, ikinci növbə oxuyan 3-cü uşağın saat 5-ə yaxın məktəbdən evə gəlmələri, 4-cü böyük qızın və ata-ananın isə axşam saat 6-dan sonra evə qayıtma rejimi Jaləyə əvvəlcədən bəlli olduğundan, özününsə valideynlərinin həmin ərəfədə Kislovodskda istirahətdə olduqları ucbatından evdə tək qalan Jalə, fürsəti fövtə verməyib əvvəldən razılaşdıqları kimi, hadisə günü dostunu evinə çağırır. Arifgilin qapısını açdırmağı və onu içəri buraxmağı Jalə öz öhdəsinə götürür. Dostunun narkoman olmasına baxmayaraq, O fiziki cəhətdən güclü idi və iki metrə yaxın boy-buxunu vardı. Dediyinə görə, o əvvəllər bir neçə dəfə tutulmuş, qısa müddət həbsdə yatandan sonra valideynlərinin sayəsində və bir dəfə də məhz Jalənin qohumlarının köməyi ilə azadlığa çıxmışdı...

Arifin ailə üzvlərinin evə gediş-gəliş rejimini bilməsinə baxmayaraq, həmin vaxt mənzildə Leyla və Elnurdan başqa digər şəxslərin olub-olmadığını dəqiqləşdirmək vacibiydi. Evdə kənar adam olduğu təqdirdə, Jalə dərhal geri qayıtmalı və cinayət təxirə salınmalıydı.

Jalə saçına yüngülcə su vurub, başının islaq təsəvvürünü yaradaraq, Arif gilin mənzilinə qalxır, qapını döyür, Leyla gözlükdən Jaləni görüb qapını onun üzünə açır. Jalə saç qurudanın işləmədiyini deyir, Leyladan öz fenini ona verməyi xahiş edir. O, giriş qapısı ilə üzbəüz divardakı güzgünün qabağında feni işə salaraq, başını qurutmaq bəhanəsi ilə razılaşdıqları 5 dəqiqədən sonra dostunun qapını döyməsini gözləyir. Qapının sakitcə döyülməsi ilə Jalə dərhal cəftəni açıb onu içəri buraxır. Həmin anda otaqdan dəhlizə çıxan Leyla tanımadığı şəxsi görərək özünü itirir, bu zaman ona çığırmağa belə imkan verməyən, əlində bir tərəfi kəsici, digər tərəfi ət doğrayan balta olan, sonradan adı müəyyən edilən Elgiz onun üstünə cumur, Leyla Jalədən kömək umaraq onun arxasına keçir, özünü qorumağa çalışır. Lakin Elgizin ağır zərbəsindən sonra o yerə sərilir. Səs-küyə mətbəxdən çıxan azyaşlı Elnur, çıxış qapısına qaçsa da, Elgiz onu ayaqqabısını geyən anda yaxalayır, itələyib hamama salır və azyaşlı Elnurun boynundan tutaraq başını su dolu vannanın içərisinə soxur, onu boğub öldürür. Elgiz əvvəlcədən Arifin bütün övladlarını öldürəcəyi barədə vəd verdiyindən, onlar tezliklə məktəbdən evə dönəsi 14 yaşlı Sevdanı də gözləməli olurlar. Sevda içəri girərkən dəhlizdə Leylanın meyidini görüb çığırmasın deyə, meyidi otağa sürüyüb, gözə çarpacaq qan izlərini silərək izi itirirlər.

...Nəhayət, giriş qapısından sol tərəfdə yerləşən hamamda qapının döyülməsini gözləyən anda, qapı çöldən açarla açılır və qapı örtülən kimi Elgiz hamamdan çıxaraq əlində çanta, üzü əks istiqamətə yönələn Sevdanı bir əli

ilə ağzını tutaraq boğmağa cəhd göstərir. Sevda çırpınıb müdafiə olunmağa çalışsa da, Elgiz balta ilə dalbadal Sevincin başına zərbə endirməklə onun da həyatına son qoyur. Mehribanı da öldürməyi planlaşdırsalar da, binada yaşayan sakinlərin artıq işdən qayıtma vaxtı olduğundan, həm də Elgiz binadan çıxarkən, gözə çarpmasın deyə onlar gecikmədən mənzili tərk edir, Elgiz gözə görünmədən birbaşa binadan çıxıb gedir, Jalə öz mənzilinə qayıdır, yalnız hadisə ilə bağlı səs-küy qalxdığı zaman çölə çıxır. Bundan sonra, özlüyündə Elgizin iynə vurandan sonrakı halını təsəvvürünə gətirir, yainki tutulmasından ehtiyat edərək, onun da çarəsini qılmağın vacibliyini fikirləşir...

***

Elmira Jalənin dilindən çıxanların həqiqət olduğuna şübhə ilə yanaşsa da, bunu biruzə vermirdi. O, bilsəydi ki, bu cürə ifritə qatilə rast gələcək... bir anlığa fikrə gedir. Məsələnin üstü açılsa necə olacaq? Və tez də bu fikirdən daşınır. Öz gücünə inanaraq fikirləşir ki, – "bu kimdir axı mənim qabağımda?" İfşa etdiyi neçə-neçə cinayətkarı xatırlayır. Bu qızın azyaşlı uşaqlara qarşı törətdiyi bu müdhiş cinayətin qəddarlıq həddini düşünəndə, üzü üzlər görmüş Elmira özünün gözəgörünməz fəaliyyətinin nə dərəcədə vacib olduğunu ilk dəfəydi ki, belə dərindən anladı. O, daha dərinə getmək, Jalənin konkret kimlərə ümid bəsləməsinin, belə bir amansız cinayətdən sonra azadlığa çıxmaq ehtimalının nə dərəcədə gerçəkləşə biləcəyinə heç cürə inanmırdı. Elmira bu fikirlərə daldığı anda Jalə müstəntiqdən də qisas alacağını, onu da sağ qoymayacağını bildirdi.

***

...Həmin gün axşam nəzarətçi kağızda göstərilən telefona zəng vurub özünü Jalənin atası kimi təqdim edən şəxslə Nizami metrosunun yanında görüşdü və kağız parçasını ona çatdırdı. Əsgər kişi yazılanları oxudu və Jalədən muğayat olmağı nəzarətçidən xahiş elədi və bildirdi ki, qızı narahat olmasın, lap yuxarıda oturan şəxs bu işlə ciddi məşguldur. Lakin nəzarətçi ona dedi ki, - yaxşı olar, dediyi sözü bir kağıza yazsın, çünki kağızı ötürmək onunçün daha asandı, nəinki sözü çatdırmaq. Belə olan halda, həmin gün, razılaşdıqları kimi bir neçə saatdan sonra onlar yenidən görüşürlər və atasının yazdığı kağız, səhərisi Elmiranın əliylə Jaləyə çatdırıldı...

***

Baş Polis İdarəsinin rəhbərliyinə verilən göstəriş əsasında MTN-nin nümayəndələri kimi təqdim olunan bir neçə şəxsə guya əməliyyat tədbiri keçirməkdən ötrü Jalə ilə görüşünə icazə verilir. Bu barədə şəhər prokuroru vasitəsi ilə Baş Prokurora məlumat verildikdə o, məsələdən xəbərdar olduğunu bildirir və onların keçirəcəyi tədbirlərə mane olmamağı tapşırır...

...Jalənin tutulmasından 10 gün keçmiş ona ittiham elan olunmaqla, "Bayıl türməsi" adlanan istintaq təcridxanasına köçürüldü. (Bu həmin məşhur türmədir ki, hələ 1913-cü ildə İ. Stalin həbsdə olarkən həmin təcridxananın 39-cu kamerasında saxlanıbdır.)

Təcridxanada saxlanılan şübhəli, yaxud müqəssir şəxslər, eləcə də 5-ci korpusda saxlanan ölüm cəzasına məh-

kum edilmişlər üzərində ciddi nəzarətin olmasına baxmayaraq, istintaq orqanının xəbəri olmadan, faktiki olaraq, istintaqa məlum olmayan şəxslər Jalə ilə məxfi görüşlər keçirib istintaqın obyektiv aparılmasına mane olmaqdaydılar...

MTN əməkdaşlarının Baş Polis İdarəsində apardıqları əməliyyat tədbirlərini davam edib-etməməsi təbii ki, müstəntiq üçün də maraqlıydı. Halbuki kimliyindən, tutduğu vəzifədən, eləcə də görülən tədbirin mahiyyətindən asılı olmayaraq, müstəntiqin rəsmi icazəsi və razılığı olmadan onun sərəncamında olan şübhəli şəxslə, ya müqəssirlə hər hansı əməliyyat-istintaq tədbirləri keçirmək yolverilməz haldır.

Cinayətin, erməni faşistlərinin torpağımıza soxulması, Sumqayıtda, Qarabağda törətdikləri təxribat hərəkətlərinin tərkib hissəsi ehtimal olunan, eyni ərəfədə törədildiyini nəzərə alaraq, hadisənin bu məqsədlə, yaxud milli münaqişə zəminində törədilmə versiyasını yoxlamaqdan ötrü MTN-nə əməliyyat tapşırığı göndərilmişdi. Güman oluna bilərdi ki, MTN əməliyyatçıları məhz həmin tapşırığın icrası ilə məşğuldurlar. Belə olan təqdirdə əməliyyat tədbirlərini istintaq orqanı və polisin əməliyyat qürumu ilə birgə keçirmək daha məqsədə uyğun olardı. Halbuki MTN-çilər tədbirlərini məxfi keçirmək qərarındaydılar. Lakin, sonda üzə çıxdığı kimi, həmin tədbirlər cinayətin açılmasna deyil, əksinə cinayəti törətməkdə ittiham olunan şəxsi, nəyin bahasına olursa-olsun məsuliyyətdən və həbsdən qurtulmağa xidmət edirmiş...

...Jalənin Bayıla köçürüldükdən bir gün sonra, onun müstəntiqi də ölümlə hədələmə fikri reallıaşdı. Həmin

gün 8-ci km qəsəbəsində əməliyyatçı ilə birgə maşında yol getdikləri vaxt, QAZ-69 markalı maşınla vurularaq onların həyatına həqiqətən sui-qəsd olundu. Sui-qəsdi bilavasitə törədən rus kökənli dörd nəfər hadisə yerindən dərhal elə həmin QAZ-69-la aradan çıxmış, müstəntiq və əməliyyatçı yoldan ötən kənar şəxslər tərəfindən xəstəxanaya çatdırılmışdı. Xoşbəxtlikdən, müstəntiqin yalnız qolu sınmış, əməliyyatçı isə yüngül dərəcəli beyin zədəsi almışdı. Aparılan araşdırma zamanı, məlum oldu ki, onları vuran 92-00-AO nömrəli QAZ 69 markalı avtomaşın ümumiyyətlə heç bir qeydiyyatda yoxdur...

Jalənin Elmiraya danışdığı xüsusatlar, cinayətin motivi artıq Arifin özü tərəfindən də təsdiq edilən detallardan müqəssir Qasımova Jalənin qismən imtina etmə səbəbləri artıq bəlliydi və saxlandığı təcridxananı dəyişdirmək zəruriyyəti yaradırdı. Bu səbəbdən Jalə Rusiyanın Rostov vilayətində yerləşən istintaq təcridxanalarından birinə köçürüldü...

Paralel olaraq, Jalə ilə münasibətlərin kəskinləşməsinə səbəb olan hallar barədə Arif şifahi olaraq məlumat versə də, yazılı ifadə verməkdən qəti olaraq boyun qaçırır, tərtib olunmuş şifahi ərizə protokolunu imzalamağa belə razılıq vermirdi. Eyni zamanda, cinayətin həqiqətən Jalə tərəfindən təşkil olunmasına Arif əvvəlcə şübhə ilə yanaşsa da, həbs olunmamışdan bir neçə gün əvvəl təsadüfən qarşılaşdığı zaman, Jalə kinayə ilə gülümsəyərək ona demişdi: "Hə, niyə danışmırsan, danış da, qoy hər kəs sənin uşaqlarının qatilini tanısın və bilsinlər ki, sən kimsən!" deyibən Arifin yanından ötüb keçmişdi. Guman olunurdu ki,

Arifin bu kimi mühüm əhəmiyyət kəsb edən hallar barədə istintaqa yalnız şifahi bildirməsi və yazılı ifadə verməkdən imtina etməsi və protokola imza atmamaqda məqsədi – Jalə ilə qanundan kənar haqq-hesab çəkmək idi. Jalə isə istintaq yolu ilə hadisənin təfsilatını söyləməkdən, xüsusilə Elgizin kimliyi və şəxsiyyəti barədə ifadə verməkdən yayınırdı. Əməliyyat yolu ilə, nəhayət, şəxsiyyəti müəyyənləşən, Əhmədli qəsəbəsində yaşayan Elgizin əməliyyatçılar tərəfindən səhər evdən çıxmamış tutulub Bakı Şəhər Prokurorluğuna gətirilməsi barədə qərar çıxarılsa da, həmin gecə Elgiz öz "Zaporojets" markalı maşınında, elə Bayıl türməsinə yaxın ərazidə müəmmalı şəraitdə vurularaq öldürüldü. İş üzrə toplanmış materiallar təhlil olunduqdan sonra Əhmədov Elgiz Məhəmməd oğlu barədə çıxarılmış ittihama xitam verilmiş oldu...

Cinayətin təşkilatçısı və birbaşa iştirakçısı olan Qasımova Jalə Əsgər qızına Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 94-cü maddəsinin 2-ci hissəsi ilə "xüsusi amansızlıqla iki və daha çox şəxsin öldürülməsi" ittihamı elan olunaraq, barəsində cinayət işinin baxılması üçün məhkəməyə göndərilməsi qərara alındı. Həmin ərəfədə SSRİ Baş Prokurorluğundan həmin iş tələb olundu. Bir müddət keçdikdən sonra isə cinayət işi müvafiq göstərişlə Respublika Baş Prokurorluğuna qaytarıldı. Göstərişdə qeyd olunurdu ki, iş üzrə istintaq lazım olan səviyyədə aparılıb, Qasımova Jalə Əsgər qızına elan olunmuş ittiham və barəsində seçilmiş həbs qəti imkan tədbiri kifayət qədər sübutlara əsaslanır. Bununla belə, cinayət işinin məhkəmə perspektivi olmadığı ehtimalı nəzərə alınaraq,

"icraatına xitam verilməsinin məqsədəuyğunluğu barədə qərarın qəbul edilməsi" tövsiyə olunur. Müstəntiq ən yüksək istintaqa nəzarət orqanı tərəfindən qəbul olunmuş qərarla heç cürə razı olmadığı barədə qəti fikir bildirsə də, Baş Prokurorluğun İstintaq İdarəsi tərəfindən Qasımova Jalənin barəsində qanunla nəzərdə tutulmayan əsasla xitam verilməsi təmin olunur və o həbsdən azad edilir.

Azad olunduqdan 3 gün sonra Jalənin valideynləri qızlarının Qubanov küçəsində yerləşən qadın məsləhətxanasının qabağından müəmmalı şəkildə yoxa çıxması barədə polis-prokurorluq orqanlarına məlumat verirlər. Dərhal axtarış işi açılır. Lakin kifayət qədər uzun və intensiv aparılan əməliyyat axtarış işləri nəticə vermədiyindən Nəsimi rayon prokurorluğunda adam öldürmə faktı üzrə cinayət işi başlanır. İstintaq prosesində şahid qismində dindirilən Hacıyev Arif Bahadur oğlu, Jalə azadlığa çıxandan sonra, onu görüb-görməməsi barədə təkidlə verilmiş suala, o, Jaləni görmədiyini, hətta onun həbsdən azad olunmasından beiə məlumatının olmadığını qətiyyətlə bəyan edir və bu dəfə adəti üzrə ölənlərin ruhuna and içmir...

# TAMAH, YOXSA İNTİQAM?

31 yanvar 1990-cı il tarixdə Bakının o vaxt Serebrovski (köhnə və təzə adı Qaraçuxur) adlanan qəsəbəsində yenicə tikilmiş ikimərtəbəli evdə yaşayan ərlə arvadın bir-birinə sarılmış cansız cəsədləri və təxminən altı aylıq uşaq öz beşiyində heydən düşmüş halda bədəni saralmış vəziyyətdə aşkar olunmuşdu.

Hadisə yerinin və meyidlərin ilkin müayinəsi nəticəsində müəyyən olunmuşdur ki, mərhumlar deşici-kəsici və küt alətlərlə qətlə yetirilmişlər. Tibb ekspertinin mülahizəsinə görə mərhumların ölümü bir sutkadan artıq qeyri-müəyyən vaxtda baş vermişdir. Əşyaların və avadanlığın dağınıq və pərakəndə vəziyyəti evdə tələsmədən arxayıncasına axtarışlar aparıldığına dəlalət edirdi. Baxış zamanı məlum oldu ki evə giriş qapısı darvazadan həyətə daxil olduqdan sonra mümkündür., darvaza və qapının üstündə zorla açılmağa dəlalət edən əlamət və ya izlər yoxdur. Həyətə ilk baxışda güman olunurdu ki, inşa-tikinti işləri hələ axıracan görülməyib, yarımçıqdır. Hasarın hündürlüyü 3 metrdir. O hündürlükdə də dəmir dayaqların üstündə su çəni qoyulmuşdur. Çəndən təxminən 2 metr aşağıda su borusu sallanmış vəziyyətdədir.

Aparılan baxış-müayinənin nəticələri, əldə olunan ilkin məlumatlar, cinayətin törədilmə vaxtını, motivini

müəyyən etmək sarıdan kifayət qədər əsaslar verməsə də, hər halda təsdiqini tapa bilməsi ehtimal olunan versiyaların irəli sürülməsinə zəmin yaradırdı.

Hadisəni ilkin olaraq aşkar etmiş mərhum Rüstəmin atasının verdiyi ifadədən məlum olurdu ki, o özü şəhərdə – "Beşmərtəbə" deyilən məhəllədə yaşayır. Son 10-15 gündür ki, fövqəladə vəziyyət hökm sürdüyündən oğlu gilə gedib-gəlmir, onlarla heç bir əlaqəsi yoxdur. Hadisə aşkar edilməmişdən bir gün əvvəl bir neçə dəfə oğlunun evinə zəng vursa da, telefona heç kəs cavab verməyib. Əvvəlcə elə güman eləyib ki, yəqin telefonun susmağı da elə fövqəladə vəziyyətlə bağlıdır. Ya da telefon işləmir. Kişi öz-özünə təsəlli versə də, amma narahatlığı get-gedə artıb... Nəhayət qərara gəlib ki, hər halda arxayınlıq üçün gedib onlara baş çəkməlidir. Yanvarın 31-də Serebrovskiyə gəlir. Həyət-bacada bir səs-səmir yox, qapı arxadan bağlanmayıb, qapını açıb içəri girir və bu qanlı mənzərənin şahidi olur. Dərhal polisə məlumat verir və təcili tibbi yardım maşını ilə yarımcan vəziyyətdə olan uşağı xəstəxanaya çatdırırlar.

Atanın və onun digər ailə üzvlərinin verdiyi ifadələrdən belə məlum olur ki, mərhumlar iki ilə yaxın müddət ərzində bir-birini sevib evləniblər, bu vaxt ərzində bir oğlan uşaqları da dünyaya gəlib. Rüstəm ticarətlə məşğul imiş, hər gün işə yollanıb, axşam da evinə qayıdırmış. Həyat yoldaşı isə evdar qadın olub, həyət-bacada çox görünməzmiş, hərdənbir yeyinti şeyləri, çörək almağa yaxındakı dükan-bazara baş çəkərmiş, Bu cinayəti törətməyə səbəb ola biləcək heç kəslə ədavətləri olmayıb, nə də şübhələn-

dikləri konkret şəxslər mövcud deyil.

İlk olaraq cinayətin fövqəladə vəziyyət şəraitində, milli zəmində, münaqişəni kəskinləşdirmək məqsədi ilə xüsusi orqan əməkdaşları, yaxud onların təhriki və təşkilatçılığı ilə fövqəladə rejimə nəzarət edən hərbiçilər tərəfindən törədilməsi ehtimalı versiya olaraq istintaqın marağını daha çox cəlb etməkdəydi. Cinayətin axşam saat 8-dən səhər saat 7-ə qədər çəkən komendant saatı ərzində törədilməsinə əsas verən hallar mövcud idi. SSRİ müvafiq komandanlığı tərəfindən təyin olunmuş komendantın imzaladığı və möhürlə təsdiq etdiyi buraxılış vərəqəsi olmadan nəinki küçəyə, heç öz evinin həyətinə, havaya çıxmaq belə qadağan olunmuşdu. Bu qaydanı pozanlar yerindəcə həbs olunurdu. Qadağan saatları şəhərdaxili və şəhərətrafı yaşayış ərazilərinə şamil olunurdu. Belə olan təqdirdə cinayəti törədən şəxsin və ya şəxslərin evə daxil olması axşam saat 8-ə qədər, yaxud səhər saat 7-dən sonra mümkün ola bilərdi. Evdə uzun müddətli və hərtərəfli axtarışın aparılmasından güman etmək olardı ki, evə axşam saat 8-ə qədər daxil olub, səhər, yəni komendant saatı başa çatandan sonra evi tərk etmişlər.

Lakin, evdə aparılan axtarışın, eləcə də cinayətin törənmə mexanizmi, onun milli zəmində, yaxud xüsusi orqan əməkdaşları tərəfindən törədilməsinə kifayət qədər inandırıcı əsaslar vermirdi. Belə ki, sübut ola biləcək materialların müqayisəli təhlili, onların əhəmiyyəti, aparılan çoxsaylı istintaq-əməliyyat tədbirləri bu versiyanın nəticəsiz olduğunu təsdiqləmiş oldu.

Qonşulardan biri dindirilərkən müəyyən olundu ki, 20

Yanvar şəhidlərinin dəfnindən sonrakı gündən başlayaraq, həyətdən su şırıltısı eşidilirmiş, hətta o qonşu başqa bir qonşuya deyibmiş ki, ev sahibləri yəqin evdə yoxdur, suyu ki, vaxtaşırı verirlər, su çəni də dolub daşır, evdə adam olmadığına görə bağlayan yoxdur. Rüstəmin atası öz ifadəsində təsdiq edirdi ki, çəndən dolub daşan suyu, hadisəni aşkar etdiyi gün o bağlayıb.

Yaxın ərazidə yaşayan, əvvəllər məhkum olunmuş şəxslər də diqqət mərkəzindəydi. Bu məqsədlə qəsəbədə yaşamış və yaşamaqda olan, vaxtilə məhkum olunmuşlar, eləcə, son zamanlar cəza müddətinin başa çatması ilə bağlı, yaxud vaxtından əvvəl şərti azadlığa buraxılanlar barədə əlimizdə kifayət qədər məlumat toplanmışdı. Həmin şəxslərin məhkum olduqları cinayətlərin xarakteri törənmə şəraiti, üsulu və silah qismində istifadə olunan alətlər cəza çəkdikləri müəssisələrdən əməliyyat arayışları, daha çox maraq doğuran hallardasa, onlara aid cinayət axtarış işləri öyrənilirdi.

Qonşuların ifadələrindən məlum olurdu ki, hər dəfə mərhumə ilə qarşılaşanda onun əlində, qolunda, boynunda qızıl zinət əşyaları görürlərmiş. Qohumlar da mərhumənin bu hobbisini, yəni qızıl zinət əşyalarını xoşladığını təsdiqləmiş oldular.

Güman oluna bilərdi ki, mərhumənin müntəzəm olaraq üstündə gəzdirdiyi qızıl zinət əşyalarını müşahidə edə bilən şəxs və ya şəxslər, qadını və onun həyat yoldaşını məqsədyönlü şəkildə izləyib, onların evə gəlib-getmə vaxtlarını dəqiqləşdirib komendant saatı başlamamışdan, yəni axşam saat 8-dən əvvəl evə daxil olub rejim vaxtı

səhərə kimi öz alçaq niyyətlərini həyata keçirmişlər.

Əlbəttə, bunlar hələ ki, yalnız yoxlanmamış versiya olaraq müstəntiqin mülahizələrindən başqa bir şey deyildi.

Üzbəüzdəki üç mərtəbəli komunal evlərdə yaşayan qonşularla aparılan əməliyyat-istintaq tədbirləri zamanı, habelə suyun şırıltısı və onların yaşadıqları evlərdən mərhumlara məxsus həyətin görünüşü və s. bu kimi maraq doğuran xüsusatlar yerində araşdırılarkən evə yaxın ərazidə bir nəfər orta yaşlı kişinin bir topa göyərçin uçurtduğunu və göydə süzən quşlara hayıl-mayıl tamaşasına durduğunu gördüm...və qonşu qadından onun kimliyini soruşdum. Qadın dedi ki, – bəli, bu kişi də qəsəbə sakinidir, günün müxtəlif vaxtlarında, ən çox da axşam tərəfi göyərçinləri uçurdur. Bəzən onun yanında bir neçə nəfər də görünür. bilmirəm burda yaşayandılar, ya yox?!

Hər halda o kişinin kimliyi ilə daha yaxından maraqlanmağa dəyərdi. Əməliyyat yolu ilə məlum oldu ki, qəsəbə sakini Fərman Soltanovun həyatı elə quş uçurmaqla keçməyib. Onun şəxsiyyətinə aydınlıq gətirildi. Məhkum olunmuşların siyahısı nəzərdən keçirilərkən, Fərmanın adı həmin siyahıda çıxdı. Əldə olunan məlumatlardan o da bəlli oldu ki, Fərman hazırda Lyuba adlı qadınla birgə yaşayır. Lyuba özü 8-ci km qəsəbəsindəki ərzaq mağazasında satıcı işləyir. Lyubanın iş yerində aparılan araşdırmadan sonra müəyyən olundu ki, əri Fərmanın ona qarşı münasibəti biganədir. Və bu münasibət qarşılıqlı xarakter daşıyır. Gündəlik həyatda isə Fərman birgə məhkumluq həyatı yaşamış adamlarla tez-tez əlaqə saxlayır, xasiyyətcə

çox qapalı adamdır. Bununla belə hiyləgərdir və həm də çox qəddardır. O dərəcədə ki, Lyuba ondan ehtiyat edir, ondan hər şey gözləmək olar. Fərmanla tanışlığı isə bir neçə ilin söhbətidir. O zaman Fərman Leninqradda oxuyurmuş. Lyuba onun şirin dilinə, yalançı vədlərinə inanaraq, Fərmana qoşulub Bakıya gəlib və hazırda şəraiti çox da yaxşı olmayan birotaqlı evdə yaşayırlar. Lyubanın sözündən məlum olurdu ki, onun iş yerində, eləcə də evdə qonşularla münasibəti yaxşıdır. Onu narahat edən məsələ ərinin konkret faydali bir işlə məşğul olmaması və həm də keçmiş türmə yoldaşları ilə qaranlıq münasibətləridir ki, bunlar da gec-tez onun azadlıqda çox qalacağını heçə endirir.

Lyuba ilə bizim tanışlığımız, onunla Fərman haqqında bəzi mühüm şeyləri bölüşmək çox vaxt aparmadı, həm də çətin olmadı. Ona yazılı ifadə vermək barədə təklif olundu və həmin ifadənin bir istintaq sirri olaraq məxfi qalacağına söz verildi. Müəyyən olundu ki,Fərman ondan harada olmasi yaxud haraya getməsi kimi suallara nəinki cavab verməyi xoslamır üstəlik belə suallara görə təhqir edir Son vaxtlar xüsusilə Fövqəladə vəziyyət elan olunduğu vaxtdan hər gecə evdə qalmış yalniz bir gecə evə gəlməmişdir, Həmin gecənin səhəri saat təxminən 7:30 radələrində, komendant saatı qurtarandan sonra evə qayıdıb gəlib, gətirdiyi bükülü nə idisə, onu evin çardağına qoyub, sonra da yatıb. Lyuba işə tələsdiyindən Fərmanın nə vaxt oyandığını görməyib. Fərmanın gətirdiyi həmin əşyaların hazırda çardaqda olub-olmamasından da xəbəri yoxdur, bununla heç maraqlanmayıb da... Lyuba Fərmanın oturub

durduğu məhkum yoldaşlarından Sergeyi, Ruslanı, Mişanı və adlarını bilmədiyi bir neçə nəfəri üzdən tanıdığını söylədi, lakin onların harda yaşadıqları barədə heç bir məlumatı olmadığını bildirdi. Axırıncı dəfə Fərmanı, onun bir yerdə həbsdə yatdığı Roman adlı şəxslə həyətdə gördüyünü də əlavə etdi...

***

...İstintaq qarşısında duran vəzifə – törədilmiş ağır cinayətin açılması, cinayətkarların məsuliyyətə cəlb olunması əsas vəzifə borcu sayılsa da, eyni zamanda digər bir vəzifə də istintaqın gedişinə öz köməyini əsirgəməyən vicdanlı şahidlərin təhlükəsizliyini təmin etmək, onların həyatına, səhhətinə zərər vura biləcək hər cür qəsdlərdən qorumaqdır. Bu ən ümdə və vacib vəzifə olmaqla yanaşı, həm də hər bir istintaqçı qarşısında duran öhdəlikdir. Bu işdə də, dediyim istiqamətdə təhlükəsizlik tədbirlərinin görülməsi, eyni zamanda istintaq sirrinin qorunmasını təmin etmək zəruri şərtlərdən biriydi. Bu tədbirlər görülmədən Lyubanın ifadəsini yoxlamaq və bununla bağlı istintaq hərəkətlərinin aparılması şübhəsiz ki, bir qədər ehtiyatlı olmağı tələb edirdi...

Zərərçəkmiş tərəfin ifadələrində evdən qarət edilmiş qızıl-zinətdən başqa, maqnitafon və xırda məişət əşyalarının da əks olunduğu şəkillər əldə edilmişdi. Elə həmin vaxtdan başlayaraq Fərmanın özü artıq müşahidə altındaydı. Bilavasitə Lyubanın köməyi ilə onlar yaşayan evin çardağında Fərmanın gizlətdiyi maqnitafon və bir sıra xırda məişət əşyaları aşkar edildi, onlara baxış keçi-

rildi. Müəyyən olundu ki, mələfəyə bükülü, maşın üçün nəzərdə tutulan “Pioner” markalı maqnitafon, sarı və ağ metaldan olan çəngəl-qaşıqlar, kişi və qadın qol saatları, evdə olmayan gecənin səhərisi məhz Fərman tərəfindən çardağa qoyulubdur. Həmin əşyalar dərhal tanınma üçün, qanunla nəzərdə tutulan qaydada zərərçəkmişlərin qohum-əqrəbasına təqdim olundu və həmin şeylərin məhz evdən yoxa çıxmış əşyalar olduğu təsdiqləndi. Əməliyyatçıların verdiyi məlumata görə, Fərman həmin gün saat 11 radələrində 7-ci mikrorayonda bir nəfər ağbəniz, sarışın, mavi gözlü, ortaboy bir şəxslə görüşüb bir neçə saat söhbətləşiblər... Onların görüşü, məhz həmin vaxta təsadüf edirdi ki, çardaqdan tapılan əşyalara baxış keçirilirdi. Lyubadan şübhələnərək ona xətər yetirə biləcəyinin qarşısını almaq məqsədi ilə Fərmanın tutulması vacib olsa da, cinayətin törədilməsində iştirakı güman olunan 3-cü şəxsin ortaya çıxması üçün, onun hələ bir müddət müşahidə altında, guya sərbəst qalma görüntüsü yaratmaq lazım idi. Lakin son günlərdə hiss olunurdu ki, o, izləndiyindən hardasa şübhəlidir. Odur ki,arxasınca gələn, yaxud küçənin o tayında onunla paralel yol gedənləri yoxlamaq məqsədilə, getdiyi yolu birdən dönüb geri qayıdır, bəzən də dalana girərək özünün şübhələndiyi adamları izləyirdi. Bir neçə dəfə əməliyyatçılar Fərmanı, onları ifşa edə biləcəyindən ehtiyat edərək onun nəzarətdən çıxmasına özləri bilərəkdən şərait yaratmaq məcburiyyətində qalıblar. Lyubanın dediyinə görə, Fərman hər dəfə evə qayıdanda maraqlanırmış ki, kimsə onu soruşub, ya yox?! Tez-tez də pəncərədən çölə boylanırmış...

Müəyyən olundu ki, Fərmanın 7-ci mikrorayonda gö-

rüşdüyü adam onunla 12-ci kalonda birlikdə cəza çəkdikləri Roman adında şəxsdir və azadlığa buraxıldıqdan sonra da tez-tez görüşüb söhbətləşdiyi həmin adamlardan biridir.

Artıq Fərmanın şübhəli şəxs qismində tutulması üçün kifayət qədər əsas vardı. Odur ki, həmin gün Fərman yaşayan evin həndəvərində və onun quş uçurduğu yerə yaxın əməliyyatçılar yerləşdirildi.

Axşam saat 5 radələrində Fərman quşlara dən verməyə başlamışdı ki bir nəfər ona yaxınlaşıb göyərçin almaq istədiyini bildirəndə o, sağ əlini gödəkçəsinin cibinə salaraq əvvəlcə susdu, ətrafa göz gəzdirib "Yox" dedi. Cüssəli və fiziki cəhətdən özünə güvənən əməliyyatçı Fərmanın cibində hazır vəziyyətdə silah tutduğunu başa düşdü və "Sağ ol" deyib üzünü çevirib getmək təsəvvürü yaratdı və dərhal da dönüb bir göz qırpımında Fərmanı arxadan qamarladı və ona əlini cibindən çıxarmağa belə imkan vermədi. Çox keçmədi ki, digər əməliiyatçılarla birgə Fərman tam zərərsizləşdirildi, cibində açılmış vəziyyətdə tutduğu fin bıçağı əlindən alındı...

...Fərmanın evində aparılan axtarış zamanı aşkar edilən bağlama, içindəki əşyalarla birgə Elmi-tədqiqat məhkəmə ekspertiza institutuna təqdim olundu.

Şübhəli şəxs qismində dindirilən Fərmana ümumi suallar ətrafında sərbəst şəkildə ifadə verməsi üçün şərait yaradıldı. Hadisənin törədildiyi ərəfədə komendant saatı ərzində onun hərbiçilər tərəfindən saxlanıb- saxlanmaması, başqa yerdə qalıb-qalmaması, evində gecələmədiyi hallar olub-olmaması, cəza çəkdiyi müddət

ərzində tanıdığı şəxslərdən kimlərlə əlaqə saxladığı və sair bu kimi köməkçi məqsəd daşıyan dolayı suallara Fərman yalnız “Yadımda deyil” və yaxud “Bilmirəm” deyərək yaxasını qırağa çəkirdi.

Şahid qismində dindirilən Romanın da Fərmana verilən eyni məzmunlu suallara ziddiyətli cavablar verməsi maraq doğurmaya bilməzdi. Şübhəli şəxs qismində ifadə verən Romanı Fərmana bağlayan amillər, onların cəza çəkdikləri 12 saylı cəzaçəkmə müəssisəsindən alınan xasiyyətnamə, Romanın guya Lyubanı tanımaması, heç üzünü belə görməməsi barədə ilkin ifadəsi Lyuba ilə üzləşmə zamanı Lyubanın onun sözünü yalana çıxarması, Romanı qismən də olsa düzgün ifadə verməyə vadar etdi. Məlum oldu ki, Lyuba Romanın bacısı Nataşa ilə münasibət saxlayır və bir neçə dəfə Lyubanın iş yerində görüşüblər. Nataşa da dindirilərkən, Romanla Fərmanın eyni kalonda cəza çəkdikləri vaxtdan bir-birini tanıdıqlarını və həbsdən çıxandan sonra da münasibətlərini davam etdirdiklərini təsdiqlədi. Onun başa düşdüyünə görə, qardaşı Roman Fərmandan çəkinir və hətta qorxur. Bir neçə dəfə öz qardaşına deyibmiş ki, Fərmandan nə qədər tez üzülüşsə, o qədər yaxşıdır. Roman özü də Fərmanla oturub-durmaq istəməsə də – öz iradəsizliyi, qətiyyətsizliyi və üstəlik qorxaqlığı ucbatından bu addımı ata bilmir. Evə hər hansı mənbəyi məlum olmayan əşyalar gətirməsi, komendant saati vaxtı Romanın evdə gecələmədiyi kimi halların olub-olmaması və.s. dolayı suallara cavab aranarkən məlum oldu ki, 20 Yanvar şəhidlərinin dəfn günü o, Fərmanla bir yerdə olduğunu, həmin gün şəhərə çıxmağın təhlükəli ol-

duğunu səbəb gətirərək, Fərmangildə qalacağını telefonla bildirmişdi. Yeri gəlmişkən, həmin günlərdə erməni faşizmini müdafiə edən, eyni zamanda Bakıda fasiləsiz davam edən etiraz mitinqlərini boğmağa cəhd edən imperiyanın təxribatçı siyasəti, eləcə də xüsusi qəddarlıqla azadlıq, haqq-ədalət uğrunda mübarizə aparan Azərbaycan xalqının gözünü qorxuzmaq məqsədi ilə istifadə olunan quduz qüvvələr Bakıda, eləcə bölgələrdə yaşayan digər millətlərin nümayəndələrini, xüsusilə o zaman Azərbaycanda məskən salmış bir milyona yaxın rus kökənli insanların taleyini təhlükə altında qoymaqdan çəkinmirdi. Hərçənd ki, 20 yanvar hadisələrinə qədər, eləcə də o ərəfədə, ondan sonra da Azərbaycanda milli münaqişə zəminində heç bir insanın necə deyərlər, hətta "burnu belə qanamamışdı". Ara-sıra olanlar da, xüsusi olaraq kimlər tərəfindənsə hazırlanmış təxribatçı qüvvələrin əməliydi... Yadımdadır ki, ermənilərin rus imperiyasının bilavasitə yardımı ilə torpaqlarımızı işğal etdiyi, həmvətənlərimizin Qərbi Azərbaycandan və öz doğma yurdlarından qovaraq didərgin salındığı, əhalini kütləvi şəkildə qırıb-çatdıqları bir zamanda xüsusi orqan əməkdaşlarının ' ''təhriki ilə''"Azadlıq" meydanında kürsüyə çıxarılan 19 yaşlı, ruhi xəstəliyi olan bir oğlanın, ermənilərin Bakıdan qovulması barədə təklifinə və "onlara ölüm" şüarına görə barəsində Bakı şəhər prokurorluğunda cinayət işi başlanmışdı və o, məsuliyyətə cəlb olunaraq məhkum olunmuşdu. İnanıram ki, bəlkə də dünyada heç bir millət – humanizmin, beynəlmiləlçiliyin nümunəsi olan, əslində çoxunun "sadəlövhlük" kimi qiymətləndirdiyi bu böyüklüyü etməzdi. 20 Yanvar şəhidləri-

nin dəfn günü də heç bir millətin nümayəndəsinə "güldən ağır" söz deyən olmadı. Rus imperiyasının törətdiyi kütləvi qətliama görə də heç bir rus və digər millətdən olan Azərbaycan vətəndaşına dediyim kimi "üzünü turşudan" tapmazdın... Azərbaycanda törədilən qırğın qurbanlarının dəfni günü gənc ailənin xüsusi amansızlıqla qətlə yetirilməsini siradan olan cinayət olaraq qiymətləndirmək çətin idi.

İş üzrə toplanan materiallar cinayətin törədilməsində digər səxsin və ya şəxslərin də iştirakını istisna etmirdi. Tibbi ekspertlərin rəyindən belə məlum olurdu ki, qətl "iki müxtəlif deşici-kəsici, həm də küt alətlə yerinə yetirilibdir". Ağırlıq dərəcəsinə görə müxtəlif olmaqla, yüngül xəsarətlərin sayı agır xəsarətlərdən daha çoxdur. Yüngüllər işgəncə xarakteri daşıyırdı.

Ağırlaşdırıcı hallarda adam öldürmə, quldurluq və digər bir sıra cinayətlərin törədilməsinin təşkilində ittiham olunan Fərman özünü təqsirkar bilmədi və sübutlar tələb edərək müqəssir qismində ifadə verməkdən boyun qaçırdı. İstintaq üçün bu variant imkan verirdi ki, Fərmanın növbəti dindirilməsi, iradəsi daha zəif, həm də cinayətə məhz onun təhriki ilə qoşulması güman edilən Romanın növbəti ifadəsində üzə çıxası dəlillər əsasında qurulsun.

Düşünürdüm ki, Romanın dürüst və obyektiv insan təsiri bağışlayan bacısı Nataşanın, qardaşı ilə üzləşməsinə zərurət olmasa da, bacının xahişi nəzərə alınaraq, onları görüşdürmək hər halda istintaqa xələl gətirməzdi. Cinayəti törədən şəxslərin oturub-durduğu dairə, motiv, şərait və bu kimi hallar barədə əlavə məlumat almaq üçün belə

görüşmənin əlverişli olacağına gümanım çox idi.

Romanın ifadəsindən məlum oldu ki, cinayətdən bir neçə gün əvvəl Fərman Romaya onların yaxınlığında yerləşən varlı ər-arvadın evinə girməyi təklif eləyib. Roma əvvəlcə ikilikdə bunu törətməkdən qorxduğunu bəhanə gətirərək boyun qaçırıb. Fərman belə bir işdə təcrübəsi olan daha bir nəfərin də onlara qoşulacağını söyləyib. Cinayəti həmin üçüncü iştirakçı ilə birgə planlaşdırmaq məqsədi ilə üçlükdə görüşməyi lazım bilib. Və şəhidlərin dəfn günü həqiqətən hər üçü Razin qəsəbəsində bazara yaxın bir yerdə görüşərək məsələni müzakirə ediblər. Əvvəlcədən razılaşdırılan saat 19:45 radələrində hərbi forma geyinmiş, sonradan tanıdığı, cinayətin üçüncü iştirakçısı Qorbunov Yevgeni həyətin açıq darvazasından içəri girir, onlara tapşırır ki, həyətdə, evin yan tərəflərində gizlənsinlər. Qorbunov qapını döyür, qapıya çıxan ev sahibinə özünü ərazi üzrə hərbi komendant sifətiylə təqdim edir, ev sahibindən sənəd istəyir, ev sahibi sənədlərin arxasınca döndüyü anda onun işarəsi ilə dərhal gizləndikləri yerdən çıxıb evə soxulurlar.

Roman tez-tez həyəcanlanır, cinayəti hansı tərzdə, vasitəylə törətməkləri barədə danışmaqda çətinlik çəkirdi. Qətl səhnəsini heç cür təsvir edə bilməyəcəyini deyərək, hönkürtü ilə ağlamağa başladı. Evin girəcəyindən solda yerləşən mətbəxin qarşısında mərhum Rüstəmlə qarşı-qarşıya gəldikləri an əllərində bıçaq hər üçü onu tutaraq həyat yoldaşının olduğu mətbəxə salmışlar. Qorbunov hərbi buşlatın qoltuğunda gizlətdiyi baltanı çıxarıb, ərlə-arvada xəbərdarlıq edir ki, cınqırları çıxsa, başlarını

bu balta ilə üzəcək. Hər üçü köməkləşib, Fərmanın təklifi ilə ərlə-arvadı bir-birinə sarıyıb döşəməyə uzadırlar. Komendant vaxtı olduğundan bilirdilər ki, heç kəs evə gələn deyil və rejim saatı başa çatanadək, yəni səhərə qədər özlərinin də burdan çıxmağı imkansızdır. Pul və qızıl-zinət şeylərinin yerini öyrənmək məqsədilə təxminən bir saatdan çox bıçaqla ərlə-arvada işgəncə verirlər Qadının boynunda, qulaqlarında və masanın üstündəki xırda brilliant qaşlı saatdan başqa şəxsən o heç nə görməyib. Fərmanin onu tanıyırlarmı? sualina Onlar dil-ağız eləyib yalvarırdilar ki, – "Biz qonşuyuq, yazığınız gəlsin, bizi öldürməyin".

Roman ər-arvada verilən işgəncənin dəhşətindən danışanda həm titrəyir, həm də ağlayırdı. Bacısı Nataşa da ona qoşulmuşdu. Şübhəsiz, mən özüm də daxilimdə hadisənin təfərruatından az qalırdım hisslərimi biruzə verim, özümü güclə saxlayırdım. Fərman ona Qorbunovun yanında ehtiyat qüvvə kimi dayanmağı, lazım gələrsə ona əl yetirməyi tapşırsa da, əslində buna ehtiyac yox idi. Mərhumlar işgəncə altında biri-birinə sarılmış halda, taqətsiz vəziyyətdəydilər. Fərman artıq evdə axtarışa başlamışdı. Mərhumları qətlə yetirəndən sonra hər üçü qızıl zinət əşyaları və pul axtarmağa qoşuldular. Evin küçə pəncərəsinə yaxın, arakəsmənin arxasında uşaq ağlamağını eşidəndə, Roman və Fərman pəncərəyə yaxın beşikdə olan bir neçə aylıq uşağın olduğunu aşkar edirlər. Bayırda uşaq səsinin eşidilə biləcəyindən ehtiyat edən Fərman Romana uşağı bıçaqla vurub onun səsini birdəfəlik kəsməsini təklif edir. Roman isə uşağı vurmaqdan boyun qaçırıb beşiyi otağın küçə tərəfindən həyətə sarı keçirir.

Fərman birdən uşağın başının altında olan yastığı qapıb körpənin ağzına basır. Səhərə qədər evdə aparılan axtarış zamanı, ona məlum olan 1500 rubl pulu öz aralarında bölüşdürürlər. Mərhumənin boyun-boğazından və mətbəx masasının üstündən götürülən sarı rəngli, qızıla bənzər zinət əşyalarını və parçaya bükülü içərisində müxtəlif məişət şeylərini Fərman və Qorbunov özləri ilə götürürlər və Romana bəhanə gətirirlər ki, sənin yolun uzaqdır, bilmək olmaz, yolda yüz cürə hadisə olar, qoy bizdə qalsın, sonra bölüşdürərik. Səhər saat 7-ə yaxın komendant saatı başa çatandan sonra evdən çıxıb, hərəsi bir istiqamətə gedirlər.

Romanın ifadəsindən eyni zamanda görünürdü ki Qorbunov ərlə-arvada balta ilə zərbə endirdikcə, bir neçə dəfə "Krov xoçu" ("Qan istəyirəm") ifadəsini işlədirmiş. Sanki, bu zərbələri o, qisas, yaxud intiqam almaq niyyəti ilə yerinə yetirirmiş. İstintaq zamanı bu ifadənin əsl mahiyyətini, yönəldiyi obyekti müəyyən etməyə cəhd göstərilsə də, məlum oldu ki, Qorbunov ilə zərərçəkmişlərin heç bir tanışlığı yoxmuş, Qorbunovun özü də Roman kimi bu müdhiş cinayətə Fərman tərəfindən cəlb olunub Eyni zamanda orası da müəyyən edildi ki, Qorbunov əvvəllər heç vaxt mühakimə olunmayıb, həbs olunana qədər zavodda yüksək ixtisaslı tokar kimi fəaliyyət göstərib. Qorbunovun həyat yoldaşı, Razin qəsəbəsində yerləşən orta məktəbdə direktor müavini işləyib. Maddi vəziyyətləri o dövrün orta yaşayış səviyyəsindən yüksək olmaqla, hər ikisi iş yerlərindən müsbət xarakterizə olunurlar. Belə olan təqdirdə Qorbunovu bu cinayətə sövq edən səbəblər və hansısa

amillərin olması sual altında qalırdı. Bəlkə bu nifrət onun azərbaycanlılara, yaxud müsəlman dininə mənsub olanlara qarşı kin-küdurətindən baş alıb gəlirdi?! Hər bir halda əməliyyat və istintaq tərəfindən aparılan araşdırmalar Qorbunova hansı motivlərlə olur-olsun insanlığa xas olmayan bu ağır cinayəti törətməyə heç cürə əsas vermirdi. Roman ilə Qorbunov arasında keçirilən üzləşmə zamanı, sonuncunun ünvanı bəlli olmayan ifadələr işlətməsi fakt olaraq təsdiqini tapsa da, Qorbunov Romanın ünvanına "satqın" ifadəsini işlədərək təkzibedici, hər hansı bir arqument gətirə bilmədi.Istintaq bu ifadələrin mahiyyət dərinliyinə varmağa ehtiyatla yanaşdı və yenə də beynəlmiləlçilik prinsiplərinə sadiq qalaraq məsələni şişirtmədi.

Fərmanı xarakterizə edən materiallar onun həqiqətən qəddar, xudpəsənd və hiyləgər bir şəxs olduğunu tam sübuta yetirdi. Onun təşkilatçısı olduğu bu ağır cinayətin törədilməsində başlıca motiv – tamahın olması şübhəsiz idi. Lakin onunla bağlı aparılan istintaq zamanı mərhumlara işgəncə verilməsi və məhvedici xəsarətlərin yetirilməsi prosesində guya onun iştirakı olmadığını, eləcə də uşağı öldürməkdən imtina etməsi kimi özünümüdafiə məzmunlu ifadələri ilə o öz məsuliyyətini azaltmağa çalışırdı. Beşikdəki uşağı bıçaqla vuraraq qətlə yetirmək barədə onun Romana göstərişi, üzləşmə zamanı daha bariz şəkildə üzə çıxdı. Fərman dedi ki, elə bir niyyəti olsaydı, bunu özü yerinə yetirə bilərdi; əksinə o, uşağın başının altındakı yastığı çıxardıb onun üstünə qoymaqda niyyəti, uşağı soyuqdəymədən qorumaq və onu ölümdən xilas etmək məqsədi güdürmüş. Şübhə yox idi ki, Fərman öz uydur-

ma ifadələri ilə istintaqı çaşdırmaqla məsuliyyətini yüngülləşdirməyə cəhd göstərirdi. Roman isə uşağın bədəninin yorğança ilə örtülü olduğunu, Fərman balışı məhz uşağın ağız nahiyyəsinə qoyub üstündən əli ilə basdığını, «Ты так умрешь» ifadəsini işlətdiyini bir daha təsdiqlədi. Cinayət 22 yanvar gecəsi törədildiyi halda, fakt yalnız səkkiz gün sonra, mərhumların qohumları tərəfindən aşkar edilmişdi. Bu barədə Fərmanın özü də sonradan boynuna alırdı ki, o, quş uçurtmaq vərdişini hadisədən sonra da hər gün təkrar edirdi. Əks təqdirdə onun birdən-birə yoxa çıxması şübhə doğura bilərdi. Belə ki, yanvarın 31-nə kimi hadisənin üstünün açılmaması onun gözünün qabağındaydı. Guya uşağın ölməsini rəva bilməyən Fərman niyə görə hadisənin daha tez açılmasına və uşağın xilasına xidmət edə bilən hər hansı formada telefonla bu və ya digər nömrəyə, polisə, yaxud elə təcili tibbi yardıma məlumat vermədiyi barədə suala cavab olaraq, nə desə yaxşıdı? Guya o körpə uşağın iki həftə ərzində ac-susuz qalmaq iqtidarında olması barədə eşitdiyi elmi nəzəriyyəyə istinad edərək, uşağın ölməyib sağ qalacağına inanırmış. Hətta o cinayətin aşkar olunduğu yanvarın 31-i günü hadisə yerinə baxış zamanı uşağın sağ qaldığını və təcili yardım maşını ilə xəstəxanaya göndərildiyini kənardan müşahidə edibmiş.

Cinayəti törədərkən, istifadə etdikləri bıçaqlar, mərhumları biri-birinə sarıdıqları ip, cinayəti törətdikləri vaxt əyinlərində olan paltarları, qarət etdikləri maqnitafon və başqa xırda əşyalar üzrə bioloji, fiziki-texniki, ballistik-trasoloji, tibbi və digər məhkəmə ekspertizalarının rəyləri ilə yanaşı, çoxsaylı sübutlar, eləcə də Romanın təsdiqini tap-

mış etirafları qarşısında ifşa olunan Fərman habelə Romanın özü, Qorbunov ilə üzləşmədə sonuncunun bu cinayətdə xüsusi canfəşanlıq göstərdiyini, məhz Qorbunovun özü ilə gətirdiyi balta ilə ərlə-arvadı xüsusi amansızlıqla öldürdüyünü desələr də, Qorbunov dinmədi, susmağı özünə müdafiə üsulu seçmiş oldu.

